RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 189 (9644) 2 sentyabr 2024-cü il BAZAR ERTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azad, ədalətli, demokratik

## Azərbaycan növbəti dəfə seçki nümunəsi yaratdı



## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs veriblər

**Sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 1 saylı seçki məntəqəsində səs veriblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.

Sonra birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs verdilər.

Qeyd edək ki, Bakı şəhərinin 7 saylı Səbail seçki dairəsinin 1 saylı seçki məntəqəsində 579 seçici qeydiyyata alınıb. Bu seçki dairəsi üzrə 8 namizəd mübarizə aparıb.





# Serbiya Azərbaycanın dostu və strateji tərəfdaşıdır

**Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının xarici işlər naziri Marko Curiçi qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Serbiyanın xarici işlər naziri Prezident Aleksandar Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ilə bağlı uğurlar arzulayan Marko Curiç Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi.

Serbiyanın xarici işlər naziri COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı, ölkəmizin qlobal müstəvidə yeni tərəfdaşlıq şəbəkələri və münasibətləri qurduğunu vurğuladı.

Prezident İlham Əliyev Aleksandar Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident Vuçiçlə həm Azərbaycanda, həm də Serbiyada görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı vurğuladı ki, onun Serbiya Prezidenti ilə olan dostluq və tərəfdaşlıq əlaqələri ikitərəfli münasibətlərimizin inkişafına ciddi təkan verir.

Serbiyanın Azərbaycanın dostu və strateji tərəfdaşı olduğunu, ölkələrimiz və xalqlarımız arasında səmimi münasibətlərin qurulduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, bunlar əməkdaşlığın bütün sahələrdə inkişafında özünü göstərir. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanla Serbiya arasında dostluq əlaqələri təkcə ikitərəfli münasibətlər baxımından deyil, eyni zamanda regional müstəvidə Balkan və Qafqaz regionları arasında əməkdaşlığın inkişafına təkan verilməsi baxımından çox vacib xarakter daşıyır.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan öz suverenliyinin və ərazi bütövlüyünün təmin olunması prosesində ikili standartlar, ədalətsizlik, beynəlxalq hüququn norma və prinsiplərinə zidd yanaşmalarla üzləşib. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan öz iradəsi ilə ərazi bütövlüyünü və suverenliyini tam şəkildə təmin edib.

Görüşdə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Azərbaycanın enerji resurslarının digər Avropa ölkələrinə, o cümlədən Balkan ölkələrinə ixracında Serbiyanın artıq tranzit rolunu oynadığı qeyd edildi. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyi, xüsusilə ərazi bütövlüyü və suverenlik məsələlərində prinsipial yanaşmaları bir daha vurğulandı.

Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan-Özbəkistan əlaqələri hər keçən gün daha da inkişaf edir

### Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə



Hörmətli Şavkat Miromonoviç!

Əziz Qardaşım!

1 Sentyabr - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün qardaş Özbəkistan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizin qətiyyətli liderliyiniz və çoxşaxəli fəaliyyətiniz sayəsində sosial-iqtisadi inkişaf yolu ilə dinamik şəkildə irəliləyən Özbəkistan mühüm uğurlara və nailiyyətlərə imza atmışdır. Bütün bunların təməlində Sizin yorulmaz əməyiniz, rəhbərliyiniz altında aparılan dövlət siyasətinə xalqınızın böyük etimadı və dəstəyi dayanır. Biz qardaş ölkənizin bütün uğurlarına, iqtisadi yüksəlişinə, dünyada və regionda gündən-günə artan nüfuzuna sevinir, bundan qürur hissi duyuruq.

Bir neçə gün əvvəl gözəl ölkənizə həyata keçirdiyim dövlət səfəri Azərbaycan-Özbəkistan əlaqələrinin inkişafına yeni təkan vermişdir. Dövlətlərarası əməkdaşlığımızı daha da dərinləşdirmək əzminizi yüksək qiymətləndirir, müzakirə etdiyimiz planları ən qısa zamanda reallaşdıracağımıza əminliyimi ifadə edirəm.

Fəxr ilə qeyd etmək olar ki, möhkəm dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Özbəkistan əlaqələri hər keçən gün daha da inkişaf edir və yeni məzmunla zənginləşir. İkitərəfli əlaqələrimizin bütün sahələrdə genişlənməsi və dərinləşməsi möhkəm siyasi iradəyə, qarşılıqlı inam və etimada əsaslanır.

İntensiv xarakter daşıyan ali səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin nəticəsi olaraq əldə olunmuş mühüm razılaşmalar, müəyyən edilmiş yeni tərəfdaşlıq istiqamətləri, imzalanmış çoxsaylı sənədlər strateji tərəfdaşlığımızın yüksələn xətlə və hərtərəfli inkişaf etdiyinin əyani göstəricisidir.

Əminəm ki, Azərbaycan-Özbəkistan dostluğunun və qardaşlığının möhkəmləndirilməsi, əməkdaşlığımızın daha da genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, şərəfli və məsul fəaliyyətinizdə müvəffəqiyyətlər, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2024-cü il*

## Azərbaycan ilə Slovakiya arasında əlaqələr dinamik inkişaf yolundadır

### Slovakiya Respublikasının Prezidenti zati-aliləri cənab Peter Pelleqriniyə

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Bu gün Azərbaycan ilə Slovakiya arasında əlaqələr dinamik inkişaf yolundadır. Enerji sahəsində səmərəli birgə fəaliyyətimizin digər sahələr və istiqamətlər üzrə də uğurla davam etdiriləcəyinə əminliyimi ifadə edirəm. İnanıram ki, xalqlarımızın maraqlarına uyğun olaraq və mövcud imkanlardan istifadə edərək birgə səylərimizlə Azərbaycan-Slovakiya dostluq əlaqələrinin inkişafına, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2024-cü il*

## Prezidentin köməkçisi: "Ermənistan Minsk qrupunu gündəmə gətirməklə Qərbdəki tərəfdarları ilə müəyyən təsir vasitəsini əlində saxlamağa çalışır"

**"Azərbaycan işğalçı dövlət olmayıb. Azərbaycan həmişə beynəlxalq hüququn norma və prinsiplərindən çıxış edərək qonşu dövlətlərlə münasibətdə bu meyarı əsas tutub. Amma Ermənistan işğalçı dövlət olub. Biz İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminə baxdıqda görə bilərik ki, işğalçı, təcavüzkar olan çox azsaylı dövlətlər var, onlardan biri də Ermənistandır".**




AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev səsləndirib.

İraq-Küveyt müharibəsindən sonra İraq silahlı qüvvələrinin inkişafı ilə bağlı müəyyən məhdudiyyətlər olduğunu xatırladan Prezidentin köməkçisi deyib: "Hesab edirik ki, bu kimi proporsional məhdudiyyətlər Ermənistan silahlı qüvvələrinə də tətbiq olunmalıdır".

Ermənistan baş nazirinin Minsk qrupunun ləğvi məsələsi ilə bağlı şərhində yenə də yalana və təhriflərə yol verdiyini vurğulayan H.Hacıyev bildirib: "Minsk qrupunun ləğv edilməsinin vaxtı çoxdan yetişib, belə bir təsisata heç bir lüzum yoxdur. Ermənistanın bu təsisatı gündəmdə saxlaması və bu istiqamətlə səylərini davam etdirməsi ona dəlalət edir ki, İrəvan münaqişənin bitməməsi təəssüratını yaradaraq Qərbdə onu dəstəkləyən tərəfdarları ilə müəyyən təsir vasitəsini əlində saxlamağa cəhd göstərir". Paşinyanın Ermənistan ilə Azərbaycan konstitusiyalarının müqayisəsi ilə bağlı fikirlərinə də toxunan Prezidentin köməkçisi deyib: "Ermənistan konstitusiyasında müstəqillik haqqında akta uyğun olaraq Azərbaycana qarşı ərazi iddiaları, yəni Qarabağın Ermənistana birləşdirilməsini ehtiva edən məqam hələ də qalmaqdadır. O müddəa dəyişdirilməyincə iki dövlət arasında sülh müqaviləsinin əldə olunmasında ciddi problemlər görürük. Ermənistan cəmiyyəti özü də konstitusiyanı dəyişdirərək məhz o müddəanı, o istinadı oradan götürərək sülh şəraitində yaşamaq istəyini bir daha təsbit etməlidir. Amma Azərbaycan Konstitusiyasında heç bir dövlətə qarşı ərazi iddiaları olmayıb və bu, Azərbaycan xalqının haqlı iradəsini əks etdirən bir sənəddir. Bu müqayisəni də biz yalnız söz oyunu kimi dəyərləndiririk. Ona görə də Ermənistan baş nazirinə və siyasi rəhbərliyinə tövsiyə ondan ibarətdir ki, bu kimi söz oyunlarındansa, real sülh gündəliyinin irəli aparılması, məhz region dövlətlərinin iştirakı ilə sülh gündəliyinin dəstəklənməsi istiqamətində addımlar atsınlar".

# Baş nazir Əli Əsədov 2 saylı seçki məntəqəsində səs verib

**Sentyabrın 1-də ölkəmizin bütün suveren ərazisində VII çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər keçirilib.**

AZƏRTAC xəbər verir ki, səhər saatlarından 7 saylı Səbail rayon seçki dairəsinin 2 saylı seçki məntəqəsində də səsvermə seçicilərin fəal iştirakı ilə keçirilib.

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu seçki məntəqəsinə gələrək səs verib.

Məntəqədə 1343 seçici qeydiyyata alınıb.

Qeyd edək ki, ilk dəfədir Azərbaycanın bütün suveren ərazilərində Milli Məclisə seçkilər keçirilib. Növbədənkənar seçkilər 6478 seçki məntəqəsində təşkil olunub. Budəfəki seçkilərdə 125 yer uğrunda 990 namizəd mübarizə aparıb. Parlament seçkilərində səsvermə hüququna malik vətəndaşların sayı 6 milyon 421 min 960 nəfər olub.



İşğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi yaradılıb.

Seçki prosesini 598 beynəlxalq müşahidəçi izləyib. Yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər olub. Səsvermə saat 19:00-da başa çatıb.

# Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev 34 saylı seçki məntəqəsində səs verib

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev sentyabrın 1-də 16 saylı Yasamal ikinci seçki dairəsinin 34 saylı seçki məntəqəsində səs verib.**

AZƏRTAC xəbər verir ki, bu seçki məntəqəsində də yüksək seçici fəallığı müşahidə olunub.

Qeyd edək ki, ilk dəfədir Azərbaycanın bütün suveren ərazilərində Milli Məclisə seçkilər keçirilib. Növbədənkənar seçkilər 6478 seçki məntəqəsində təşkil olunub. Budəfəki seçkilərdə 125 yer uğrunda 990 namizəd mübarizə aparıb. Parlament seçkilərində səsvermə hüququna malik vətəndaşların sayı 6 milyon 421 min 960 nəfər olub.

İşğaldan azad olunmuş ərazilərdə 54 seçki məntəqəsi yaradılıb.

Seçki prosesini 598 beynəlxalq müşahidəçi izləyib. Yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər olub. Səsvermə saat 19:00-da başa çatıb.




# Azərbaycanda seçki başa çatmayıb, ATƏT-in hesabatı isə hazırdır

**Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri başa çatmamış ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçki hesabatı artıq hazırdır.**

Lent.az-ın özəl mənbələrdən əldə etdiyi sənədin artıq tam olaraq yayıma hazır və təsdiqlənmiş formada olduğu görünür.

Sənəddə qeyd olunur ki, seçkilərin hüquqi bazası demokratik seçkilər üçün əlverişli deyil, Konstitusiya və digər qanunların icazə verdiyi sərbəst toplaşmaq və ifadə azadlığı məhdudlaşdırılıb, beynəlxalq standartlara və ATƏT-in öhdəliklərinə uyğun gəlmir.

Hesabatda deyilir ki, MSK daxil olan şikayətlərin əksəriyyətinə mahiyyəti üzrə baxıb, lakin dəvət olunmuş tərəflərin arqumentləri heç vaxt nəzərə alınmayıb. MSK əvvəlcədən hazırlanmış qərarlar qəbul edərək şikayətçiləri qanunla, ATƏT-in öhdəliklərindən və beynəlxalq təcrübədə nəzərdə tutulmuş prosedur təminatlarından məhrum edib.

MSK və məhkəmə qərarları tam əsaslandırılmayıb və MSK qərarlarında əlavə hüquqi müdafiə vasitələrinin mövcudluğu göstərilməyib. Apellyasiya məhkəmələrinə və Ali Məhkəməyə verilmiş bütün şikayətlər rədd edilib.

Hesabatda vurğulanır ki, siyasi aktorların, hüquq müdafiəçilərinin, vətəndaş cəmiyyəti fəallarının, akademiklərin və jurnalistlərin həbs və həbsləri seçkiqabağı dövrdə də davam edib. Hakimiyyət bəzi hallarda şübhəli maliyyə mənbələri və həbs edilmiş şəxslərin uçotunu, o cümlədən dini fundamentalist və separatçı mənbələrə istinad etsə də, bu həbslər bir sıra beynəlxalq və yerli insan haqları qurumları tərəfindən fərqli fikirlərə və tənqidi səslərə basqı kimi qəbul edilir.

Qeyd edək ki, bir neçə gün öncə mediada ATƏT-in Azərbaycandakı növbədənkənar parlament seçkiləri ilə bağlı hesabatının artıq hazır olması barədə məlumat yayılmışdı.

8. Campaign finance regulations prescribe limits for donations and expenditure, but reporting and disclosure requirements as well as oversight remain insufficient, negatively impacting transparency. Despite a previous ODIHR recommendation, and the introduction by the 2023 Law on Political Parties of annual public funding for all parties receiving votes in the previous elections, there is no public funding of the campaign. Lower-level election commissions, mandated with oversight, posted only some financial reports and many of those reports were lacking any information on donations and expenditures, limiting the information available to voters. Several contestants raised concerns about bureaucratic hurdles to open legally prescribed campaign accounts, while at the same time noting voters 'reluctance to donate due to fear of retribution.

9. The media legislation includes restrictive registration requirements for media outlets and journalists curtailing pluralism. Contrary to international standards, defamation and libel remain criminal offences, resulting in self-censorship and news websites were blocked without a prior court decision, including during the campaign period. Since November 2023, arrests and detentions of journalists intensified, including on charges depriving them of their registration as journalists; some 20 remain detained. Only the ruling party was effectively entitled to free airtime on the public broadcaster; but it refrained from using this. Legal provisions effectively allow private media to cover the campaign only in paid format. Subsequently, monitored

broadcast media did not provide any coverage of the campaign and contestants, and all election-related news items referred to the activities of the CEC, further limiting the opportunity for candidates to convey their messages to voters and the ability of voters to make an informed choice. Newspapers and online media, which offered space for paid advertisement, became the sole platform for the candidates to convey their messages in media.

10. The law provides for the filing of complaints and appeals to election commissions and courts on potential violations of electoral rights. However, the effectiveness of the dispute resolution mechanism was undermined by the lack of impartiality of election commissions and longstanding concerns over the independence of the judiciary. In line with the law, election commissions established expert groups to consider election complaints. The CEC reviewed most received complaints on merits, but the arguments of the invited parties were never considered, and the CEC adopted decisions prepared in advance, thus depriving the complainants of procedural guarantees prescribed by law, OSCE commitments and international good practice. CEC and court decisions were not fully reasoned, and the CEC decisions failed to indicate the availability of further legal remedies. All appeals filed to courts of appeal and the Supreme Court were rejected or dismissed.

42. The campaign was barely visible. Campaigning was mostly conducted through door-to-door canvassing, posters of candidates displayed on the designated boards and digital content.[50] Meetings were primarily small-scale, often in closed or intimate settings. In the events observed by the ODIHR EOM, YAP was the most prominent.[51] In addition to YAP candidates, almost all other contestants supported the President's and government's policies. Infrastructure projects in the regained territories and hosting COP29 as a sign of enhancing the international status of the country also featured prominently in their campaigns. Some contestants also campaigned on the need for improved social services and local infrastructure or criticized internal policies of the government, and on a few instances, they criticized the foreign policy.[52]

43. At odds with international good practice, contestants are required by law to submit their print campaign materials to the ConECs prior to their distribution, which potentially results in self-censorship.[53] The authorities publicly called on the contestants to refrain from disrupting the normal conduct of the elections; some contestants perceived it as a call to refrain from criticism of the authorities.[54] The ODIHR EOM did not observe any campaign materials in formats suitable for persons with various accessibility needs.

44. In line with the law, the CEC provided contestants with a list of 5,506 campaign venues.[55] Some IEOM interlocutors noted that these venues were under police surveillance, which discouraged voters from participating. In addition, some were located in unsuitable and not easily accessible places. Contestants informed the IEOM that they were reluctant to hold meetings outside the designated venues, due to a five-day advance notification requirement. ODIHR EOM LTOs attended campaign events where participants, including public sector employees, informed them that they were ordered or paid by their employer to attend, raising concerns about voter intimidation and voters' ability to cast vote free of fear of retribution.[56]

14. These were the first parliamentary elections held throughout the internationally recognized territory of the Republic of Azerbaijan, and they unfolded amidst ongoing talks to sign a peace agreement to end the long-lasting conflict with Armenia and the hosting of COP29 with the stated aim to raise the country's international image.[5]

15. The political landscape is shaped by the continued dominance of the President who won a fifth consecutive term in February 2024 with an overwhelming majority of 92 per cent of the votes, and the political party he chairs, the New Azerbaijan Party (YAP). YAP has been uninterruptedly in office since 1993 and holds a majority of 68 of the 114 currently occupied seats.[6] While there are 9 more parties represented in the parliament, jointly holding 10 seats, along with 37 members of parliament elected as self-nominated, in almost all cases, there are no dissenting votes by MPs, and they do not represent different political views.[7]

16. Detentions and arrests of political actors, human rights defenders, civil society activists, academics and journalists persisted in the pre-electoral period.[8] While the authorities, in some cases, cited dubious funding sources and accounting of detained individuals, including from religious fundamentalist and separatist sources,[9] these detentions and arrests are perceived by a number of international and local human rights bodies as a crackdown on dissent and critica voices.[10] In addition, IEOM interlocutors cited concerns about widespread endemic corruptior

21. The electoral legal framework is not conducive to democratic elections as the Constitution and other laws provide for the curtailment of fundamental freedoms of association, assembly and expression, falling short of international standards and OSCE commitments.[21] Long-standing priority ODIHR and Venice Commission recommendations, as well as European Court of Human Rights (ECtHR) judgements remain unaddressed, including those related to undue restrictions of fundamental freedoms, the composition of election commissions, unequal campaign conditions in public media, and adding voters to the voter lists on election day. Moreover, the Election Code is comprehensive but lacks clarity on some issues, including media coverage of elections, oversight of campaign finances, rules for vote recounts and grants broad discretionary powers to the election commissions including on candidate registration.

25. Technical preparations were conducted efficiently and within the established deadlines des a compressed timeframe. The CEC held regular sessions attended by representatives of media and contestants, as well as international observers, contributing to transparency. On other hand, CEC sessions and their agendas were not announced in advance while the decis on administrative matters and session minutes were not published, which detracted f transparency. Decisions were usually adopted unanimously with limited debate. In line wit mandate, the CEC conducted cascade trainings for ConECs and PECs. The trainings obse by the ODIHR EOM, both on central and local level, covered essential procedures adequa and were well-attended. The CEC also conducted seminars for various election stakeholders a widespread voter information program, calling voters to check their entries in the voter and to vote as well as targeting certain categories of voters, such as women and youth. The provided Braille templates for the ballots to all polling stations and envisaged to equip po stations in precincts where voters with low mobility reside with ramps.

26. While ConECs were well-resourced, experienced and completed their tasks within presc deadlines, publicly available information about their activities was limited, at odds international standards.[28] ConECs sessions were generally held on an *ad hoc* basis and at notice with only some of their decisions displayed on noticeboards, detracting transparency. In addition, some ConECs denied ODIHR EOM long-term observers acc their documentation, particularly those related to candidate registration.[29] These limita undermined the principle of transparency, at odds with international good practice.[30]

27. While ODIHR EOM interlocutors did not raise concerns about the capacity of the CI undertake election preparations efficiently, many reported on inconsistent and sele candidate registration by ConECs (see *Candidate Registration* section). In addition, I interlocutors questioned the independence of PECs, noting that these are overwhelm composed of public employees and chaired by their supervisors, for example, schooltea being PEC members and their director serving as a PEC Chair.[31]

56. Since November 2023, in part following the publication of an investigative report on corruption of high-ranking state officials, persecution of journalists intensified, with some 20 journalists still in detention, including some on charges of grave crimes, depriving them of their registration as journalists until their criminal records are expunged.[78] Such arrests, combined with the overly-restrictive legal framework contribute to a significantly constrained media-environment, leading to widespread self-censorship and severely limiting the scope for independent journalism and critical discourse.

# Rövzət QASIMOV: "Xeyli sayda müşahidəçinin seçki prosesində iştirakı şəffaflıq baxımından əhəmiyyətlidir"




**Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Rövzət Qasımov parlament seçkiləri ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**

*- Rövzət müəllim, zəhmət olmasa, parlament seçkilərinin gedişi ilə bağlı fikirlərinizi bizimlə bölüşərdiniz.*

- Səsvermə 19:00-dan etibarən başa çatıb, aşağı seçki komissiyaları səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi istiqamətində olan prosedurları icra edirlər. Bu proseslər isə uğurla davam edir. Seçkilər bizim üçün xüsusi önəm daşıyır. Biz media qarşısında da qürur hissi ilə səsləndiririk ki, bu, Azərbaycanın bütün suveren ərazisində keçirilən ilk parlament seçkiləridir. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində olduğu kimi, bu seçkilərdə də işğaldan azad edilmiş ərazilər daxil olmaqla, bütün respublikada səsvermə məntəqələri təşkil etdik və seçicilərimiz öz konstitusion hüquqlarından yararlandılar, öz namizədlərinə səs verdilər.

Bu seçkilərə rekord sayda müşahidəçi qatıldı. Burada siyasi partiyalar, QHT-lər əvvəlki seçkilərdən kifayət qədər daha çox müşahidəçi ilə təmsil olundular. Bu da siyasi partiyaların gələcəkdə keçiriləcək seçkilərə yönəlmiş strategiyası idi. Seçkilər barədə onu da demək olar ki, siyasi partiyaların hətta öz namizədləri olmayan dairələrdə belə müşahidəçiləri var idi. Bu da ondan xəbər verir ki, onlar gələcək planlarını qurmaq istiqamətində öz siyasi strategiyalarını hazırlayırlar.

Respublika üzrə səsvermənin gedişini müşahidə etmək hüququ statusu qazanmış şəxslərin sayı 112 min 749 nəfərdir. Xeyli sayda müşahidəçi qrupunun seçki prosesində iştirakı şəffaflıq baxımından da əhəmiyyətlidir.

Seçki çox sakit atmosferdə keçdi. Lakin bəzi dairələrdə çox ciddi və gərgin emosional vəziyyətin şahidi olduq. Bu emosional hallar bəzən o həddə çatırdı ki, bəzi namizədlər prosesin gedişində seçicilərə belə müəyyən xoşagəlməz davranışlar nümayiş etdirirdilər.

Az sayda dairədən MSK-nın "qaynar xətt"inə də zəng edib namizədlərin onları incitdiklərini və ya hansısa xoşagəlməz davranışlar sərgilədiklərini bildirdilər. Eyni zamanda bəzi məntəqələrdə gərginlik səbəbindən tərəfləri təmsil edən müşahidəçilər arasında münaqişənin şahidi olduq.

Bu, ümumilikdə yaxşı hal deyil. Amma bütün ölkələrdə seçki təcrübəsi göstərir ki, səsvermə gününün ən xüsusi məqamlarından biri emosiyaların həddindən artıq gərilməsidir. Biz isə növbəti seçkilərdə bütün seçicilərə tövsiyə edirik ki, emosiyaları nə qədər gərginləşsə də, öz kübarlıqlarından, alicənablıqlarından vaz keçməsinlər. Ümid edirik ki, gələcəkdə belə hallar baş verməyəcək. Ona görə də istər siyasi partiyalar, istərsə də namizədlər bu cür halların baş verməməsi üçün öz müşahidəçilərini təlimatlandırmalıdırlar.

*- İşğaldan azad olunmuş ərazilərdə keçirilən seçki prosesi barədə fikirlərinizi bilmək maraqlı olardı.*

- İşğaldan azad olunmuş ərazilərdəki seçici fəallığı kifayət qədər diqqətçəkən səviyyədə idi və bu, bizi çox qürurlandırdı. Həmin məntəqələrdə istər sosial şəbəkələrdə, istərsə də ictimaiyyətə çatdırılan görüntülərdə cüzi də olsa, hansısa xoşagəlməz hallara rast gəlmədik. Məmnunluqla qeyd etmək istəyirəm ki, işğaldan azad olunmuş ərazilərdəki məntəqə seçki komissiyaları öz işlərinin öhdəsindən kifayət qədər peşəkarlıqla gəldilər.



MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyası Milli Məclisə seçkilərin ilkin nəticələrini açıqlayıb

**Mərkəzi Seçki Komissiyasının sədri (MSK) Məzahir Pənahov Milli Məclisə seçkilərin ilkin nəticələrinə dair mətbuat konfransı keçirib. AZƏRTAC xəbər verir ki, Məzahir Pənahov 125 dairə üzrə 5895 məntəqənin nəticələrinin, yəni məntəqələrin 91 faizinin məlumatlarının artıq Mərkəzi Seçki Komissiyasına daxil olduğunu bildirib.**

Sonra MSK sədri seçkilərin ilkin nəticələrinə görə liderlik edən namizədlərin siyahısını diqqətə çatdırıb.

1 saylı Şərur-Sədərək seçki dairəsi - **Əsgərov Ziyafət Abbas oğlu** - 13 min 591 səs (67,8 faiz).

2 saylı Şərur-Kəngərli seçki dairəsi - **Novruzov Siyavuş Dünyamalı oğlu** - 14 min 36 səs (66,3 faiz).

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsi - **Möhbalıyev Səttar Suliddin oğlu** - 10 min 1 səs (55,8 faiz).

4 saylı Naxçıvan şəhər seçki dairəsi - **İbrahimov Eldar Rza oğlu** - 11 min 908 səs (68,4 faiz).

5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi - **Həmzəyeva Ülviyyə Tapdıq qızı** - 8 min 137 səs (55 faiz).

6 saylı Ordubad-Culfa seçki dairəsi - **Rəhimzadə Vüqar Gəncəli oğlu** - 11 min 43 səs (67,1 faiz).

7 saylı Səbail seçki dairəsi - **Arpadarai Nigar Cavid qızı** - 10 min 880 səs (57,3 faiz).

8 saylı Binəqədi birinci seçki dairəsi - **Quliyev Azay Əjdər oğlu** - 7 min 234 səs (57,4 faiz).

9 saylı Binəqədi ikinci seçki dairəsi - **Qafarov Kəmaləddin Nəsrəddin oğlu** - 16 min 311 səs (73,5 faiz).

10 saylı Binəqədi üçüncü seçki dairəsi - **Musayev Elşad Nəbi oğlu** - 11 min 576 səs (57 faiz).

11 saylı Binəqədi-Qaradağ seçki dairəsi - **Xasayeva Səbinə Səməd qızı** - 15 min 159 səs (68,4 faiz).

12 saylı Xəzər birinci seçki dairəsi - **Məmmədov Soltan Teymur oğlu** - 7 min 684 səs (50,9 faiz).

13 saylı Xəzər ikinci seçki dairəsi - **Paşayeva Gülşən Məmmədəli qızı** - 8 min 632 səs (48,5 faiz).

14 saylı Xəzər-Pirallahı seçki dairəsi - **Əfəndiyeva Günay Elçin qızı** - 8 min 485 səs (49,5 faiz).

15 saylı Yasamal birinci seçki dairəsi - **Quliyev Ülvi Zahid oğlu** - 4 min 714 səs (53,4 faiz).

16 saylı Yasamal ikinci seçki dairəsi - **Qədirli Erkin Toğrul oğlu** - 6 min 498 səs (49,4 faiz).

17 saylı Yasamal üçüncü seçki dairəsi - **Qəhrəmanov Göydəniz İbrahim oğlu** - 12 min 165 səs (71,9 faiz).

18 saylı Nərimanov-Nizami-Binəqədi seçki dairəsi - **Musabəyov Rasim Nəsrəddin oğlu** - 11 min 99 səs (50,2 faiz).

19 saylı Nərimanov birinci seçki dairəsi - **Məmmədov Hikmət Baba oğlu** - 11 min 913 səs (72 faiz).

20 saylı Nərimanov ikinci seçki dairəsi - **Vəliyev Samir Əhməd oğlu** - 10 min 495 səs (62 faiz).

21 saylı Nəsimi-Binəqədi seçki dairəsi - **İbrahimqızı Məlahət İbrahim qızı** - 5 min 674 səs (62,4 faiz).

22 saylı Nəsimi-Yasamal seçki dairəsi - **Mollazadə Asim Nazim oğlu** - 8 min 180 səs (58 faiz).

23 saylı Nəsimi-Səbail seçki dairəsi - **Səmədzadə Ziyad Əliabbas oğlu** - 8 min 78 səs (52 faiz).

24 saylı Nizami birinci seçki dairəsi - **Nurullayeva Könül Oruc qızı** - 7 min 309 səs (47,9 faiz).

25 saylı Nizami ikinci seçki dairəsi - **Əhmədov Əli Cavad oğlu** - 13 min 407 səs (73,2 faiz).

26 saylı Sabunçu birinci seçki dairəsi - **Mustafa Fazil Qəzənfər oğlu** - 8 min 651 səs (49,5 faiz).




27 saylı Sabunçu ikinci seçki dairəsi - **Əli-zadə Arzuxan Baxşəli oğlu** - 7 min 114 səs (43,5 faiz).

28 saylı Sabunçu üçüncü seçki dairəsi - **Quliyev Eldar Allahyar oğlu** - 6 min 686 səs (48 faiz).

29 saylı Sabunçu dördüncü seçki dairəsi - **Allahverənov Azər Kərim oğlu** - 7 min 774 səs (45,2 faiz).

30 saylı Suraxanı birinci seçki dairəsi - **Fətəliyeva Sevinc Həbib qızı** - 9 min 451 səs (61,7 faiz).

31 saylı Suraxanı ikinci seçki dairəsi - **Məmmədov Qaya Məmməd oğlu** - 8 min 269 səs (51,2 faiz).

32 saylı Suraxanı üçüncü seçki dairəsi - **Həsənova Afət Əbil qızı** - 11 min 697 səs (67,9 faiz).

33 saylı Xətai birinci seçki dairəsi - **Oruc Zahid Məhərrəm oğlu** - 4 min 886 səs (58 faiz).

34 saylı Xətai ikinci seçki dairəsi - **Zabelin Mixail Yuryeviç** - 12 min 421 səs (68,2 faiz).

35 saylı Xətai üçüncü seçki dairəsi - **Vəliyeva Pərvanə Bulut qızı** - 15 min 273 səs (72,8 faiz).

36 saylı Xətai-Suraxanı seçki dairəsi - **Həsənquliyev Qüdrət Müzəffər oğlu** - 9 min 55 səs (53,1 faiz).

37 saylı Qaradağ seçki dairəsi - **Hüseynov Aydın Nəsir oğlu** - 10 min 400 səs (77,6 faiz).

38 saylı Gəncə birinci seçki dairəsi - **Həmzəyev Naqif Ələşrəf oğlu** - 12 min 861 səs (67,1 faiz).

39 saylı Gəncə ikinci seçki dairəsi - **Kərimzadə Pərvin Orxan qızı** - 12 min 39 səs (69,3 faiz).

40 saylı Gəncə üçüncü seçki dairəsi - **Quliyev Musa İsa oğlu** - 13 min 125 səs (66,4 faiz).

41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsi - **Cəfərov Müşfiq Cəfər oğlu** - 6 min 814 səs (63,2 faiz).

42 saylı Sumqayıt birinci seçki dairəsi - **Hüseynova Hicran Kamran qızı** - 2 min 51 səs (76,6 faiz).

43 saylı Sumqayıt ikinci seçki dairəsi - **Mirkişili Tahir Famil oğlu** - 9 min 855 səs (68,6 faiz).

44 saylı Sumqayıt üçüncü seçki dairəsi - **Vəliyeva Mehriban Hidayət qızı** - 5 min 752 səs (36,5 faiz).

45 saylı Sumqayıt dördüncü seçki dairəsi - **Salmanova Səbinə Qədir qızı** - 10 min 657 səs (59,5 faiz).

46 saylı Sumqayıt beşinci seçki dairəsi - **Akimova Elnarə Seydulla qızı** - 11 min 897 səs (62,8 faiz).

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsi - **Şükürov Zaur Ramiz oğlu** - 8 min 947 səs (44,5 faiz).

48 saylı Abşeron birinci seçki dairəsi - **Məmmədova Nigar Fikrət qızı** - 10 min 540 səs (61,6 faiz).

49 saylı Abşeron ikinci seçki dairəsi - **Nəbiyev Rizvan Novruz oğlu** - 7 min 719 səs (46,7 faiz).

50 saylı Abşeron üçüncü seçki dairəsi - **Namazov Ramid Zakir oğlu** - 10 min 927 səs (59 faiz).

51 saylı Şirvan seçki dairəsi - **Əsədov Heydər Xanış oğlu** - 12 min 629 səs (67,3 faiz).

52 saylı Yevlax seçki dairəsi - **Məmmədov İlham Kazım oğlu** - 9 min 831 səs (69,3 faiz).

53 saylı Yevlax-Mingəçevir seçki dairəsi - **Hüseynli Əli Məhəmməd oğlu** - 18 min 865 səs (70,7 faiz).

54 saylı Mingəçevir seçki dairəsi - **Mirzəzadə Aydın Böyükkişi oğlu** - 5 min 838 səs (55,8 faiz).

55 saylı Siyəzən-Quba-Xızı seçki dairəsi - **Məmmədli Müşfiq Fazil oğlu** - 10 min 549 səs (59,8 faiz).

56 saylı Şabran-Xaçmaz seçki dairəsi - **Süleymanlı Mahir Tahir oğlu** - 10 min 131 səs (59,6 faiz).

57 saylı Xaçmaz şəhər seçki dairəsi - **Vəliyev Ağalar İsrafil oğlu** - 11 min 902 səs (64,2 faiz).

58 saylı Xaçmaz kənd seçki dairəsi - **Mikayılova Sevil Əlirazı qızı** - 8 min 433 səs (49 faiz).

59 saylı Quba seçki dairəsi - **Məhərrəmzadə Əlibala Səttar oğlu** - 12 min 23 səs (57,4 faiz).

60 saylı Quba-Qusar seçki dairəsi - **Rafailov Anatoliy Xaimoviç** - 11 min 177 səs (52,3 faiz).

61 saylı Qusar seçki dairəsi - **Badamov Azər Camal oğlu** - 7 min 346 səs (56,6 faiz).

62 saylı Kürdəmir seçki dairəsi - **Ağazadə Əminə Həmid qızı** - 11 min 302 səs (54,7 faiz).

63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi - **Hüseynov Rafael Baba oğlu** - 10 min 985 səs (52,8 faiz).

64 saylı Salyan seçki dairəsi - **Qurbanov Sadiq Haqverdi oğlu** - 13 min 681 səs (65,4 faiz).

65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi - **Ağamalı Günay Fəzail qızı** - 10 min 282 səs (50,4 faiz).

66 saylı Saatlı seçki dairəsi - **Ələkbərov Əziz Yusif oğlu** - 12 min 309 səs (64 faiz).

67 saylı Sabirabad seçki dairəsi - **Əmiraslanov Əhliman Tapdıq oğlu** - 14 min 426 səs (68,5 faiz).

68 saylı Sabirabad-Şirvan seçki dairəsi - **Cəfərov Kamal Xaqani oğlu** - 12 min 840 səs (59,4 faiz).

69 saylı Biləsuvar seçki dairəsi - **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** - 9 min 848 səs (53,3 faiz).

70 saylı Neftçala seçki dairəsi - **Rüstəmxanlı Tənzilə Yolçu qızı** - 1114 səs (55,1 faiz).

71 saylı Cəlilabad şəhər seçki dairəsi - **Həsənov Malik Əvəz oğlu** - 12 min 160 səs (69,4 faiz).

72 saylı Cəlilabad kənd seçki dairəsi - **Nəsirov Elman Xudam oğlu** - 10 min 74 səs (58 faiz).

73 saylı Masallı-Cəlilabad seçki dairəsi - **İbrahimli Fəzail Feyruz oğlu** - 10 min 57 səs (50,6 faiz).

74 saylı Masallı seçki dairəsi - **Məmmədov Məşhur Şahbaz oğlu** - 12 min 512 səs (64,9 faiz).

75 saylı Yardımlı-Masallı seçki dairəsi - **Qasımlı Musa Cəfər oğlu** - 7 min 866 səs (52,3 faiz).

76 saylı Lənkəran-Masallı seçki dairəsi - **Paşazadə Cavanşir Hümmət oğlu** - 11 min 73 səs (60,3 faiz).

77 saylı Lənkəran şəhər seçki dairəsi - **İsmayılzadə Fariz Akif oğlu** - 9 min 569 səs (60,1 faiz).

78 saylı Lənkəran kənd seçki dairəsi - **İsgəndərov Anar Camal oğlu** - 9 min 31 səs (59,7 faiz).

79 saylı Astara seçki dairəsi - **Mahmudov Rəşad Məmmədqulu oğlu** - 11 min 623 səs (69,7 faiz).

80 saylı Lerik-Astara seçki dairəsi - **Qafarov Vasif Vaqif oğlu** - 6 min 982 səs (56,3 faiz).

81 saylı İmişli seçki dairəsi - **Nurullayev Razi Qulaməli oğlu** - 8 min 300 səs (48,4 faiz).

82 saylı İmişli-Saatlı seçki dairəsi - **Salahlı Səyyad Adil oğlu** - 7 min 994 səs (54 faiz).

83 saylı Beyləqan seçki dairəsi - **İsmayılov Şahin Əmir oğlu** - 14 min 780 səs (68,2 faiz).

84 saylı Füzuli seçki dairəsi - **Bayramov Vüqar İbad oğlu** - 8 min 896 səs (56,3 faiz).

85 saylı Füzuli-Ağcabədi seçki dairəsi - **Abbasov Aqil Məhəmməd oğlu** - 6 min 55 səs (53,4 faiz).

86 saylı Ağcabədi seçki dairəsi - **Rzayev Tahir Musa oğlu** - 15 min 765 səs (67,6 faiz).

87 saylı Qobustan-Şamaxı-İsmayıllı seçki dairəsi - **Seyidzadə Şahin Kamil oğlu** - 12 min 396 səs (60,3 faiz).

88 saylı Şamaxı seçki dairəsi - **Cəfərova Tamam Şaməmməd qızı** - 9 min 498 səs (48 faiz).

89 saylı İsmayıllı seçki dairəsi - **Aslanov Novruzəli Davud oğlu** - 10 min 682 səs (55,4 faiz).

90 saylı Ağsu seçki dairəsi - **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** - 10 min 531 səs (51,5 faiz).

91 saylı Göyçay seçki dairəsi - **Hacıyev Sabir Kamal oğlu** - 11 min 25 səs (51,8 faiz).

92 saylı Göyçay-Ağdaş seçki dairəsi - **Əfəndiyev Məzahir Cavid oğlu** - 9 min 97 səs (45,9 faiz).

93 saylı Ağdaş seçki dairəsi - **Alıyev Sahib Eyvaz oğlu** - 10 min 592 səs (48,9 faiz).

94 saylı Ucar seçki dairəsi - **Həsən Ramil Sahib oğlu** - 12 min 500 səs (61 faiz).

95 saylı Zərdab-Kürdəmir-Ucar seçki dairəsi - **Əliyeva Jalə Fazil qızı** - 10 min 384 səs (48 faiz).

96 saylı Goranboy-Naftalan seçki dairəsi - **Bədəlov Bədəl Şamil oğlu** - 16 min 216 səs (64,9 faiz).

97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi - **Məmmədov Anar İlyas oğlu** - 14 min 479 səs (70,8 faiz).

98 saylı Bərdə-Tərtər seçki dairəsi - **Fətiyev Xanlar Nuru oğlu** - 13 min 213 səs (67,3 faiz).

99 saylı Bərdə seçki dairəsi - **Yıldırım Fatma Vidadi qızı** - 13 min 81 səs (69 faiz).

100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsi - **Bayramov Kamran Fərhad oğlu** - 11 min 739 səs (64,3 faiz).

101 saylı Samux-Şəmkir seçki dairəsi - **Qurbanlı Mübariz Qəhrəman oğlu** - 13 min 565 səs (60 faiz).

102 saylı Şəmkir şəhər seçki dairəsi - **Qafarova Sahibə Əli qızı** - 16 min 468 səs (69,4 faiz).

103 saylı Şəmkir kənd seçki dairəsi - **Həsənov Nurlan Urfan oğlu** - 15 min 213 səs (61,5 faiz).

104 saylı Gədəbəy seçki dairəsi - **Hüseynova Sevinc Əmirəhməd qızı** - 10 min 206 səs (55,7 faiz).

105 saylı Tovuz-Gədəbəy seçki dairəsi - **Nağıyev Arzu Nəsib oğlu** - 11 min 425 səs (52,9 faiz).

106 saylı Tovuz seçki dairəsi - **Səfərov Nizami Abdulla oğlu** - 11 min 783 səs (66,5 faiz).

107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi - **Ağayeva Ülviyyə Cavanşir qızı** - 11 min 975 səs (54,7 faiz).

108 saylı Ağstafa seçki dairəsi - **Əmiraslanov Azər Kamal oğlu** - 10 min 825 səs (55,1 faiz).

109 saylı Qazax seçki dairəsi - **Seyidov Səməd İsmayıl oğlu** - 14 min 608 səs (65,7 faiz).

110 saylı Balakən seçki dairəsi - **Məhəməliyev Nəsib Məhəmməd oğlu** - 11 min 245 səs (59,4 faiz).

111 saylı Zaqatala-Balakən seçki dairəsi - **Kərimli Azər Şəmşid oğlu** - 10 min 860 səs (59,3 faiz).

112 saylı Zaqatala seçki dairəsi - **Əsgərov Asif Yunis oğlu** - 12 min 942 səs (80 faiz).

113 saylı Qax-Şəki seçki dairəsi - **Məsimli Əli Əhməd oğlu** - 10 min 59 səs (53,6 faiz).

114 saylı Şəki şəhər seçki dairəsi - **İskəndərov Vüqar Yapon oğlu** - 11 min 57 səs (57,6 faiz).

115 saylı Şəki kənd seçki dairəsi - **Feyziyev Cavanşir Əyyub oğlu** - 11 min 123 səs (56,5 faiz).

116 saylı Qəbələ seçki dairəsi - **Musayev Elşən Məmmədhənifə oğlu** - 10 min 432 səs (52,5 faiz).

117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairəsi - **Qurbanov Eyvaz Daşdəmir oğlu** - 11 min 951 səs (59,9 faiz).

118 saylı Ağdam-Xocalı seçki dairəsi - **Məmmədov Elman Camal oğlu** - 5 min 234 səs (69,2 faiz).

119 saylı Ağdam seçki dairəsi - **Əliyev Bəxtiyar Həmzə oğlu** - 13 min 199 səs (53,2 faiz).

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsi - **Məmmədov Ceyhun Valeh oğlu** - 8 min 162 səs (63,4 faiz).

121 saylı Laçın seçki dairəsi - **Muradov Rövşən Şahbaz oğlu** - 7 min 879 səs (64,3 faiz).

122 saylı Xankəndi seçki dairəsi - **Gəncəliyev Tural Babaşah oğlu** - 1560 səs (55,5 faiz).

123 saylı Kəlbəcər seçki dairəsi - **Qasımlı Mircəlil Xəqani oğlu** - 8 min 465 səs (53,6 faiz).

124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi - **Bülbüloğlu Polad** - 5 min 622 səs (55,9 faiz).

125 saylı Zəngilan-Qubadlı seçki dairəsi - **İsmayılov İmamverdi İbiş oğlu** - 7 min 181 səs (54,6 faiz).

"Bir daha təkrar edirəm ki, bu, Mərkəzi Seçki Komissiyasına daxil olan 6478 məntəqənin 91 faizinin, yəni 5895 məntəqənin rəqəmləridir və ilkin nəticələrdir. Ölkə üzrə seçici fəallığı 37,27 faiz olub. Sabahdan etibarən dairə seçki komissiyalarının protokolları MSK-ya daxil olmağa başlayacaq. İki gün müddətində bütün 125 seçki dairəsindən DSK-nın protokolları MSK-ya daxil olduqdan sonra MSK-nın üzvləri, işçi və ekspert qrupları bu sənədləri araşdıracaq. MSK-ya əgər hansısa müraciət, şikayət daxil olubsa, onların hamısı araşdırılacaq. MSK bu proseslərə ən geci 20 gün müddətində yekun vuracaq. Araşdırmalar başa çatdıqdan sonra MSK qərar qəbul edəcək və daxil olmuş bütün sənədlər MSK-nın və DSK-ların protokolları ilə birlikdə Konstitusiya Məhkəməsinə təqdim olunacaq", - deyə M.Pənahov əlavə edib.

Sonra jurnalistlərin sualları cavablandırılıb.



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## *Özbəkistan MSK-nın sədri:* "Azərbaycan və Özbəkistan xalqlarını tarixi, mədəni bağlar birləşdirir"



Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə keçirilən seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxodjayevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MSK sədri M.Pənahov görüşdə Özbəkistanla Azərbaycan arasında olan dost-qardaş münasibətlərindən söz açıb. Daha sonra seçki prosesi barədə qonağı məlumatlandıran MSK sədri diqqətə çatdırıb ki, seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

MSK sədri deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu nəzərə çatdırıb. M.Pənahov ölkədə medianın azad fəaliyyət göstərdiyini və sərbəst şəkildə seçki prosesini izlədiyini qeyd edib. O, seçkilərlə əlaqədar "exit -poll" keçirmək üçün üç təşkilatın MSK-ya müraciət etdiyini vurğulayıb. MSK sədri ilkin nəticələrin seçki günü gecə saatlarında açıqlanacağını vurğulayıb. İki gün müddətində məntəqələrdən səsvermə protokollarının MSK-ya çatdırılacağını qeyd edən sədr bu zaman artıq ilkin nəticələrin rəsmi şəkildə elan ediləcəyini qonağın diqqətinə çatdırıb.

Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib.

Milli Məclisə növbədənkənar seçkilərin Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə keçirildiyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirən MSK sədri qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb. Fiziki məhdudiyyətli şəxslər üçün 2471 məntəqədə panduslar quraşdırılıb və bütün məntəqələrdə gözdən əlillər üçün trafaretlər hazırlanıb.

Özbəkistan MSK-nın sədri Z.Nizamxodjayev öz növbəsində MSK-dakı səmimi görüşə görə təşəkkürünü bildirib, Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirakdan məmnun olduğunu qeyd edərək prosesləri fəal şəkildə izləyəcəyini vurğulayıb. İki dövlətin strateji müttəfiqlik münasibətlərindən söz açan qonaq Azərbaycan və Özbəkistan xalqlarını tarixi, mədəni bağların birləşdirdiyini vurğulayıb. Seçkilərin uğurla keçəcəyinə əmin olduğunu vurğulayan qonaq gün ərzində bir neçə məntəqəyə baş çəkəcəklərini qeyd edib.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## Məzahir Pənahov Bolqarıstan Mərkəzi Seçki Komissiyasının sədri ilə görüşüb



Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Bolqarıstan Mərkəzi Seçki Komissiyasının sədri Kameliya Neykovanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MSK sədri M.Pənahov Bolqarıstan Mərkəzi Seçki Komissiyasının müşahidə missiyasının parlament seçkilərini izləməsindən məmnunluğunu ifadə edib.

Seçki prosesi barədə qonağı məlumatlandıran MSK sədri diqqətə çatdırıb ki, seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

MSK sədri deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Bildirib ki, Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu nəzərə çatdırıb. M.Pənahov ölkədə medianın azad şəkildə fəaliyyət göstərdiyini və sərbəst şəkildə seçki prosesini izlədiyini qeyd edib.

O, seçkilərlə əlaqədar "exit -poll" keçirmək üçün üç təşkilatın MSK-ya müraciət etdiyini vurğulayıb. Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib. Həmçinin Milli Məclisə növbədənkənar seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcəyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirib.

MSK sədri qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb.

Bolqarıstan MSK-nın sədri K.Neykova Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu bildirərək, prosesləri fəal şəkildə izləyəcəyini vurğulayıb.

K.Neykova seçkilərin uğurla keçdiyini qeyd edib. Səhər saatlarından etibarən bir neçə məntəqəyə baş çəkdiklərini vurğulayan qonaq, yüksək seçici fəallığı müşahidə etdiklərini deyib.

Görüş çərçivəsində, həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## *Belarus MSK-nın sədri:* "Seçkilər yüksək əhvali-ruhiyyədə keçir"



Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov növbədənkənar parlament seçkilərini izləmək üçün ölkəmizdə səfərdə olan Belarus Mərkəzi Seçki Komissiyasının sədri İqor Karpenkonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MSK sədri seçki prosesi barədə qonağı məlumatlandırıb. Məzahir Pənahov qeyd edib ki, seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

MSK sədri deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Bildirib ki, Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu nəzərə çatdırıb. M.Pənahov ölkədə medianın azad şəkildə fəaliyyət göstərdiyini və seçki prosesini sərbəst şəkildə izlədiyini qeyd edib.

O, seçkilərlə əlaqədar "exit-poll" keçirmək üçün üç təşkilatın MSK-ya müraciət etdiyini vurğulayıb. Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib. O, Milli Məclisə növbədənkənar seçkilərin Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə keçirildiyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirib.

Belarus MSK-nın sədri İ.Karpenko öz növbəsində MSK-dakı səmimi görüşə görə təşəkkürünü bildirib, Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu qeyd edərək prosesləri fəal şəkildə izləyəcəyini vurğulayıb. Seçkilərin yüksək əhvali-ruhiyyədə keçdiyini bildirən İ.Karpenko qeyd edib ki, insanlar səhər saatlarından etibarən məntəqələrə gələrək səsvermə hüququndan istifadə edirlər. O, baş çəkdiyi məntəqələrdə qanundankənar hər hansı neqativ halların müşahidə edilmədiyini diqqətə çatdırıb.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## Monteneqro Mərkəzi Seçki Komissiyasının sədri ilə görüş



Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə seçkiləri izləmək üçün ölkəmizdə səfərdə olan Monteneqro Mərkəzi Seçki Komissiyasının sədri Nikola Muqosa ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, MSK sədri M.Pənahov Monteneqro Mərkəzi Seçki Komissiyasının müşahidə missiyasının parlament seçkilərini izləməsindən məmnunluğunu ifadə edib.

Seçki prosesi barədə qonağı məlumatlandıran MSK sədri diqqətə çatdırıb ki, seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb.

MSK sədri deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. Namizədliyi qeydə alınan 305 nəfər 25 siyasi partiyanın nümayəndəsidir. M.Pənahov ölkədə medianın azad şəkildə fəaliyyət göstərdiyini və sərbəst şəkildə seçki prosesini izlədiyini qeyd edib.

O, seçkilərlə əlaqədar "exit-poll" keçirmək üçün üç təşkilatın MSK-ya müraciət etdiyini vurğulayıb.

M.Pənahov fiziki məhdudiyyətli şəxslər üçün 2471 məntəqədə pandusların quraşdırıldığını və bütün məntəqələrdə gözdən əlillər üçün trafaretlərin hazırlandığını qeyd edib.

Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını söyləyən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib.

Milli Məclisə növbədənkənar seçkilərin ilk dəfə Azərbaycanın bütün suveren ərazilərində keçiriləcəyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını bildirib.

Monteneqro MSK-nın sədri Nikola Muqosa öz növbəsində Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnun olduğunu qeyd edərək, prosesləri fəal şəkildə izləyəcəyini vurğulayıb. Qonaq ölkəmizə seçkilərin şəffaf və ədalətli keçirilməsi işində uğurlar arzulayıb.

Seçki prosesinin ölkələr üçün vacib məsələ olduğunu qeyd edən qonaq, prosesin demokratik və şəffaf şəkildə keçirilməsinin əhəmiyyətindən danışıb.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

# Məzahir Pənahov bir neçə ölkənin Mərkəzi Seçki Komissiyasının üzvləri ilə görüşüb

**Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Milli Məclisə seçkiləri izləmək üçün Azərbaycanda səfərdə olan Latviya, Qırğızıstan, Türkmənistan, Rusiya, Tacikistan, Qazaxıstan, Moldova, Serbiya, Filippin və Gürcüstanın Mərkəzi Seçki komissiyalarının üzvləri ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, seçki prosesi barədə qonaqları məlumatlandıran MSK sədri M.Pənahov deyib: "Seçkilərin müşahidəsinə 598 beynəlxalq və 112 mindən artıq yerli müşahidəçi qoşulub, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində səsvermə günü prosesləri heç bir qeydiyyat tələb olunmadan, birbaşa və fasiləsiz müşahidə etmək üçün veb-kamera quraşdırılıb".

MSK sədri deyib ki, növbədənkənar parlament seçkilərində 6 milyon 421 min 960 vətəndaş səsvermə hüququndan istifadə edə biləcək. Milli Məclisə seçkilərdə 990 namizəd mübarizə aparır və onların sərbəst seçkiqabağı təşviqatı üçün qanunvericiliyin tələblərinə uyğun bütün imkanlar yaradılıb. O, namizədliyi qeydə alınan 305 nəfərin 25 siyasi partiyanın nümayəndəsi olduğunu diqqətə çatdırıb.

Ölkədə medianın azad şəkildə fəaliyyət göstərdiyini və sərbəst şəkildə seçki prosesini izlədiyini qeyd edən Məzahir Pənahov seçkilərlə əlaqədar "exit -poll" keçirmək üçün üç təşkilatın MSK-ya müraciət etdiyini vurğulayıb. O qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə səsvermə hüququna malik 42 mindən artıq seçicinin öz konstitusion hüquqlarını reallaşdırmaları üçün 54 seçki məntəqəsi yaradılıb. Ölkədə 6478 seçki məntəqəsinin yaradıldığını qeyd edən M.Pənahov onlardan 6343-nün daimi, 135-nin isə müvəqqəti fəaliyyət göstərdiyini deyib. O, Milli Məclisə növbədənkənar seçkilərin Azərbaycanın bütün suveren ərazilərində ilk dəfə keçirildiyini və seçki iştirakçılarına hərtərəfli şəraitin yaradıldığını diqqətə çatdırıb.

MSK-dakı səmimi görüşə görə təşəkkürlərini bildirən qonaqlar Milli Məclisə növbədənkənar seçkilərin müşahidəsində iştirak etməkdən məmnunluqlarını ifadə edərək prosesləri fəal şəkildə izlədiklərini vurğulayıblar. Onlar seçki prosesinin qanunvericiliyin tələblərinə uyğun olaraq şəffaf şəkildə keçirildiyini qeyd edərək məntəqələrdə yüksək seçici fəallığını müşahidə etdiklərini deyiblər.

Görüş çərçivəsində həmçinin seçkilərlə bağlı müxtəlif məsələlər ətrafında fikir mübadiləsi və müzakirələr aparılıb.

## Qarabağdan reportaj




# Xankəndidə seçki izdihamı

### Şəhərdəki seçici aktivliyi xarici müşahidəçilərdə də müsbət təəssürat yaratdı

Ötən ilin sentyabrında erməni separatizminin əsarətindən xilas edilən Xankəndi şəhərində də parlament seçkiləri uğurla keçirildi. Bu, müstəqilliyimiz dövründə birbaşa Xankəndidə təşkil edilən ikinci seçki idi. İlk seçki 2024-cü ilin fevralındakı növbədənkənar prezident seçkiləri olub.















Tariximizə Zəfər seçkisi kimi həkk olunan həmin seçkilərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri 122 saylı seçki dairəsinin Xankəndi şəhərindəki 14 saylı seçki məntəqəsində səs veriblər.

Biz də adıçəkilən seçki məntəqəsində səsvermə prosesini izlədik.

Səhər məntəqə açılandan Xankəndidə böyük izdiham vardı. Seçicilər yüksək fəallıqla seçki məntəqəsinə gələrək səsvermə prosesində iştirak edirdilər. İşğaldan azad olunmuş digər ərazilərdə yaradılan seçki məntəqələri kimi 14 saylı seçki məntəqəsində də qələbəlik hökm sürürdü.

Məntəqə seçki komissiyasının sədri İmran Mirzəyev bizimlə söhbətində bildirdi ki, artıq ikinci dəfədir seçki qüruru yaşayırlar. İlk dəfə bu məntəqədə suverenliyini tam təmin etmiş Azərbaycanda prezident seçkiləri keçirilib və dövlət başçımız bu məntəqədə səs verib. Bu gün isə Xocalıda yaşayan, işləyən, müxtəlif sahələrlə bağlı Xankəndiyə ezam olunan vətəndaşlar da səsvermə hüquqlarından yararlana bilirlər.

İmran Mirzəyev deyir ki, məntəqə üzrə 872 nəfər seçici var, onlardan 2 nəfəri ilk dəfə səsvermə prosesində iştirak edənlərdir.

Seçki prosesini izləyən müstəqil müşahidəçi Eldar Həsənov deyir ki, seçki tam şəffaf şəraitdə davam edir və indiyədək heç bir qanun pozuntusuna rast gəlməyib. Seçici fəallığı isə çox yüksək qiymətləndirilməlidir.

Xankəndi sakini Lamiyə Bayramova ikinci dəfədir ki, seçkilərdə iştirak edir. O, ilk dəfə fevralın 7-də prezident seçkilərində bu məntəqədə səs verib: "Keçən dəfə də, bu dəfə də seçkilərin çox yüksək səviyyədə təşkil edildiyini söyləyə bilərəm. Ötən dəfə özümüzə, Azərbaycanımıza lider seçdik, bu dəfə isə Xankəndini Milli Məclisdə layiqli şəkildə təmsil edə biləcəyinə inandığım namizədə səs verdim. Çox sevincliyəm. İllər sonra Xankəndidə, öz yurdumda səs verdiyim üçün özümü xoşbəxt hiss edirəm".

Xankəndi sakini Hökumə Abdullayeva da ikinci dəfə bu məntəqədə səs verən seçicilərdəndir: "Şükürlər olsun ki, bu xoşbəxtliyi yaşayırıq. Heç ağılmıza gəlməzdi ki, bir gün gəlib doğma yurdda səs verəcəyik. Tanrı Prezidentimizi qorusun. Bu məntəqədə yaradılan şərait çox yüksək səviyyədədir. Hamı rahatlıqla gəlib istədiyi namizədə səs verib gedir. İnşallah Prezidentimizin qayğısı ilə yenidən Xankəndidə xoşbəxt günlərimizi yaşayacağıq".

Məntəqədə müşahidə aparan Müstəqil Dövlətlər Birliyindən olan monitorinq missiyasının nümayəndəsi Maksim Leskovla söhbətləşirik. Diplomat deyir ki, burada insanlar seçki prosesində sanki bayrama, şənliyə gəldikləri kimi iştirak edirlər. Bu da onlarda müsbət təəssürat yaradır: "Seçicilər yüksək əhvali-ruhiyyədə, bayram tədbirinə gəldikləri kimi içəri daxil olub seçki bülletenlərini götürüb səs verirlər. Başa düşürük ki, bir müddət əvvəl elə bu ərazidə müharibə gedirdi və indi belə demokratik prosedurda iştirak edən insanları görmək çox vacibdir. Onların simasında xoşbəxtliyin izləri var sanki".

Yeni Azərbaycan Partiyasından olan müşahidəçi Kamil Quliyev deyir ki, seçkilər şəffaf və demokratik keçir, heç bir qanun pozuntusu yoxdur və vətəndaşlar sərbəst şəkildə öz konstitusion hüquqlarından yararlanırlar. Bu da onu göstərir ki, artıq Azərbaycanda demokratik seçki ənənəsi formalaşıb və bəzi dövlətlər üçün nümunə ola bilər.

14 saylı seçki məntəqəsinin qarşısında "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyinin və SWG S.P.A tədqiqatlar şirkətinin (İtaliya) birgə təşkil etdiyi "Exit-poll"un nümayəndələri sorğu keçirirdilər. "Exit-poll" keçirən İlqar Quliyev deyir ki, seçicilər çox aktiv şəkildə anonim sorğuda iştirak edirlər. Hər beş nəfərdən bir seçiciyə yaxınlaşıb rəyini soruşuruq. Vətəndaşlar seçkidəki aktivliklərini "exit-poll"larda da göstərirlər.

Sonda qeyd edək ki, 122 saylı Xankəndi seçki dairəsi 15 məntəqəni əhatə edir. Məntəqələrdən 4-ü Bakıda, 1-i Sumqayıtdadır. Qalan 10 məntəqə isə digər rayon və şəhərlərdə yerləşir. Seçki dairəsinin Xankəndi şəhərində iki daimi və bir müvəqqəti məntəqəsi var. Dairə sırf Xankəndi şəhərini əhatə edir. Seçicilər həmin şəhərin sakinləridir. Dairə üzrə 80 yaşdan yuxarı seçicilərin sayı 140 nəfər, ilk dəfə səs verənlərin sayı isə 68 nəfərdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Xankəndi-Bakı*

# Şuşada seçki bayram əhvalında keçdi

Yolumuz Şuşa şəhərinədir. Ölkəmizin hər yerində olduğu kimi sentyabrın 1-də musiqi beşiyimiz Şuşada da növbədənkənar parlament seçkiləri keçirildi. Erməni işğalından azad olunmuş şəhər həyatının ən gözəl, ən əlamətdar günlərindən birini yaşayır.



















30 illik həsrətdən, ayrılıqdan sonra doğma ocaqlarına qayıtmış şəhər sakinləri ilk dəfə olaraq parlament seçkilərində iştirak edərək ən yaxşı, ən layiqli namizədə səs verdilər.

`124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsinin 2 məntəqəsi Şuşa şəhərində yerləşir. 1 nömrəli orta məktəbdə təşkil edilmiş 46 saylı seçki məntəqəsində böyük canlanma var idi. Doğma ocaqlarına qayıtmış sakinlər yüksək ovqatla məntəqələrə gəlirdilər.

Məntəqə seçki komissiyasının sədri Səbinə Gözəlova seçkilərin gedişindən söz açaraq dedi: "Şuşa sakinlərinin uzun ayrılıqdan sonra doğma şəhərlərində səs vermələri tarixi hadisədir. Beş il əvvəl bunları yalnız xəyal etmək olardı. Amma Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında xəyalları gerçəkləşdirdi. Məntəqəmizdə 768 nəfər səs verəcək. İndi şuşalılar doğma şəhərlərində keçirilən parlament seçkilərində həvəslə iştirak edirlər. Seçki məntəqəsində seçicilərin səs vermələri üçün tələb olunan bütün lazımi şərait yaradılıb. Səhərdən seçki fəallığı hiss olunur. Seçki gününə qədər məntəqə seçki komissiyasının əməkdaşları müxtəlif treninqlərdə iştirak edərək kifayət qədər təcrübə toplayıblar".

Müşahidələrimiz göstərdi ki, seçki məntəqəsi səsverməni yüksək səviyyədə təmin etmək üçün bütün zəruri texniki və metodiki vəsaitlərlə təmin olunub. Seçici siyahıları ilə yanaşı, lazımi məlumat lövhələri də asılıb. Seçicilərin səs vermələri üçün kabinələr yaradılıb.

Məntəqəyə gələn seçicilər nəzarətçilərə yaxınlaşaraq şəxsiyyət vəsiqələrini təqdim edir, adının qarşısından imza ataraq bülleteni alıb səs vermək üçün kabinələrə daxil olurlar. Burada ən layiqli hesab elədiyi namizədə səs verdikdən sonra bülleteni şəffaf rəngli qutuya atırlar.

Məntəqəyə həm yerli, həm də beynəlxalq müşahidəçilər gəlirlər. MDB və Birləşmiş Krallıqdan müşahidəçi qruplar məntəqədə olublar. Onlar seçkinin gedişini yüksək qiymətləndiriblər.

Biz müşahidə apardığımız müddətdə məntəqəyə səs vermək üçün gələnlərin ardı-arası kəsilmirdi. Səsverməyə gələnlərin də, məntəqədən çıxanların da üzlərindən sevinc yağırdı. Bu da səbəbsiz deyildi. Çünki onlar uzun illərdən sonra doğma şəhərlərində parlament seçkilərində iştirak edirlər. Bu iştirakdan da qürur duyur, iftixar hissi keçirirdilər.

Şuşa sakini Rəqsanə İsmayılzadənin 18 yaşı təzəcə tamam olub. Buna görə də seçkilərdə ilk dəfədir iştirak edir: "Mənim üçün bu gün çox əlamətdardır. Çünki parlament seçkilərinə birinci dəfədir ki, qatılmışam. Bu mənim üçün ikiqat sevindiricidir. Deməli, artıq mən xalqım və dövlətim üçün layiqli vətəndaş olmuşam. Seçkilərdə həvəslə iştirak edərək ən layiqli namizədə səs verdim. Məntəqədə yaradılmış şəraitdən də razı qaldım".

Məntəqədə səs verən gənc seçici Riad İsmayılzadə də söhbətimizə qoşulur: "Bu gün ömrümün unudulmaz, gözəl günlərindən birini yaşadım. Çünki uzun ayrılıqdan sonra doğma Şuşamdayam, ata-baba yurdumdayam. Başqa şuşalılar kimi mən də böyük həvəs və ovqatla parlament seçkilərində iştirak etdim. Ordu sıralarından yenicə tərxis olunmuşam. Ötən il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirlərində iştirak etmişəm. Ordumuz çox qısa bir müddət ərzində erməni separatçılarını diz çökdürdü. Bu döyüşlərdə iştirak etdiyimə görə qürur duyuram. Ordu sıraralarına illərdən bəri məskunlaşdığım Bakı şəhərindən çağırılmışdım. Tərxis olunandan sonra artıq doğma yurdum Şuşaya qayıtmışam. Bu gün də parlament seçkilərində iştirak etdim. Seçki çox demokratik və şəffaf şəraitdə keçir".

Seçki məntəqəsində "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi və SWG S.P.A tədqiqatlar şirkəti (İtaliya) birgə "Exit-poll" keçirirdilər. Birliyin nümayəndəsi Ağəli Məmmədov bildirdi ki, məntəqədən səs verib çıxan seçicilər onlar üçün yaradılmış şəraitdən razılıqlarını bildirirlər. Onlar "exit-poll"da da aktiv şəkildə iştirak edirlər. Onun sözlərinə görə, əvvəllər seçicilər anonim sorğularda iştirakdan imtina edirdilərsə, bu gün müraciət olunan vətəndaşlar heç bir etiraz bildirmirlər. Bu da onu deməyə əsas verir ki, artıq Azərbaycanda demokratik seçki ənənəsi formalaşıb.

Müstəqil müşahidəçi Sara Hüseynova da məntəqədə seçicilər üçün yaradılmış şəraitdən razılıqla danışdı. Bildirdi ki, seçicilərin səs vermələri üçün məntəqədə hərtərəfli şərait yaradılıb.

124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsinin 47 saylı seçki məntəqəsində də seçici fəallığı hiss olunurdu. İnsanlar əvvəlcə adlarını seçici siyahılarında dəqiqləşdirirdilər. Bundan sonra qeydiyyatdan keçib bülleten alır, kabinələrdə səs verirdilər.

Məntəqə seçki komissiyasının sədri Eldar Salahov dedi ki, seçki fəallığı səhər ertədən başlayıb. Hazırkı vaxta qədər 310 nəfər səs verib. Ümumiyyətlə, məntəqədə 899 nəfər seçici səs verməlidir. Seçki bir neçə saatdır ki, başlayıb. Seçicilər məntəqəyə gələrək vətəndaşlıq borclarını yerinə yetirirlər.

47 saylı seçki məntəqəsində səs verənlərin fikirlərini öyrəndik. Seçici Elçin Qurbanov deyir: "Şükür, uzun illədən sonra bu əlamətdar günü görmək bizə nəsib oldu. Sevincimin həddi-hüdudu yoxdur. Bir ildən çoxdur ki, burada işləyirəm. Prezident seçkilərində də səs vermişdim. İndi də parlament seçkilərində iştirak edirəm. Buna görə özümü dünyanın ən bəxtəvər insanı saylram. Doğma Şuşamız gündən-günə gözəlləşir, abadlaşır. Dövlətimiz ata-baba yurduna qayıtmış keçmiş məcburi köçkünlər üçün hərtərəfli şərait yaradıb".

Məntəqəyə gələn şəhər sakinlərinin üz-gözündən fərəh yağırdı. Onlar uzun illərdən sonra suverenliyimizin tam təmin edildiyi tarixi şəraitdə parlament seçkilərində yüksək əhvali-ruhiyyə ilə iştirak edirdilər. Sevincini yaşadıqları bu gün söz yox ki, şuşalıların həyatında silinməz izlər qoyacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*

# Qarabağdan və Şərqi Zəngəzurdan reportaj




















## Xocalılılar doğma yurdlarında ilk dəfə səs verdilər










*Səhərdir...*

*Xocalıdayıq...*

*Şəhər üçrəngli Zəfər bayrağımızla bayramsayağı bəzədilib...*

*Xocalı deyəndə istər-istəməz Ermənistanın xalqımıza qarşı törətdiyi ən böyük qanlı cinayət olan Xocalı soyqırımı yada düşür. Özünün yeni həyatına başlayan bu şəhərin hər qarışı şəhidlərin qanı ilə müqəddəsləşib...*

2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri ilə torpaqlarımızda erməni separatizminə son qoyulduqdan sonra Xocalı böyük bir tikinti meydanına, qaynar həyatın ünvanına dönüb. Prezident İlham Əliyevin göstərişi ilə yenidən qurulan bu şəhərdə də qısa müddətdə böyük abadlıq, quruculuq işləri görülüb.

Xocalını həm də Böyük qayıdışın ilkinlərindən hesab etmək olar. Bu ilin mayın 28-də ilk 20 ailə Xocalıya qayıdıb. Həmin gün Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalıya qayıdan sakinlərlə görüşüb onlara xeyir-dua veriblər...

Bugünədək Xocalıda 44 ailənin, yəni 169 nəfərin daimi məskunlaşması təmin edilib və bərpa işləri tamamlandıqca, köç edən şəhər sakinlərinin sayı da artacaq.

...Səhərin yeni açılmasına baxmayaraq, küçələrdə qələbəlikdir. Sakinlərin üzündən sevinc, gözlərindən fərəh sezilir.

Burada yalnız gülən insanlar deyil. Adama elə gəlir ki, bu şəhərdə 32 il doğma sakinləri üçün qəribsəmiş evlərin daşları, divarları da sanki gülür. Deyə bilərik ki, Xocalı da, xocalılılar da artıq qəm libasını çıxarıb, öz xoşbəxt həyatlarına dönüblər...

Xocalılılar yüksək əhvali-ruhiyyədə, qarşıdakı beş ili onları parlamentdə təmsil edəcək namizədlərinə səs vermək üçün seçki məntəqəsinə yol alıblar. Biz də 118 saylı Ağdam-Xocalı seçki dairəsinin Xocalı şəhərində yerləşən 73 saylı məntəqəsinə üz tuturuq. Seçki məntəqəsi orta məktəbin binasında yerləşir. Onu da qeyd edək ki, hər cür müasir tələblərə cavab verən orta məktəb binası şəhərdəki möhtəşəm quruculuğun göstəricisidir.

73 saylı seçki məntəqəsi Xocalı şəhərini əhatə edir. Burada seçicilərin azad şəkildə səs vermələri üçün hər cür şərait yaradılıb. Səsvermə başlayan andan məntəqədə seçici fəallığı müşahidə edilir.

Məntəqə seçki komisssiyasının sədri Ceyhun Əbdülov bildirir ki, məntəqədə 125 seçici qeydə alınıb.

Seçici Aytac Səlimzadə səs verdikdən sonra bizimlə söhbət edir:

- Bakıda Suraxanı rayonunda yaşayırdıq. Mayın 29-da ailəmlə doğma Xocalıya qayıtdıq. Artıq köçkün deyilik. Xocalı sakiniyəm. Bu gün öz doğma yurdumda səsvermə hüququmu gerçəkləşdirdim. Bu mənim üçün çox qürurvericidir. Bir baxın, insanlar, gülür, sevinirlər... Bu o deməkdir ki, artıq dərd, qəm geridə qalıb. Xocalılılar indi öz xoşbəxt həyatlarını yaşayırlar.

Digər seçici Cəmilə Nəsibova deyir: "Səsverməyə oğlum Həsənlə gəlmişəm. Həsən ilk dəfədir ki, parlament seçkilərində iştirak edir. Səsvermə demokratik, şəffaf keçir. Xocalılı olaraq doğma yurdumda seçkilərdə iştirak etdiyim üçün çox sevincliyəm".

Həsən Nəsibov da səs verdikdən sonra təəssüratlarını bizimlə bölüşür:

- Fevral ayında ilk dəfə prezident seçkisində iştirak etmişdim. Parlament seçkisində də ilk iştirakımdır. Bu seçki yaddaşıma əbədi həkk olundu. Xocalı haqqında həmişə kədərli söhbətlər eşitmişdim. Doğma yurdumuz indi yenidən qurulur. Erməni vandalzminin qalıqları şəhərdən silinsə də, ürəklərdən heç vaxt silnməyəcək. Səsvermədə iştirak etməkdə də əsas məqsədim odur ki, qoy hamı bizim keçmişlə deyil, işıqlı və inamlı gəlcəklə yaşadığımızı görsün. Heç bir təsir olmadan inandığım namizədə səs verdim.

Müşahidələrimizi 118 saylı Ağdam-Xocalı seçki dairəsinin Təzəbinə kəndində yerləşən 71 saylı məntəqəsində davam etdirdik. Məntəqə seçki komissiyasının sədri Sovet Salahov məlumat verdi ki, məntəqədə 405 seçici qeydə alınıb.

Seçki məntəqəsində qələbəlik idi. Seçicilərdən Nicat Salahovla söhbət etdik:

- Xocalılıların seçkidə bu cür fəal iştirakını görmək məni çox sevindirir. Bu o deməkdir ki, artıq xocalılılar yeni həyata köklənə biliblər. Əgər müşaidə etmisinizsə, vətəndaşlar bir-birinə gözaydınlığı da verirlər. Səsvermədə iştirak etdim. Nəzərimdə tutduğum namizədə səs verdim.

Digər seçici Nazim İmanov isə dedi:

- Xocalılılar bu gün tarixi gün yaşayırlar. Düz, 32 ildən sonra xocalılılar öz doğma torpaqlarında seçdikləri, inandıqları namizədə səs verirlər. Gərək seçilən adam da xocalılıların etimadını doğrultsun. Nəzərə alsın ki, o, parlamentdə böyük quruculuq işləri gedən bir şəhəri təmsil edəcək.

118 saylı Ağdam-Xocalı seçki dairəsinin 72 saylı seçki məntəqəsi isə Xocalı rayonunun Əsgəran qəsəbəsində yerləşir. Bu məntəqədə də müşahidə apardıq. Məntəqə seçki komissiyasının sədri Əlniyaz Nəcəfov bildirdi ki, bu seçki məntəqəsində 347 seçici qeydə alınıb.

Biz seçki məntəqəsində olanda günün ikinci yarısı idi və artıq 185 seçici səs vermişdi. Seçici fəallığı davam etməkdə idi.

Seçicilərdən Mehdi Hümmətovla söhbət etdik. O dedi:

- Çox böyük sevinclə səsvermədə iştirak edirəm. Çünki bu seçkilər fərqlidir. Bu, Azərbaycanın bütün ərazisində keçirilən ilk parlament seçkisidir. Azərbaycan bayrağının dalğalandığı qədim Əsgəran qalasında seçkidə iştirak etməyin bir ayrı zövqü var. Bu gün mən o zövqü yaşadım.

Müzəffər Ali Baş Komandanımıza, ordumuza minnətdaram ki, yenidən Qarabağı Azərbaycan edib, bizə qürur yaşatdılar. Seçkilər azad keçir, vətəndaşlar istədikləri namizədə müstəqil surətdə səs verirlər. Mən də sərbəst şəkildə öz seçimimi etdim.

Seçici Ramil Rüstəmov dedi ki, bu gün həyatının ən yaddaqalan günlərindən olacaq: "Əsgəranda səs vermək, bu tarixi torpaqların əsl sahibi kimi seçkidə iştirak etmək qürurvericidir. Səsvermə çox şəffaf keçir. Əsgəranda səs verib bu tarixi prosesin iştirakçısı olduğum üçün fəxr edirəm".

Beləcə, bu qədim yurdumuzda seçki qələbəliyinin şahidi olduq. Xocalıda seçkilər demokratik, ədalətli və şəffaf keçirildi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Xocalı-Bakı*
















## Laçında səslər sayıldı

**Dünən işğaldan azad edilmiş şəhər və rayonlarımızda keçirilən səsvermə Laçında da seçici fəallığı ilə müşayiət olundu. 32 ildən sonra doğma yurdlarına qayıdan laçınlılar seçkilərdə yüksək fəallıq nümayiş etdirdilər.**

**121 saylı Laçın Seçki Dairəsi üzrə 110 məntəqə fəaliyyət göstərir. Bu məntəqələrin altısı Laçın şəhərində yerləşir. Şəhərin mərkəzində yerləşən 106 saylı seçki məntəqəsində səsvermə və səslərin sayılması prosesini müşahidə zamanı bir daha azad, ədalətli, şəffaf seçkilərin şahidi olduq.**

**Seçki məntəqəsinin sədri Qardaşxan Dostyevlə söhbətimiz zamanı bəlli oldu ki, 1320 seçici qeydiyyatda olmuşdur. Gün ərzində seçicilər yüksək əhvali-ruhiyyə ilə məntəqəyə gələrək sərbəst şəkildə seçimlərini edirdilər. Digər seçki məntəqələri kimi, 106 saylı məntəqədə də seçki prosesində şəffaflıq təmin edilmişdi.**















Məntəqə sədrinin sözlərinə görə, laçınlılar uğurlu gələcəklərini qurmaq üçün seçkilərə böyük maraq göstərdilər. Bundan öncə şəhərdə keçirilən prezident seçkilərində də illər sonra Laçına qayıdan əhali böyük fəallıq nümayiş etdirmişdir. Laçında ikinci dəfə səsvermə hüququndan yararlanan seçici Taleh Rüstəmov dedi ki, prezident seçkilərində də iştirak edib və layiqli namizədə səs verib. Bu dəfə isə yenidən qurulan müasir Laçını Milli Məclisdə layiqincə təmsil edə biləcək şəxsə etimad göstərib. Taleh inanır ki, onların seçdikləri namizəd Laçının daha da inkişafı üçün çalışacaq.

Gənc seçici Hüseyn Muradov isə hesab edir ki, Laçının möhtəşəm günləri hələ qarşıdadır. Prezident İlham Əliyevin yenidən qurduğu Laçın inkişaf etdikcə insanların məşğulluğu daha da artacaq. Hazırda şəhərdə bir neçə müəssisə fəaliyyət göstərir və tezliklə burada yeni iş yerləri açılacaq. Laçının yeni seçilən deputatı da əhalinin məşğulluq məsələsinin həlli istiqamətində çalışmalıdır. Onlar inanırlar ki, Milli Məclisdə Laçını təmsil edəcək deputat ümidləri doğruldacaq.

Artıq saat 19-00-da seçki məntəqəsinin qapıları bağlandı. Müşahidəçilərin iştirakı ilə məntəqənin katibi Rəşad Mirzəyev əsas və daşınan səyyar seçki qutularının blomplarını kəsdi. Şəhərdə əlil və ya xəstə seçici olmadığı üçün səyyar qutuya ehtiyac duyulmamışdı. Əsas seçki qutusu mərkəzə gətirilərək açıldı və bülletenlər masanın üzərinə töküldü. Məntəqə üzvləri səslərin sayılma prosesini həyata keçirdilər. Səslərin sayılma prosesindən sonra yekun protokol hazırlandı və məntəqə üzvlərinin hər biri tərəfindən imzalanaraq 121 saylı dairə seçki komissiyasına göndərildi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*

# Naxçıvanda seçici mütəşəkkilliyi yenə də yüksək oldu

## Muxtar Respublikada parlamentdən əlavə, Ali Məclisə də seçkilər keçirildi



Sentyabrın 1-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 4 saylı Naxçıvan şəhər seçki dairəsinin Naxçıvan Dövlət Texniki Kollecində yerləşən 32 saylı seçki məntəqəsində səs verib.

Səlahiyyətli nümayəndə həmçinin burada təşkil olunmuş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə 27 saylı seçki dairəsində də səs verib.

Müşahidəçilər məntəqədə səsvermə prosesini izləyiblər.

Səlahiyyətli nümayəndə komissiyanın işinə uğurlar arzulayıb.

Qeyd edək ki, 2024-cü il sentyabrın 1-i ölkəmizdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar parlament seçkiləri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə də seçkilər günüdür. Muxtar respublikada seçkilərin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb.

*"Şərq qapısı" qəzetindən redaksiyamıza daxil olan materialları təqdim edirik*

### Şəhid anası: "Bütöv Azərbaycanın vətəndaşı olmaq qürurvericidir"



Səhər saatlarından başlayaraq 5 saylı Babək-Naxçıvan-Culfa seçki dairəsi üzrə Culfa şəhər 32 saylı seçki məntəqəsində Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş şəhid Kənan Quliyevin anası İlhamə Quliyeva ilə həmsöhbət olduq. Bildirdi ki, bu ilin fevralında prezident seçkilərində də iştirak edib. Bu gün isə parlament seçkilərində öz hüququndan istifadə edir.

Sevinir ki, namizədlər arasında torpaqlarımız uğrunda canını fəda edən şəhidlərin ailə üzvlərinin də adı var. Seçki ədalətli və mütəşəkkil keçir. Azad və bütöv Azərbaycan vətəndaşı olmaq qürurvericidir. Gözəl Vətənimizin gələcəyi naminə səs veririk. Bütöv Azərbaycanın işğaldan azad olunmuş ərazilərində - öz yurdlarında illər sonra səsvermə hüququndan istifadə edənlər Vətənin bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərin ruhuna dualar oxuyurlar.

### 100 yaşlı seçici: "Ulu Öndərin siyasətinin layiqli davamçılarını millət vəkili kimi görmək istəyirəm"



Seçki məntəqələrində səsvermədə iştirak etməkdə çətinlik çəkən və bu barədə məntəqə seçki komissiyalarına əvvəlcədən müraciət edən şəxslərin səs vermələri üçün daşınan qutular təşkil edilib. Belə ki, Şərur rayonunun ən yaşlı sakinləri məntəqəyə gəlməkdə çətinlik çəkdiyindən onlar üçün yaradılan bu şəraitdən istifadə edərək komissiya üzvlərinin iştirakı ilə səs veriblər.

Biz də rayonun ən yaşlı sakinlərindən olan, İbadulla kəndində yaşayan Dilbər Məmmədovanın fikirlərini öyrəndik: "Bu seçkidə mən Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin davamçılarını millət vəkili kimi görmək istəyirəm. Elə buna görə də ən layiqli namizədə səs verdim. Arzu edirəm ki, seçilən namizədlər ölkə başçısına, onun yürütdüyü siyasətə layiq olsunlar, qalib gələcək deputatlar işlərini xalqın etimadını doğruldacaq səviyyədə qursunlar. Ölkə rəhbərliyinə, xalqa və onun verdiyi səsə sadiq olsunlar. Xalqın səsiylə seçilən deputatlar xalqı eşidəcəklər, onların problemləri ilə maraqlanacaqlar. Mən el-obamı təmsil edəcək deputatın daim yerli əhali ilə sıx təmasda olmasını istəyirəm. Çünki xalqın etimad göstərib seçdiyi deputat öz diqqətini, bacarığını əhalinin problemlərinin həlli yollarının tapılmasına yönətməli, bu problemlərin müvafiq qurumlar qarşısında qaldırılmasına dəstək olmalıdır".

### Şəhid atası: "Bütöv Azərbaycanı xalqımıza bəxş edən oğulların ruhu şaddır"

3 saylı Babək-Şahbuz-Kəngərli seçki dairəsinin 56 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edənlər arasında II Qarabağ müharibəsinin qəhrəmanlarından olan Xok kənd sakini şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov da var.



Onunla söhbət zamanı dedi ki, Vətənini bütövləşdirən oğulların sayəsində bu gün Şuşada, Laçında öz yurd-yuvalarında əmin-amanlıq içərisində yaşayan sakinlər də seçki qutusu yanına gedib öz səsvermə hüququndan istifadə edirlər. Qəhrəman oğullarımızın ruhu şaddır.

### Naxçıvanda da brayl əlifbası ilə səsvermə imkanı yaradılıb



Milli Məclisə növbədənkənar seçkilərin 4 saylı seçki dairəsinin 16 saylı məntəqəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin 27 saylı seçki dairəsinin 1 saylı məntəqəsi Naxçıvan şəhərindəki Gənclər Mərkəzinin binasında yerləşir.

Bu məntəqələrin seçiciləri arasında görmə imkanı məhdud vətəndaş Elməddin Kərimov da var idi. Görmə qabiliyyətini tam və ya qismən itirmiş vətəndaşlarımızın seçkilərdə səsvermə prosesində iştirak etməsi məqsədilə brayl əlifbası ilə seçki bülletenləri çap edilərək bütün seçki məntəqələrinə təqdim olunub. Bu məntəqələrdə seçici sayı, ümumilikdə 1479 nəfərdir.

Elməddin Kərimov təəssüratlarını bizimlə bölüşərək bildirdi ki, o da vətəndaş kimi seçki hüququndan istifadə edir. Səsvermə zamanı gözdən əlillər üçün bu cür şəraitin yaradılması dünya standartlarına tam uyğundur.

E.Kərimov əlavə etdi ki, onlar üçün bu şəraitin yaradılmasına sevinir. Tam rahatlıqla seçkidə iştirak edib və seçdiyi namizədə səs verib.

### Vətən müharibəsi veteranı: "İnanıram ki, parlament seçkiləri xalqımız, dövlətimiz üçün uğurlu olacaq"



Naxçıvan Muxtar Respublikasında Milli Məclisə 6, Ali Məclisə isə 45 dairə üzrə seçkilər keçirildi. Naxçıvan şəhəri üzrə bir neçə məntəqədə olduq, seçki prosesini izlədik. Əliabad qəsəbə 17 nömrəli tam orta məktəbdə yerləşən, 1191 seçicinin qeydə alındığı Milli Məclis üzrə 4-42 və Ali Məclis üzrə 33-6 saylı məntəqələrin qarşısında seçicilərin fəallığı, onların yüksək əhvali-ruhiyyə ilə seçkiyə qatılmaları diqqətimizi çəkdi. Hər kəs seçici siyahısından adını rahatlıqla tapır, sonra azad şəkildə səsvermə hüququndan istifadə edirdi.

Seçici, Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan baş leytenant Hüseyn Həsənovun fikirlərini öyrəndik: "2020-ci ildə ölkəmizin apardığı haqq müharibəsində Xocavənd, Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak etmişəm. Oktyabrın 20-də Qubadlı istiqamətində yaralanmışam. Dövlətimizin diqqət və qayğısını daim hiss edirəm. Cəmiyyətimizin bütün üzvləri biz qazilərə hörmətlə, ehtiramla yanaşırlar. Artıq ikinci dəfədir ki, qalib ordunun ehtiyatda olan zabiti, eyni zamanda da ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş ölkənin vətəndaşı kimi seçki prosesində iştirak edirəm. Qalib zabit kimi bu dəfə də Vətənimin aydın sabahı naminə səs verdiyim üçün ikiqat sevincli və qürurluyam. İnanıram ki, parlament seçkiləri xalqımız, dövlətimiz üçün uğurlu olacaq".

### Gənclər gələcəyə səs verirlər

1 saylı Şərur-Sədərək seçki dairəsinin Sədərək rayonu ərazisində yerləşən 42 saylı seçki məntəqəsində səsvermə hüququndan ilk dəfə istifadə edən gənclərdən biri - İnci Rzazadə ilə həmsöhbət olduq. O bildirdi ki, gənclər, öz




növbəsində, ölkəmizin demokratik və sürətli inkişafı üçün səsvermə hüququndan istifadə edirlər. O da həmin gənclərdən biri olmağının sevincini yaşayır. Layiqli namizədə səs verdiyini qeyd edir.

❖ ❖ ❖

İlk dəfə səs verən Sədərək rayon sakini Elnur Qasımlı bizimlə təəssüratlarını bölüşdü:

- Bu gün xalqımız üçün əlamətdar günlərdən



biridir. Vətəndaşlar öz layiqli namizədlərini deputat seçirlər. Özüm, eləcə də ailə üzvlərim seçkidə fəal iştirak edərək 1 saylı Şərur-Sədərək seçki dairəsinin 37 saylı seçki məntəqəsində səs verdik. İlk dəfə səs verdiyim üçün çox həyəcanlıyam. Bu gün seçkidə yaradılan şərait yüksək səviyyədədir. Hər kəs öz layiqli namizədinə səs verir. Biz də ölkəmizin, muxtar respublikamızın gələcək inkişafına səs verdik.







# 3 təşkilat, 2500-dən çox seçki məntəqəsi

## Seçkilərin şəffaflığını "exit-poll"da təsdiqlədi

Dünən Azərbaycanda 125 seçki dairəsi üzrə 6478 seçki məntəqəsində parlament seçkiləri keçirildi. Yüksək rəqabət şəraitində keçirilən seçkilərin şəffaflığını beynəlxalq və yerli müşahidəçilər də təsdiq etdilər.





Əlavə edək ki, budəfəki parlament seçkilərində 598 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi. Onlar 51 beynəlxalq təşkilatı və 69 ölkəni təmsil edirdilər.

Ölkəmizdə keçirilən hər bir seçki praktikada tətbiq edilən və demokratiyanın inkişafına xidmət edən yeniliklərlə əlamətdar olur. Bu cür yeniliklərin tətbiqi zamanı xüsusən qeyri-hökumət təşkilatlarına yer verilməsi, onların öz layihələrini həyata keçirmələri üçün lazımi şəraitin yaradılması Azərbaycan dövlətinin seçkilərin demokratik keçirilməsi ilə bağlı siyasi iradəsinin bariz təcəssümüdür. Ölkəmizdə ilk dəfə 2005-ci ilin parlament seçkilərində xarici təşkilatlar tərəfindən seçicilərin seçki məntəqəsində səs verib çıxdıqdan sonra kimə səs vermələrini öyrənmək məqsədilə sorğu - "exit-poll" keçirildi. Sonrakı seçkilərdə də "exit-poll"un keçirilməsi təmin edildi.

Sentyabrın 1-də növbədənkənar parlament seçkilərində də 2500-dən çox seçki məntəqəsində "exit-poll" keçirildi. "Exit-poll"ları Sosioloji Tədqiqatlar Mərkəzi, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası "Oracle Advisory Group" (Amerika Birləşmiş Ştatları) ilə birgə və "Tərəqqi" Sosial Tədqiqatlar İctimai Birliyi SWG S.P.A Tədqiqatlar Şirkəti (İtaliya) ilə birgə keçirib. "Oracle Advisory Group" şirkəti parlament seçkilərində eyni anda 872 məntəqədə "exit-poll" keçirib. Qeydə alınan nəticələr Nyu Yorkdakı Data Mərkəzində emal olunduqdan sonra axşam saatlarında açıqlanıb.

Günün sonunda isə Mərkəzi Seçki Komissiyası seçkilərin ilkin nəticəsini elan etdi. Üç beynəlxalq təşkilatın həyata keçirdiyi "exit-poll"un nəticələri ilə MSK-nın rəsmi nəticəsi demək olar ki, üst-üstə düşdü. Bu da bir daha təsdiq etdi ki, VII çağırış Milli Məclisə seçkilər demokratik keçirildi.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# *84 yaşlı seçici:* "Qarabağ Zəfərinə şahidlik etdim, ömür vəfa etsə, Qərbi Azərbaycana da qayıdışı görəcəyəm"

"Növbədənkənar Prezident seçkilərində özüm məntəqəyə gedib səs verdim. Milli Məclisə növbədənkənar seçkilərdə də özüm gəlib səs vermək istədim. Heç birində daşınan qutu istəmədim. Bu, mənim doğma vətənimə, xüsusilə də dövlət başçısına olan sevgimdən irəli gəlir".

Bunu AZƏRTAC-a 35 saylı Xətai üçüncü seçki dairəsinin 55 nömrəli tam orta məktəbdə yerləşən 9 saylı məntəqəsində səs verən 84 yaşlı seçici Ülkər Hüseynova deyib.

"Əslən Qərbi Azərbaycandanam. Allah mənə Qarabağ Zəfərini görməyi nəsib elədi. Ömür vəfa etsə, Qərbi Azərbaycanda öz dədə-baba yurdumu da görmək istəyərəm. Əminəm ki, vaxt gələcək dövlət başçısı mənim kimi yurd-yuvalarından didərgin düşən Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdışına nail olacaq. Allah Prezident İlham Əliyevə uzun ömür versin. Əsgərlərimizi, zabitlərimizi qorusun. Şəhidlərimizə də Allahdan rəhmət diləyirəm", - deyə Ülkər Hüseynova bildirib.




Məntəqə sədri Afət Əkbərova isə siyahıda 1475 seçici olduğunu, onlardan 150-yə yaxınının artıq səsvermədə iştirak etdiyini bildirib: "Qeydiyyatdan çıxmaq və daşınan qutu üçün müraciətlər olmayıb. İlk dəfə səs verənlərin sayı 10 nəfər, 70 yaşdan yuxarı seçicilərin sayı isə 18 nəfərdir".

# "Baxmayaraq ki, yatağa məhkum olmuşam, seçkilərdə iştirak etmək borcumu unutmuram"

Bu parlament seçkisi özünün bir sıra özəlliyi ilə fərqlənirdi. 30 ildən sonra ilk dəfə Azərbaycanın bütün ərazisində Milli Məclisə seçkilər keçirilirdi.

Bu, Azərbaycanın daha qüdrətli sabahına zəmin hazırlayan bir hadisədir. Dünənki seçkinin bir fərqi də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə üst-üstə düşməsidir.

İnsanın günləri rəngsiz, yeknəsəq deyil, müxtəlif siyasi-ictimai hadisələrin müşayiəti ilə keçəndə həyatı daha maraqlı olur.

- Taleyim elə gətirib ki, ayaqlarımın ikisi də dizdən aşağı kəsilib. Amma həyat mənim üçün marağını itirməyib, - deyə Qaraçuxur qəsəbə sakiniu Əli Kazımov söhbətə başladı. - Mən ölkəmdə baş verən bütün ictimai-siyasi hadisələri izləyirəm, Azərbaycanı istəməyən xarici bədxahların nə dərəcədə zalım, aman-



sız olduğunu şüurlu surətdə dərk edirəm. Baxmayaraq ki, yatağa məhkum olmuşam, amma bir gün olsun belə, vətəndaş mövqeyimdən çəkinməmişəm. Ölkədə keçirilən seçkilərdə iştirak etmək borcunu heç zaman unutmuram. Bəzən amansız ağrıların burulğanında qıvrılsam da, Azərbaycan adlı bir məmləkətin övladı olmaqdan qürur duymuşam, bu hissdən usanmamışam.

61 yaşlı həmsöhbətimiz birinci qrup əlildir. Bir ayağı illər öncə kəsilib, protezlə gəzib. İkinci ayağından isə 2 il öncə məhrum olub. Hələ tam sağalmayıb, ona görə də protez geyinə bilmir, günləri yataqda keçir. Seçkidə iştirak etmək üçün əvvəlcədən 31 saylı Suraxanı 2-ci seçki dairəsinin 5 saylı məntəqəsinə müraciət edib. Əli Kazımovun xəstəliyi nəzərə alınaraq daşınan seçki qutusu evinə gətirilib. Qaraçuxur sakini ona yaradılan bu şəraiti dəyərləndirərək dedi:

- Məntəqəyə gedə bilməsəm də inanıram ki, seçkidə qayda pozuntusu qeydə alınmayacaq. Əgər belə olsaydı, qutunu evimə gətirməzdilər. Çəkinmədən deyə bilərəm ki, Qaraçuxur sakinləri hər zaman seçkilərdə fəal olublar. İstər Prezident, istər parlament, istərsə də bələdiyyə seçkilərində bizim məntəqələrdə ədalətli, şəffaf seçki keçirilib. Ayaqlarım yer tutanda, səhhətimin yol verdiyi zamanlarda bunun şahidi olmuşam. İndi də televiziyadan, internetdən seçkinin gedişini izləyirəm. Əminəm ki, hər zaman olduğu kimi, yenə də ədalət zəfər çalacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Veb-kameralar özünü növbəti dəfə doğrultdu







Respublikamızda seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsini təmin etmək üçün zəngin təcrübə var. O cümlədən seçkilərdə müasir informasiya kommunikasiya texnologiyaları sahəsindəki yeniliklərdən istifadə edilir. Bunlardan biri də seçki məntəqələrinə veb-kameraların quraşdırılması və səsvermənin gedişinin internetdən birbaşa izlənilməsidir.

Bu metod dünyanın istənilən yerində internet istifadəçisinə Mərkəzi Seçki Komissiyasının internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan onlayn rejimdə səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsi proseslərini əvvəldən axıradək fasiləsiz izləməyə, geniş və hərtərəfli müşahidə etməyə imkan verir.

Xatırladaq ki, Azərbaycanda seçkilər zamanı səsvermənin veb-kameralar vasitəsi ilə izlənməsi ilk dəfə 2008-ci ildə tətbiq edilib. Səsvermənin gedişini birbaşa internetdən izləmək üçün tətbiq olunan bu metod qlobal səviyyədə çox yüksək qiymətləndirilib. Artıq bəzi ölkələr Azərbaycanın bu təcrübəsindən istifadə edirlər.

Respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olan növbədənkənar parlament seçkilərində də bu kimi metod və vasitələrdən istifadə etməklə şəffaflığın təmin olunmasına xüsusi diqqət yetirildi. Sentyabrın 1-də də seçki məntəqələrinə getmədən, internet vasitəsilə səsvermə prosesini birbaşa izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsi uğurla davam etdirildi. Bütün ölkə coğrafiyasını əhatə etməklə 119 seçki dairəsinin 1000 seçki məntəqəsində veb-kameralar vasitəsilə səsvermənin gedişini izləmək mümkün oldu.

Beləliklə, seçki günü internet istifadəçiləri həm ölkə daxilindən, həm də ölkə xaricindən MSK-nın rəsmi internet səhifəsinə daxil olmaqla səsvermə prosesini, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən birbaşa müşahidə etmək imkanına malik oldular.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*







# Seçicilər maraqla gözlədikləri xəbərləri ala bildilər

## Seçkilər İnformasiya Mərkəzi KİV nümayəndələrinə məlumatları operativ şəkildə ictimaiyyətə çatdırmaları üçün lazımi şərait yaratdı

Seçkilər keçirildiyi günlərdə bütün ölkə seçki abhavasına köklənir.

Vətəndaşlar səs verdikləri namizədin seçilib-seçilməyəcəyinin intizarı içərisində həm də seçki məntəqələrində səsvermənin gedişi, seçici fəallığı, qayda pozuntularının baş verib-verməməsi ilə bağlı operativ, dəqiq və qərəzsiz məlumat almaq istəyirlər. Bu mənada həmin gün jurnalistlərin də üzərinə böyük məsuliyyət, həm də böyük iş düşür.

Xatırladaq ki, bu il fevralın 7-də növbədənkənar prezident seçkilərinin başlaması ilə əlaqədar təşkil olunan mətbuat konfransında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov qeyd etmişdi ki, Mərkəzi Seçki Komissiyası ilə əməkdaşlıq edən və müəyyən vəzifəsi olan qurumların içərisində ən əhəmiyyətlisi media subyektləridir: "Çünki jurnalistlərin fəaliyyəti nəticəsində Azərbaycan və dünya ictimaiyyəti seçkilərlə tanış olacaq". MSK sədri o zaman bildirmişdi ki, seçkilərin şəffaf keçirilməsi, bu mühüm kampaniya ilə bağlı ictimaiyyətdə fikir formalaşması baxımından jurnalistlərin üzərinə böyük iş düşür: "Ona görə də indiyə qədər jurnalistlərin göstərdiyi fəaliyyəti yüksək qiymətləndiririk".





Qeyd edək ki, sentyabrın 1-də VII çağırış Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə də ölkə KİV-nin əksəriyyəti öz vəzifə borcunu layiqincə yerinə yetirməyə çalışdı. Paytaxtda və bölgələrdə təşkil olunmuş bir çox seçki məntəqələrindən KİV nümayəndələri canlı olaraq reportajlar hazırladılar, operativ məlumatlar verdilər.

Həmin gün Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzində də jurnaistlərin fəallığı nümayiş olunurdu. Təqdirəlayiqdir ki, Milli Məclisə növbədənkənar seçkilərin gedişi barədə dəqiq və dolğun məlumat əldə etmək və yaymaq üçün Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzi kütləvi informasiya vasitələri nümayəndələrinə lazımi şərait yaratdı. Gün ərzində statistik məlumatlar açıqlandı. Ayrı-ayrı məntəqələrdə seçkilərin gedişi, seçici fəallığı ilə bağlı məlumatlar verildi.



Sentyabrın 1-də Mərkəzi Seçki Komissiyasında növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar ilk rəsmi məlumat saat 8:00-da verildi. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bütün seçki məntəqələrinin səsvermə üçün tam hazır vəziyyətə gətirildiyini diqqətə çatdırdı. Məzahir Pənahov seçkilər elan olunduqdan sonra MSK tərəfindən bütün lazımi tədbirlər görüldüyünü diqqətə çatdırdı. MSK və dairə seçki komissiyaları bütün addımları Seçki Məcəlləsinin tələblərinə uyğun atıblar.

Mərkəzi Seçki Komissiyasının sədri seçkilərin Azərbaycanda böyük hadisəyə çevrildiyini vurğuladı. Qeyd edildi ki, parlament seçkiləri ilk dəfə ölkəmizin bütün suveren ərazisində keçirilir. Məzahir Pənahov onu da diqqətə çatdırdı ki, Azərbaycanda keçirilən seçkilərə beynəlxalq miqyasda böyük maraq var: "Beynəlxalq müşahidəçilərin əksəriyyəti seçkilər üzrə böyük təcrübəyə malikdir və onların fikirləri əhəmiyyətlidir". Sədr seçkilərdə beynəlxalq müşahidəçilərin çox geniş şəkildə təmsil olunduqlarını vurğuladı.

Nəzərə çatdırıldı ki, Milli Məclisə növbədənkənar seçkiləri 22 beynəlxalq media nümayəndəsi də işıqlandıra biləcək.

Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzində gün ərzində verilən statistik məlumatlarda səs vermiş seçicilərin sayı, məntəqələrdə vəziyyət və digər informasiyalar çatdırıldı. Milli Məclisə seçkilərlə əlaqədar səsvermənin gedişinə dair ilk rəsmi məlumat saat 10:00-da Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzində statistik məlumatlar açıqlandı.

Mərkəzi Seçki Komissiyası parlament seçkiləri ilə əlaqədar səsvermənin gedişinə dair növbəti məlumatı saat 12:00-da verdi. Mərkəzi Seçki Komissiyası Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov son məlumatlardan biri kimi onu da diqqətə çatdırdı ki, ölkə üzrə seçici fəallığı ən yüksək olan seçki dairəsi 122 saylı Xankəndi seçki dairəsidir.

Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinin saat 15:00-da, 17:00-da və 19:00-da verdiyi açıqlamalarda KİV nümayəndələri Milli Məclisə seçkilərlə əlaqədar səsvermənin gedişinə dair lazımi məlumatları ala bildilər. MSK Katibliyinin Seçkilər İnformasiya Mərkəzinin müdiri Fərid Orucov jurnalistləri maraqlandıran məsələlərə tam aydınlıq gətirdi.

Müşahidə etdik ki, jurnalistlər Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzində texniki problemlərlə qarşılaşmadılar. Əldə etdikləri məlumatarı rahat şəkildə operativ olaraq ötürə, yayımlaya bildilər.

*Zöhrə FƏRƏCOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Cəzaçəkmə müəssisələrində səsvermə keçirilib








Azərbaycanın növbədənkənar parlament seçkiləri ilə bağlı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə məntəqələrində səsvermə prosesi keçirilir.

Səsvermə Sabunçu rayonunda Bakı İstintaq Təcridxanasında 29 saylı seçki dairəsinin 38, 39, 40 saylı seçki məntəqələri üzrə aparılıb.

38 saylı seçki məntəqəsinin sədri Aslan Mirzəyev qeyd edib ki, məntəqə üzrə 1081 məhkum qeydiyyatdadır. Burada saxlanılan şəxslərin öz hüquqlarından istifadə edərək, şəffaf və azad şəkildə səs vermələri üçün şərait yaradılıb.

39 saylı seçki məntəqəsində səsvermə prosesi keçirilib. Məntəqə sədri Hüsaməddin Bağırov deyib ki, məntəqədə 990 nəfər seçici var.

41 saylı seçki məntəqəsinin sədri Eldar Mahmudov vurğulayıb ki, məntəqə üzrə 545 məhkum qeydiyyatdadır, 205 nəfər səs verib.

10 saylı cəzaçəkmə müəssisəsində səsvermə prosesi keçirilir. Səsvermə Nərimanov rayonu 18 saylı seçki dairəsinin 39 saylı seçki məntəqəsi üzrə aparılır.

39 saylı seçki məntəqəsinin sədri Elşad Əhmədov söyləyib ki, 1469 məhkum qeydiyyatdadır, indiyədək 900 nəfər səs verib. "Seçki komissiyasının tərkibində fəaliyyət göstərən seçki məntəqələrində səsvermə qanunvericiliyə uyğun olaraq mütəşəkkil qaydada keçirilir", - deyə məntəqə sədri bildirib.

❖ ❖ ❖

Milli Məclisə növbədənkənar parlament seçkiləri ilə bağlı Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 1 saylı Bakı İstintaq Təcridxanasında məhkumların səsvermə prosesi keçirilir.

Səsvermə Sabunçu rayonu 29 saylı seçki dairəsinin 38, 39, 40 saylı seçki məntəqələri üzrə aparılır.

38 saylı seçki məntəqəsinin sədri Aslan Mirzəyev qeyd edib ki, məntəqə üzrə 1081 məhkum qeydiyyatdadır.

Seçki komissiyasının tərkibində fəaliyyət göstərən seçki məntəqələrində səsvermə qanunvericiliyə uyğun olaraq mütəşəkkil qaydada aparılır.

Qeyd edək ki, məhkum və həbs edilmiş şəxslər Penitensiar müəssisələrində 13 dairəni əhatə edən 26 seçki məntəqəsində azad və sərbəst şəkildə səs verirlər.

*AZƏRTAC*

# Seçici mədəniyyəti də yüksəlib

7 saylı Səbail Seçki Dairəsinin 10 saylı məntəqəsində seçkilərin gedişini çoxsaylı müşahidəçilər izləyirdi. Xüsusilə öz təşəbbüsü ilə müstəqil müşahidəçilərin çox olması diqqəti cəlb edirdi. Tərəfsiz olan bu müşahidəçilərin rəyi seçkilərin şəffaf keçirilməsində önəmli rol oynayırdı.







Məntəqənin sədri Lalə Əliyeva dedi ki, bu seçkilərdə 8 namizəd yarışa qoşulub: "İlk dəfədir ki, namizədlərin sayı belə çoxdur. O üzdən məsuliyyətimiz daha böyükdür. Həm seçicinin, həm də seçilmək istəyən namizədin hüquqlarını qorumaq bizim borcumuzdur".

Məntəqədə səsvermə prosesini Müstəqil Dövlətlər Birliyindən, Türkiyədən, İrandan gələn müşahidəçilər izləyiblər. Bununla yanaşı, səsvermə prosesini bir çox yerli və xarici qeyri-hökumət təşkilatlarının nümayəndələri müşahidə ediblər. Məntəqənin şikayət və müraciətlər kitabına seçkidə nöqsanların baş verməsi barədə istər müşahidəçilər, istərsə də namizədlərin nümayəndələri tərəfindən hər hansı bir qeyd aparılmayıb.

Müstəqil müşahidəçi Dövlət Abdullayeva bildirdi ki, səsvermədə seçici fəallığı ilə yanaşı, seçici mədəniyyətinin də yüksəlməsini görürük: "Məntəqə nümayəndələri öz vəzifələrini qanun çərçivəsində yerinə yetirirlər. İndiyədək istər namizədlərin nümayəndələri və ya seçicilər tərəfindən qanun pozuntusu ilə bağlı heç bir müraciət olunmayıb".

Seçici Nərmin Əhmədova dedi ki, səsvermə zamanı heç bir problemlə qarşılaşmayıb. Ona istədiyi namizədə səs vermək imkanı yaradılıb və istədiyi namizədə də səs verib. Seçkidə iştirakını isə özünün vətəndaşlıq borcu hesab edir.

Nigar İlyaslı səsverməyə qızı ilə birlikdə gəlmişdi. Bülleteni atmağı qızına həvalə etdi, uşağın sevincinin həddi-hüdudu yox idi. Bizimlə söhbət zamanı bildirdi ki, bütün seçkilərdə iştirak edir. Bu dəfə də inanıb etibar etdiyi namizədə səs verib. Dedi ki, seçkidə layiqli, savadlı və vətənpərvər namizədlərə səs verməliyik ki, onlar bizi parlamentdə layiqli təmsil etsinlər.

Müşahidəçi Leyla Ağakişiyeva Yeni Azərbaycan Partiyasını təmsil edirdi. Qeyd etdi ki, iqtidar partiyasının nümayəndəsi kimi məsuliyyəti böyükdür: "Ona görə də səsvermənin gedişini diqqətlə izləyirik. Hələlik heç bir qanun pozuntusunu qeydə almamışıq. Bu məntəqədə seçicilər 8 namizədə səs verirlər. Biz onların hansı partiyaya mənsub olmasına və müstəqil şəkildə qatılmasına baxmayaraq, hamısının hüquqlarının qorunmasına məsuliyyət daşıyırıq. İstəyimiz odur ki, seçicilərin layiq gördüyü namizəd qalib gəlsin".

Sosioloji Tədqiqatlar Mərkəzinin nümayəndəsi Aytən Məmmədova da seçki prosesini izləyirdi. Dedi ki, onlar anonim şəkildə seçicilərin rəyini öyrənirlər: "Bizim tərəfimizdən hələlik heç bir qanun pozuntusu barədə şikayət və ya narazılıq qeydə alınmayıb". Aytən xanım həmçinin seçici mədəniyyətinin də yüksək olduğunu vurğuladı. Müraciətlərinə seçicilərin anlayışla yanaşdığını, sorğularına məsuliyyətlə cavab verdiklərini bildirdi.

*Rüstəm KAMAL,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Beynəlxalq müşahidəçilər seçkilərin ədalətli,

## Seçkiləri 51 beynəlxalq

**Sentyabrın 1-də ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycan Respublikasının bütün ərazilərində növbədənkənar parlament seçkiləri keçirilib. Seçki prosesini müşahidə etmək üçün 51 beynəlxalq qurumdan və 69 ölkədən 598 nəfər akkreditə olunub. Yerli müşahidəçilərə gəlincə isə, ümumilikdə 112 749-a yaxın şəxs qeydə alınıb ki, onlardan 65 mindən çoxu 25 siyasi partiyanı təmsil edirdilər.**
**Paytaxt Bakıda və regionlarda, eləcə də işğaldan azad edilmiş ərazilərdə seçkiləri izləyən beynəlxalq müşahidəçilər Azərbaycanda parlament seçkilərinin şəffaf və demokratik keçirildiyini, seçici fəallığının yüksək səviyyədə olduğunu bildiriblər.**




**Maksim Leskov,**
*Müstəqil Dövlətlər Birliyindən olan monitorinq missiyasının nümayəndəsi:*

- Biz beynəlxalq müşahidəçi qismində növbədənkənar parlament seçkilərində iştirak etməkdən çox məmnunuq. Tarixdə ilk dəfə Azərbaycanın bütün suveren ərazisində parlament seçkiləri keçirilir. İnsanların sevinclə, bayram əhvali-ruhiyyəsi ilə səsvermədə iştirak etdiklərini görməkdən çox məmnunuq. Başa düşürük ki, bir müddət əvvəl elə bu ərazidə müharibə gedirdi və indi belə demokratik prosedurda iştirak edən insanları görmək çox vacibdir. Biz islam dünyasının mədəniyyət paytaxtı olan ən gözəl Şuşa şəhərinə gəldik. Bu gün səhər saatlarında seçki məntəqəsinin açılmasını izlədik, demək istəyirəm ki, çoxları artıq səsvermə hüququndan istifadə edib. Səsvermə üçün bütün lazımi şərait yaradılıb. Seçici fəallığı yüksək səviyyədədir.




**Xan Cam Seyfullah,**
*Pakistan Senatının üzvü:*

- Biz Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün buradayıq. Bu vaxtadək seçki prosesinin çox yüksək səviyyədə getdiyini və hər şeyin qaydasında olduğunu görürük. Ümid edirəm ki, Azərbaycan xalqı öz layiqli nümayəndələrini seçəcək, çünki demokratiyanın mahiyyəti elə budur.

Seçkiləri müşahidə etmək məqsədilə Pakistandan buraya Azərbaycanın dostları kimi gəlmişik. Biz seçkilərin çox azad və qərəzsiz keçdiyini müşahidə etdik. Başqa məntəqələrə gedib oradakı seçki prosesini də müşahidə edəcəyik. Ümumilikdə hər şey qaydasındadır.




**Ahmet Yener,**
*Türkiyə Yüksək Seçim Kurulunun (YSK) sədri:*

- İkinci dəfədir Azərbaycanda seçkilərdə müşahidəçi qismində iştirak edirəm. Daha əvvəl prezident seçkilərində bu vəzifəni yerinə yetirmişdim. Seçki prosesində şəffaflıq müşahidə edilir. Bu gün böyük gündür. Can Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 30 ildən sonra ilk dəfə parlament seçkiləri keçirilir. Prosesin qaydalara uyğun aparılması və azərbaycanlı qardaşlarımızın seçkilərə marağının böyük olması məni sevindirdi. Burada insanların rahat səs verməsi üçün yaxşı şərait yaradılıb. Seçkilər Azərbaycan və türk dünyası üçün xeyirli olsun .




**Sitara Ayaz,**
*Beynəlxalq Parlamentarilər Konqresinin (BPK) Baş katibi:*

- Azərbaycana uğurlar arzulayırıq və növbədənkənar parlament seçkilərinin nəticələrini səbirsizliklə gözləyirik. Biz Azərbaycanda seçkiləri müşahidə etmək üçün buradayıq. Saat 10:00-dan müxtəlif seçki məntəqələrini gəzməyə başlamışıq və indiyədək üç seçki məntəqəsində olmuşuq. Seçici aktivliyi qənaətbəxşdir. İndiyə qədər hər şey çox yaxşı gedir. Biz başqa seçki məntəqələrinə də gedəcəyik.



**Ahmet Zenbilci,**
*Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) nümayəndə heyətinin rəhbəri:*

- Biz TÜRKPA nümayəndə heyəti olaraq Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini izləyirik. Müşahidələrimiz göstərir ki, seçkilər demokratik və şəffaf şəkildə davam edir. Bundan çox məmnunuq. Bütün namizədlərə uğurlar arzulayıram. Bu seçki Azərbaycan üçün çox önəmlidir. Seçiləcək namizədlərin həm parlamentə, həm də ölkəyə uğurlu, xeyirli olmasını diləyirəm. Türkiyə və Azərbaycanın qardaşlığı hamıya məlumdur. Biz dünyaya bəyan edirik ki, bu seçki prosesi demokratik şəkildə keçirilir. Biz bunu çox uğurlu hesab edirik.




**Sos Mauzin,**
*Kamboca Milli Assambleyasının üzvü:*

- Biz bu gün səhər saatlarından müxtəlif məntəqələrdə müşahidəçilik etdik və şahidi olduq ki, hər şey çox yaxşı təşkil edilib. Parlament seçkilərində təşkilatçılıq yüksək səviyyədədir. Bir çox yerli və xarici müşahidəçilərlə görüşmüşük. İnsanlar bir-bir gəlib öz hüquqlarından istifadə edir, istədikləri, dəstəklədikləri partiyaya, namizədlərə səs verirlər. Bu, demokratiyanın bariz nümunəsidir.




**Qurban Huseyin,**
*britaniyalı deputat, Lordlar palatasının üzvü:*

- Müşahidələrimə görə, buradakı seçki Britaniya krallığındakı ilə eyni sistemdə aparılır. Proses eynidir. Vətəndaş gəlir, öz vəsiqəsini göstərir, yoxlandıqdan sonra daxil olur və səs verir. Vətəndaşa xüsusi kağız verilir. Səs verən vətəndaş bülleteni qutuya atır. Hər kəs azad şəkildə öz istədiyi namizədi seçir. Bu, Britaniyada da belədir. Seçkilərdə hər hansı fərqli bir hal müşahidə etməmişəm.




**Maykl Krid,**
*ATƏT-in Müşahidə Missiyasının koordinatoru:*

- ATƏT-in Parlament Assambleyası burada 55 nümayəndə və 200 nəfərdən çox qısamüddətli müşahidəçilərlə təmsil olunur. Missiyanın müşahidə nəticələri sabahkı mətbuat konfransında elan ediləcək. Biz burada olmaqdan məmnunuq. Bizim missiyamız bura Azərbaycan hökumətinin dəvəti ilə gəlib. Müşahidəçilərimiz bugünkü seçki prosesini izləyəcək. Biz burada fantastik günlər keçirdik, siyasi partiyaların, eləcə də vətəndaş cəmiyyətinin, Mərkəzi Seçki Komissiyasının nümayəndələri ilə görüşdük. Bu gün isə əvvəlki görüşlərdə eşitdiklərimizi görmək istəyirik. ATƏT-in Parlament Assambleyası burada 55 nümayəndə ilə təmsil olunub. Ümumilikdə isə ATƏT 200 nəfərdən çox qısamüddətli müşahidəçilərlə təmsil olunur. Bu, mənim olduğum ilk seçki məntəqəsidir və bütün seçki prosesini ətraflı müşahidə etmək istəyirəm. Sabah isə biz keçirəcəyimiz mətbuat konfransında nəticələri açıqlayacağıq.



**Dmitri Juk,**
*Müstəqil Dövlətlər Birliyinin (MDB) Parlament Assambleyasının nümayəndəsi, Belarus parlamentinin senatoru:*

- Seçki müşahidəçisi kimi məni namizədlərin çoxluğu - Milli Məclisə 125 yer üçün 900-dən çox namizədin olması - çox müsbət şəkildə təəccübləndirdi. Bu, çox yaxşı rəqabətdir. Bütün namizədlər üçün bərabər şərait yaradılıb, bu da beynəlxalq normalar və seçkilərin ədalətliliyi baxımından çox vacibdir. Ümid edirəm ki, Azərbaycanda parlament formalaşacaq və effektiv fəaliyyət göstərəcək. Seçkilər çox yaxşı təşkil olunub və bütün məntəqələrdə insanların rahat şəkildə səs verə və seçimlərini edə biləcəkləri bütün şərait mövcuddur. Seçkilərin erkən keçirilməsi və hazırlıq üçün bir neçə ayın sərf edilməsi ölkədə siyasi həyata heç bir təsir göstərməyib, insanlar bu vəziyyəti sakit qarşılayıblar. Bu gün səsvermə prosesi də sakit keçməkdədir, heç bir qeyri-adi hal yoxdur, heç kimə təzyiq göstərilmir.

Seçkilərin hazırlıq prosesi ilə bağlı Juk qeyd edib ki, 30-31 avqust tarixlərində Konstitusiya Məhkəməsində və Mərkəzi Seçki Komissiyasında müşahidəçilərə Milli Məclisə seçkilərin hazırlıq mərhələsi haqqında çox ətraflı məlumat verilib ki, bu da çox vacibdir.




**Lidiya Smirnova,**
*Müstəqil Dövlətlər Birliyindən (MDB) olan missiyanın nümayəndəsi:*

- Müstəqil Dövlətlər Birliyindən olan missiyanın müşahidəçiləri Azərbaycanda növbədənkənar parlament seçkilərində səsvermənin gedişindən razıdırlar. Şuşadakı 124 saylı seçki dairəsinin 47 saylı məntəqəsində səsvermə prosesində seçicilərin yüksək fəallığı müşahidə olunur. İlk dəfədir ki, Azərbaycanda müşahidəçi missiyasının tərkibindəyəm. Bu məntəqədə atmosfer çox mehribandır. Biz çoxlu sayda seçici gördük, sizin seçki sisteminizin, səsvermə prosedurunun xüsusiyyətləri ilə tanış olduq. Deyə bilərəm ki, vətəndaşların bütün seçki hüquqları qanunun tələblərinə uyğun olaraq tam şəkildə həyata keçirilir.




**Machava Benedito Xadreque,**
*Qoşulmama Hərəkatının Gənclər Təşkilatından müşahidəçi:*

- Azərbaycanda demokratik ənənələrin davam etdirilməsi üçün səsvermədə iştirak etmək çox vacibdir. Seçicilər seçki məntəqəsinə gəlməkdə maraqlıdırlar. Mən bu münasibətlə Azərbaycan xalqını təbrik etməliyəm, çünki parlamentdə kimin təmsil olunacağı ilə bağlı öz seçimini etməyi bacarır. Səsvermənin mətbuatda işıqlandırılması Azərbaycanda və ya ondan kənarda olan hər kəsə öz seçimini etməyin və ölkənizdə demokratik ənənələri qoruyub saxlamağın vacib olduğunu göstərmək üçün də mühümdür. Qoşulmama Hərəkatının Gənclər Təşkilatının seçkilərə dəvəti dünyaya göstərir ki, Qoşulmama Hərəkatı seçki prosesində şəffaflığa böyük əhəmiyyət verən bir təşkilatdır. Çünki biz demokratiyanı məhz belə qururuq. Azərbaycan hökuməti və xalqı bu prosesin içindədir.



**Anar Dubanbayeva,**
*Qırğızıstan Mərkəzi Seçki Komissiyasının üzvü:*

- Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində qanunla nəzərdə tutulmuş bütün qaydalara yüksək səviyyədə riayət olunur. Artıq 5 seçki məntəqəsində müşahidələr aparmışıq. Bu seçki məntəqələrində ancaq yüksək təşkilatçılıq gördük. Seçicilər istədikləri namizədə sərbəst şəkildə səs verirlər. Biz bu seçkilərdə yüksək təşkilatçılığı müşahidə etdik.



**Vladimir Borovenko,**
*MDB Parlamentlərarası Assambleyasında (MDB PA) Belarusdan olan müşahidəçi:*

- Biz Azərbaycanda keçirilən seçkilərin təşkili səviyyəsini yüksək qiymətləndiririk. Məntəqələrin necə hazırlandığı dərhal nəzərə çarpır. Hər şey ən yüksək səviyyədə təşkil olunub. Digər seçki məntəqələrində olarkən də təşkilatçılığın yaxşı olduğunu müşahidə etdik. Biz artıq MDB PA-dan olan həmkarlarımızla 7 seçki məntəqəsində olmuşuq, ona görə də artıq müəyyən təəssüratlarımız yaranıb. Seçkilərin yüksək təşkilini, Mərkəzi Seçki Komissiyası tərəfindən aparılan hazırlıq işlərini xüsusilə qeyd etmək istərdim.



**Vitaliy Jakot,**
*Moldova parlamentinin deputatı, Moldova-Azərbaycan Dostluq Qrupunun rəhbəri:*

- Seçkilər azad və konstruktiv şəraitdə keçir, indiyədək hər hansı qanun pozuntusu qeydə alınmayıb. Bu, Azərbaycanda müşahidə etdiyim ilk seçkilər deyil. Birinci dəfə mən növbədənkənar prezident seçkilərini müşahidə etmək şərəfinə nail olmuşdum. O zaman mən Qarabağda idim, Xankəndi, Şuşa və Ağdamda seçkinin gedişatını müşahidə etdim. Bu dəfə isə Bakı və ətraf regionlarda seçki prosesini müşahidə etdim. Seçkilər azad və konstruktiv şəraitdə keçir, indiyədək hər hansı qanun pozuntusu qeydə alınmayıb. Mən həm dairə seçki komissiyalarının sədrləri və üzvləri ilə, həm də ayrı-ayrı siyasi partiyaların müşahidəçiləri ilə söhbət etmişəm. Eyni zamanda seçicilərlə də danışmaq imkanım olub. Söhbət etdiyim seçicilərin hamısı qeyd etdilər ki, seçki məntəqələrinin ünvanlarını əvvəlcədən müəyyənləşdirib, rahatlıqla tapa biliblər. Yerlərdə dairə seçki komissiyalarının üzvləri ilə konstruktiv şəraitdə söhbət etmişik. Seçkilərə həm infrastruktur, həm sosial ünsiyyət, həm də təşkilatçılıq baxımından yaxşı hazırlıq görülüb.




**Syed Vasim Huseyn,**
*İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (İƏTPA) Pakistandan olan üzvü:*

- Bu vaxta qədər müşahidə etdiklərimə əsasən əminliklə deyə bilərəm ki, seçkilər çox ədalətli keçir. Pakistan və Azərbaycan dost ölkələrdir. Pakistan xalqı Azərbaycan xalqına hər zaman firavanlıq arzulayıb.




**Məryəm Fayzullina,**
*Müstəqil Dövlətlər Birliyi:*

- Səsvermə prosesi qanunvericiliyə uyğun şəkildə keçirilir. Məntəqədə çoxlu sayda yerli müşahidəçi də fəaliyyət göstərir. Seçicilər sevinc hissi ilə səsvermədə iştirak edirlər, hətta burada növbə də yaranıb. Hazırda səsvermə prosesi normal rejimdə davam edir.



**Şamil Ayrım,**
*Türkiyə parlamentinin müşahidə missiyasının rəhbəri:*

- Qardaş Azərbaycanda bundan əvvəl prezident seçkilərini izləmişdik. Can Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 30 ildən sonra ilk dəfə parlament seçkiləri keçirilir. Türkiyə olaraq bu seçkilər və onun nəticələri bizim üçün də mühüm əhəmiyyət kəsb edir. Seçki prosesində şəffaf seçim müşahidə edilir. Qadınların, gənclərin fəallığı bizi məmnun edir.

Başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla 86 milyon Türkiyə vətəndaşı Azərbaycanın yanındadır və hər zaman da yanında olacaq. Azərbaycanın qarşıdakı 5 ili çox önəmlidir. Çünki Cənubi Qafqazda Azərbaycanın sülh və sabitlik uğrunda səyləri, ölkənin xarici siyasətinin müəyyən edilməsi, regionda sülhün daimi olması vətəndaşların seçimlərinin nəticələrindən də asılıdır və proses çox önəmlidir. Bu seçkilərdə kim qazanırsa qazansın, əsas olan Azərbaycanın tərəqqisi və inkişafıdır.




**Andrey Yatskin,**
*MDB Parlamentlərarası Assambleyasından olan beynəlxalq müşahidəçilər qrupunun koordinatoru:*

- Azərbaycan Respublikası parlamentinə seçkilərdə Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının müşahidəçilərindən ibarət nümayəndə heyətini təmsil edirik. Nümayəndə heyətimiz təxminən 40 nəfərdir, onların hamısı Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasında akkreditə olunublar. Mən seçki məntəqələrində səsvermənin təşkilini qeyd etmək istərdim. Məntəqələr yüksək səviyyədə hazırlanıb. Bunu həm əyani materiallardan, həm də öz namizədliyini irəli sürmüş siyasi təşkilatların nümayəndələri ilə ünsiyyətdə olanda görmək mümkündür. Artıq səhər saatlarından insanlar həvəslə, fəal həyat mövqeyi ilə seçkilərə səs verməyə hazırlaşıblar.



**Dmitri Kobitski,**
*Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyası Şurasının baş katibi:*

- Məntəqələr açılandan səsvermə prosesinin gedişatını müşahidə edirik. Hələlik heç bir qanun pozuntusu müəyyən etməmişik. Biz, o cümlədən hər hansı pozuntunun olmadığını təsdiqləyən müşahidəçilər bu qənaətdədir. Azərbaycan Mərkəzi Seçki Komissiyası tərəfindən seçki kampaniyası çox layiqli səviyyədə təşkil olunub. Biz bunu Azərbaycanda seçkilər zamanı ilk dəfə deyil ki, təsdiqləyirik. 40 nəfərdən ibarət missiyamız kifayət qədər çoxlu sayda seçki məntəqəsinə baş çəkəcək. Axşam biz nəticələrə yekun vuracağıq, monitorinq qrupumuzu toplayaraq təəssüratları bölüşəcəyik və yekun nəticəmizi hazırlayacağıq. İlkin nəticələri bazar ertəsi mətbuat konfransında açıqlayacağıq. Amma biz onları yalnız Konstitusiya Məhkəməsi rəsmi şəkildə seçkiləri baş tutmuş saydıqdan və nəticələri təsdiq etdikdən sonra rəsmən elan edə biləcəyik. Biz Azərbaycanda seçki prosesinin təşkilindən çox razıyıq. Hər şey ən yüksək səviyyədə demokratik standartlara uyğundur, ona görə də bu gün bizim seçki prosesi ilə bağlı heç bir iradımız yoxdur.

Azərbaycanda keçirilən parlament seçkilərində gənclər yüksək fəallıq nümayiş etdirirlər. Partiyalarla, onların qərargahları ilə, ayrı-ayrı namizədlərlə ünsiyyətdə olanda görürük ki, partiya siyahılarında çoxlu sayda gəncin adı var. Biz gənclərin fəallığını seçki məntəqəsində müşahidə edirik. Azərbaycanda gənclər siyasətə yüksək maraq göstərirlər. Biz bunu fevralda keçirilən prezident seçkiləri zamanı da gördük. Sizin çox fəal gəncləriniz var.




**Petar Kanev,**
*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) vitse-prezidenti:*

- Azərbaycanda parlament seçkilərinin təşkilatçılıq səviyyəsi heyranedicidir. Bu, Azərbaycana ilk səfərim deyil və hər dəfə burada təşkilatçılıq səviyyəsinin yüksəkliyindən təsirlənirəm. Bu gün 8 seçki məntəqəsini ziyarət etdik və seçicilərin iştirakının sabit olduğunu müşahidə etdik. Günün sonunda iştirakın yüksək olacağına əminəm. Gələcək parlament üzvlərinə, əlbəttə ki, bütün Azərbaycan xalqına uğurlar arzulayıram.




**Arslanbek Malıyev,**
*Qırğızıstan parlamentinin üzvü:*

- Parlament seçkiləri kifayət qədər yüksək səviyyədə keçirilir. Burada bütün partiyaların fəallığı müşahidə olunur. Seçicilərin rahat şəkildə səs verə bilmələri üçün mümkün olan bütün şərait yaradılıb. Respublikanın bütün vətəndaşları sərbəst şəkildə səs verə bilərlər. Onlar üçün heç bir maneə yoxdur.




**Zaur Darğalı,**
*Gürcüstan parlamentinin deputatı:*

- Seçici aktivliyi əhalinin Azərbaycan dövlətinə, liderinə dəstəyini nümayiş etdirməsinin göstəricisidir. Bu gün səhər saatlarından 10-a yaxın seçki məntəqəsini müşahidə etmişik. Seçkilər çox yüksək səviyyədə təşkil olunub. Seçicilərin aktivliyi diqqət çəkir. Biz artıq Azərbaycanda ikinci seçkidir ki, müşahidəçi kimi iştirak edirik. Seçki fəallığı əhalinin, vətəndaşların öz dövlətinə və gələcəyinə önəm verdiyini göstərir. Bu cür hallar ölkənin güclənməsi üçün çox önəmlidir.

# şəffaf və demokratik keçdiyini bəyan etdilər

## qurumdan və 69 ölkədən 598 müşahidəçi izləyib

Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanda ərazi bütövlüyü bərpa olunduqdan sonra ilk dəfə parlament seçkiləri keçirilir. Bu isə bölgəmizdə sülhün bərpa olunması baxımından böyük və müsbət haldır".



**Naike Gruppioni,**
*İtaliya parlamentinin müşahidəçisi:*

- Azərbaycanda parlament seçkiləri qanunlara uyğun keçirilir. Seçki məntəqələrində səhərdən bəri müşahidə aparıram və nəticələrdən çox razıyam. Seçki komissiyaları çox yüksək səviyyədə işləyir. Parlament seçkiləri aktiv keçir. Pozuntular yoxdur və səsvermə prosesi şəffaf şəkildə baş verir. Bütün vətəndaşlara səs vermək imkanı yaradılır.



**İoane Tupou Navaykula,**
*Qoşulmama Hərəkatının Gənclər Təşkilatının Ficidən olan müşahidəçisi:*

- Qoşulmama Hərəkatının Gənclər Təşkilatından olan müşahidəçilər missiyası iki seçki məntəqəsində olub və gənclərin fəal iştirakı onları heyran edib. Gənclərin səsi çox önəmlidir. Azərbaycanda keçirilən parlament seçkilərində müşahidəçi olmaq çox maraqlıdır.



**Leonid Anfimov,**
*Müstəqil Dövlətlər Birliyinin (MDB) müşahidə missiyasının rəhbəri:*

- Azərbaycanda beynəlxalq müşahidəçilərə parlament seçkilərini izləmək üçün bütün şərait yaradılıb. Mərkəzi Seçki Komissiyası beynəlxalq müşahidəçilərə missiyalarını həyata keçirmələri üçün nə lazımdırsa edib. Missiyamız əsasən daxili qanunvericiliyə və seçkiləri tənzimləyən beynəlxalq normalara riayət edilməsinə diqqət yetirir. Seçki məntəqələrində müşahidəçilər tərəfindən ciddi pozuntular və ya şikayətlər qeydə alınmayıb, bu isə seçki prosesinin müəyyən edilmiş standartlara uyğun keçdiyini göstərir. Müxtəlif yaş qruplarının seçkilərdə iştirakı da xüsusi diqqət çəkir. Məni maraqlandıran odur ki, insanlar seçimlərini nə qədər şüurlu şəkildə edir. Danışdığımız, demək olar ki, bütün insanlar artıq namizədlərini müəyyənləşdiriblər ki, bu da seçki prosesinin yetkinliyini göstərir.



**Lamin Sanne,**
*Qambiyalı müşahidəçi:*

- Seçkilərdəki şəffaflıq hökumətin ölkədə demokratiyanı necə möhkəmləndirdiyini göstərir. Milli Məclisə növbədənkənar seçkilərdə səsvermə prosesi yüksək səviyyədə təşkil olunub, vətəndaşların öz iradəsini azad ifadə etməsi üçün hər cür şərait yaradılıb.

Seçicilər seçki məntəqələrinə gedir və sərbəst şəkildə səsvermə hüquqlarından istifadə edirlər. Prosesin təşkilinə gəlincə, gördüklərim məni təsirləndirdi. Bu gün vətəndaşlar parlamentdə kimi görmək istədiklərinə qərar verirlər.



**Sergey Xomenko,**
*Belarus Respublikası Milli Məclisi Respublika Şurasının sədr müavini:*

- Bu gün Azərbaycanda əsl bayramdır. Artıq partiyaların nümayəndələri, hüquq ictimaiyyəti, tələbələr və hərbçilərlə ünsiyyət qura bilmişəm. Onların hamısı Azərbaycan Milli Məclisinə seçkilərlə bağlı hər bir Azərbaycan Respublikası vətəndaşının üzərinə düşən məsuliyyəti dərk edərək, bu günü xalqın iradəsinin səmimi ifadəsi günü kimi gözləyirmiş. Bu məsuliyyət dərəcəsi kontekstində hər kəs deyirdi ki, Azərbaycanın əsl vətənpərvərləri parlamentdə təmsil olunmalıdır. Biz indi hərbi əməliyyatlardan sonra bərpa olunan ərazidəyik. Qarabağ torpağında olan tərəqqi göz qabağındadır. Biz hazırda gözəl məktəb binasındayıq, axı təhsil ocağı respublikanın gələcəyinin formalaşdığı yerdir. Belə bir binada olan vətəndaşlar dövlətin onlara qayğı göstərdiyini, millət vəkillərinin isə xalqın iradəsinin əsl bələdçiləri olduğunu daim xatırlayacaq. Biz təşkilatçılığın perspektivli dərəcəsini görürük. Baş çəkdiyimiz bütün seçki məntəqələri Azərbaycan Seçki Məcəlləsinə uyğun avadanlıqla təchiz olunub, ictimai asayiş təmin edilib. Bakıdan Füzuliyə qədər bütün yolboyu insanların bayram əhvali-ruhiyyəsini, istənilən dövlətdə seçki günü hökm sürməsi lazım olan nizam-intizamı müşahidə etdik.



**İrakli Kadaqişvili,**
*Gürcüstan parlamentinin üzvü, beynəlxalq müşahidəçilərdən ibarət nümayəndə heyətinin rəhbəri:*

- Nümayəndə heyətimiz səhər saatlarından 8 seçki məntəqəsində olub. Deyə bilərik ki, seçkilər sakit, mütəşəkkil şəraitdə keçirilir. Prosesdə heç bir ciddi pozuntu müşahidə etmədik. Seçkilər həmişə olduğu kimi, mütəşəkkil davam edir və ümidvarıq ki, günün sonunadək səs vermək istəyən hər kəs bu imkandan istifadə edəcək. Əlbəttə, bu, öz ərazi bütövlüyünü bərpa etdikdən sonra Azərbaycanın həyatında baş verən mühüm prosesdir, çünki seçkilər ölkənin bütün suveren ərazisində keçirilir. Prezident seçkiləri kimi, parlament seçkiləri də Azərbaycan xalqını bir daha birləşdirdi.



**Kılıç Filiz,**
*TÜRKPA-nın müşahidəçilər qrupunun üzvü:*

- Biz burada TürkPA-nı təmsil edirik. Səhər Bakıda məntəqələrin açılışını izlədik. Prosesin qaydalar çərçivəsində aparıldığını müşahidə etdik. Sonra da nümayəndə heyətimizlə birgə Qobustana və Şamaxıya gəldik. Hazırda Şamaxıda seçkiləri müşahidə edirik. Seçicilərin və məntəqə əməkdaşlarının səsvermə prosesindən, onun gedişatından məmnun olduqlarını gördük. Seçkilər şəffaf təşkil olunub. Şamaxı önəmli bir şəhərdir. Burada "Türk şəhidliyi" abidəsini də ziyarət etdik. Mən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Bu seçkilərin də Azərbaycan xalqına və dövlətinə, türk dünyasına xeyirli, uğurlu olmasını arzulayıram.



**Corc Birnbaum,**
*ABŞ-nin "Oracle Advisory Group" təşkilatının nümayəndəsi:*

- Təşkilatımız 2013-cü ildən başlayaraq Azərbaycanda keçirilən seçkiləri müşahidə edir. Azərbaycanda həmişə yüksək seçki fəallığının şahidi olmuşuq. Bu il ölkədə keçirilmiş növbədənkənar prezident və indiki parlament seçkiləri özündə əsl vətənpərvərliyi əks etdirir. Biz hazırda yüksək seçki fəallığı müşahidə edirik. Seçki prosesi maneəsiz keçir. Azərbaycanda yüksək seçki fəallığını müşahidə etmək olduqca heyranedicidir.



**Vladimir Kreydenko,**
*Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri:*

- İndiyə qədər 6 seçki məntəqəsində olmuşuq və müşahidələrimizə əsasən, deyə bilərik ki, Azərbaycanda keçirilən parlament seçkiləri beynəlxalq standartlara uyğundur. Seçki prosesi üçün zəruri olan hər şey yüksək səviyyədə təmin edilib. Əsas məsələ odur ki, müşahidəçilər üçün lazımi şərait yaradılıb və onların prosesi yaxından izləməsi üçün heç bir maneə yoxdur. Onu da qeyd edim ki, Azərbaycanda keçirilən seçkilərdə bir vacib məqam var. Bir çox ölkədən fərqli olaraq, Azərbaycanda seçicilərin barmağına mürəkkəb vurulur ki, bu da seçki saxtakarlığının qarşısını alır, bir vətəndaşın ikinci dəfə səs verməsini mümkünsüz edir. Bu, təqdirəlayiq haldır. Azərbaycan xalqına arzulayıram ki, layiqli namizədlərini seçsin və seçiləcək hər bir deputat da, öz növbəsində xalqa töhfəsini versin.



**Yakob Eyeru,**
*Qoşulmama Hərəkatının Gənclər Təşkilatının üzvü:*

- Seçki prosesinin gedişindən razı qaldım. Səsvermə kifayət qədər şəffaf keçirilir.

Azərbaycanda növbədənkənar parlament seçkiləri ilə bağlı seçki prosesi demokratik norma və qaydalara uyğundur.



**David Matikaşvili,**
*Gürcüstan parlamentinin GUAM təşkilatının demokratiya və iqtisadi inkişafı üzrə nümayəndəsi:*

- Bu parlament seçkiləri Azərbaycan üçün tarixi əhəmiyyət daşıyır, çünki ilk dəfə ölkə üzrə bütün ərazidə keçirilir. Biz GUAM-ın parlamentlərarası nümayəndə heyətini təmsil edirik. Bu təşkilat dörd ölkəni birləşdirir: Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova. Biz Gürcüstan tərəfini təmsil edirik. Bu parlament seçkiləri Azərbaycanın tarixində əhəmiyyətli bir mərhələdir, çünki seçki prosesi ölkə üzrə bütün ərazidə baş tutur. Təxminən 5-6 seçki məntəqəsini ziyarət etdik və seçkilərin sabit və problemsiz keçirildiyinin şahidi olduq. Heç bir ciddi pozuntu qeydə almamışıq. Qardaş Azərbaycan xalqına və bu demokratik proses əsasında seçiləcək yeni parlamentə uğurlar arzulayıram.



**Firudin Rəcəbov,**
*Dağıstan Xalq Məclisinin deputatı:*

- Milli Məclisə keçirilən növbədənkənar seçkilərlə bağlı Müstəqil Dövlətlər Birliyi Parlamentlərarası Assambleyasının beynəlxalq müşahidəçiləri Xaçmaz rayonunda da seçki prosesini izləyirlər. 57 saylı Xaçmaz şəhər və 58 saylı Xaçmaz kənd seçki dairələrinə daxil olan məntəqələrdə seçki prosesini müşahidə etdik. Hər yerdə seçkilər mükəmməl təşkil edilib. Hər şey qaydasındadır. Çox normal seçki keçir. Yerli müşahidəçilər də hər hansı qayda pozuntusu olmadığını bildirirlər. Hər kəs istədiyi namizədə sərbəst səs verir.



**Jivota Starçeviç,**
*Serbiya Milli Assambleyasının üzvü:*

- Azərbaycan parlamentinə keçirilən növbədənkənar seçkilər son dərəcə yüksək demokratiya şəraitində təşkil olunub. Təmsil etdiyim missiyanın qənaətinə əsasən, Azərbaycandakı parlament seçkilərinin növbədənkənar keçirilməsi həm yerli, həm də beynəlxalq qanunvericiliyə müvafiqdir.

Bu gün səhər Bakıda bir neçə məntəqədə müşahidə aparmaq imkanım olub. Bildirmək istəyirəm ki, Azərbaycanda seçki prosesi yüksək demokratiya şəraitində təşkil olunub. Bilirsiniz ki, Azərbaycanda budəfəki seçkilər növbədənkənar keçirilir. Bu da qanunvericiliyə tamamilə uyğundur. İstər yerli, istərsə də beynəlxalq müşahidəçilərin səsvermə prosesini izləməsi üçün beynəlxalq qanunvericiliyə uyğun şəkildə şərait yaradılıb. Mən bunlardan çox məmnunam.



**Ditmir Buşati,**
*ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) seçki müşahidə missiyasının rəhbəri:*

- ATƏT/DTİHB-nin müşahidəçiləri növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün dəvət edilib. Biz burada olduğumuz dövrdə həm iqtidar, həm müxalifət nümayəndələri ilə, eyni zamanda QHT-lər, KİV nümayəndələri ilə də görüşlərimiz olub. Məqsədimiz ölkədəki siyasi mühiti daha yaxşı müşahidə etməkdir. Sizi tam əmin edirəm ki, müşahidə etdiyimiz hər bir məqam hesabatda əks olunacaq. Beynəlxalq müşahidəçilərimiz bütün regionlarda işlərini davam etdirirlər.



**Nurlan Kolçukeyev,**
*Qırğızıstan Mərkəzi Seçki Komissiyasının sədr müavini:*

- Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərində seçicilərin aktiv olması çox sevindirici haldır. Müstəqil Dövlətlər Birliyinin xətti ilə Azərbaycanda keçirilən parlament seçkilərini monitorinq etmək üçün dəvət edilmişik. Müşahidə etdiyimiz bütün məntəqələrdə insanlar seçki qutusunun başına gəlir və aktiv səs verirlər. Onlar öz konstitusiya hüquqlarından istifadə edərək öz seçimlərini edirlər. Seçki ölkənin siyasi həyatında çox vacib məsələdir və insanların seçkidə kütləvi şəkildə fəal iştirak etməsi çox sevindirici haldır.

Müşahidə etdiyimiz bütün məntəqələr lazımi avadanlıqlarla təchiz edilib və dünya standartlarına tam uyğundur. Bütün seçki məntəqələrində seçici siyahıları yerləşdirilib və hər seçici bu siyahılarda öz adlarını tapa bilər. Seçki məntəqələrində istər partiya nümayəndələri, istərsə də bitərəflərin müşahidə kimi təmsil olunması, hər bir seçicinin səsvermə zamanı şəffaf mürəkkəbdən istifadə etməsi bu seçkilərin şəffaf keçirilməsinin göstəricisidir.

Seçki məntəqələrində çox xoş əhvali-ruhiyyə mövcuddur. Gördüklərimiz bizə deməyə əsas verir ki, seçkilərdə hər hansı saxtakarlıq hallarının olması mümkün deyil.



**Mukaş İskandirov,**
*TÜRKPA-nın müşahidəçilər qrupunun tərkibində olan Qazaxıstan parlamentinin deputatı:*

- Biz əvvəlcə Bakıdakı seçki məntəqələrinin açılışlarında iştirak etdik. Sonra Qobustana gəldik. Hazırda isə Şamaxıda seçkiləri müşahidə edirik.

Əvvəla, mən bütün Azərbaycan xalqını təbrik edirəm. İnanıram ki, bu seçkilər uğurla keçəcək. Seçkilərin Azərbaycan xalqı üçün xeyirli olacağına ümid edirəm. Bütün namizədlərə uğurlar arzulayıram.



**Səbuhi Temirov,**
*Demokratiya və iqtisadi inkişaf üzrə GUAM təşkilatının nümayəndəsi:*

- Azərbaycanda parlament seçkiləri üçün ideal şərait yaradılıb. Tarixi bir an yaşanır və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm, çünki seçkilər ölkənin bütün ərazisində keçirilir. Mənim fikrimcə, müasir demokratik standartlara uyğun əla şərait yaradılıb. Bütün seçicilər öz seçimini sərbəst şəkildə edə bilirlər. Partiyalardan və müstəqil namizədlərdən olan müşahidəçilər məntəqələrdədirlər. Ümumilikdə seçkilər çox yaxşı təşkil edilib və bütün müasir demokratik tələblərə cavab verir.



**Tolibjon Madumarov,**
*Özbəkistan parlamentinin deputatı:*

- Azərbaycan vətəndaşları kimə səs verəcəklərini yaxşı bilirlər. Müstəqil Dövlətlər Birliyinin (MDB) Parlament Assambleyasının (PA) beynəlxalq müşahidəçilər qrupunun tərkibində Azərbaycana gəlmişəm. Seçki prosesi məntəqələrdə qanuna uyğun şəkildə həyata keçirilir. Biz seçicilərlə söhbət etdik - onlar namizədləri tanıyırlar, kimə səs verəcəklərini bilirlər. Vətəndaşlar yaxşı məlumatlıdırlar və seçkilərin əhəmiyyətini dərk edirlər.



**Rado Fonda,**
*İtaliyanın "SWG S.P.A" tədqiqatlar şirkətinin nümayəndəsi:*

- Azərbaycanda birinci dəfədir ki, "exit-poll" keçiririk. Biz Naxçıvan Muxtar Respublikasından başqa, ölkə daxilində 119 seçki məntəqəsində müşahidə missiyası həyata keçiririk. Təmsil etdiyim şirkət siyasi və sosioloji tədqiqatlarla məşğuldur. Biz İtaliyada və digər xarici ölkələrdə "exit-poll" keçirməklə məşğuluq. Azərbaycanda apardığımız müşahidələrimizə əsasən, seçki prosesi maneəsiz keçir.



**Aleksandr Jukov,**
*MDB Seçki Müşahidə Şurasının üzvü:*

- Seçki prosesi normal keçir. Vətəndaşlar istədikləri namizədə sərbəst səs verirlər. Heç bir qanun pozuntusu müşahidə etmədim. Seçki çox yaxşı təşkil edilib. Komissiya üzvləri öz işlərinə böyük məsuliyyətlə yanaşırlar.



**İqor Xalin,**
*Rusiya Federasiyası Tümen vilayəti Seçki Komissiyasının sədri:*

- Mən Rusiya Federasiyasının Tümen vilayətindən Müstəqil Dövlətlər Birliyinin missiyasını təmsil edirəm. Cümə günündən Azərbaycandayıq. Bu müddət ərzində biz MDB missiyasının qərargahında görüş keçirməyə nail olmuşuq, sorğu vərəqələri, seçki məntəqəsində necə işləmək barədə tövsiyələr almışıq və Lənkəran şəhərində fəaliyyət göstəririk. Biz çox dəqiq və mütəşəkkil işləyən seçki məntəqələrini görə bildik. Bu gün seçki məntəqələrinin açılışında olduq və gün ərzində 10-a yaxın seçki məntəqəsində müşahidələr apardıq. İnsanlar istəklə, xoş əhvali-ruhiyyə ilə səsverməyə gəlirlər. Gizli səsverməyə riayət olunur.



**Vlada Qalan,**
*ABŞ-nin "ORACLE ADVISORY GROUP" təşkilatının nümayəndəsi:*

- İndiyədək seçki prosesinə maneə yaradan heç bir halla qarşılaşmamışıq və ümid edirik ki, günün sonuna qədər belə davam edəcək. Azərbaycana - Bakıya təkrar səfər etməkdən çox məmnunuq. Biz artıq 7-ci dəfədir burada seçkiləri müşahidə edirik. Daha əvvəllər hətta referendum seçkilərində iştirak etmişik.

Bizim komandamız Azərbaycanda 2013-cü ildən bəri çalışır. Komandamız bir aydır ki, "exit-poll"un təşkili məsələləri ilə məşğuldur. Bu seçkilərlə əlaqədar 875 məntəqədə "exit-poll" aparmışıq və 21 mindən çox respondentin fikirlərini almışıq. Hər məntəqədə iki əməkdaşımız var. Bu günün sonunadək müsahiblərimizin sayını 63 minə çatdırmağı düşünürük.



**Nur Cahan Bin Mohamed,**
*Malayziya parlamentinin nümayəndəsi:*

- Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil edilib. Mən ikinci dəfədir ki, Azərbaycanda seçkiləri müşahidə edirəm. İlk dəfə 2024-cü ilin fevral ayında prezident seçkiləri zamanı burada olmuşam. Mənim müşahidələrimə görə, parlament seçkiləri çox fəal şəkildə keçirilir. Seçki prosesi sabit keçir və heç bir qanun pozuntusu qeydə alınmayıb. Ümid edirəm ki, Azərbaycan xalqı seçkilərin nəticələrindən qürur duyacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Keçmiş məcburi köçkünlərin zəfər seçkisi




**"Allahın bu gününə şükür! Ölkəmizdə torpaqlarımızın azadlığı, suverenliyimizin bərpası şəraitində artıq ikinci seçkiləri keçiririk. Yurd həsrətimizə son qoyan, adımızın qarşısından məcburi köçkünlük sözünü götürən Müzəffər Lider İlham Əliyevə bu il fevralın 7-də - prezident seçkilərində yekdilliklə səs verdik. Bu, yurdundan didərgin düşən insanlarımızın cənab İlham Əliyevə minnətdarlığı idi. Bu gün də bir vətəndaş, keçmiş məcburi köçkün olaraq ilk işim seçki məntəqəsinə gələrək deputatlığa layiq bildiyim namizədə səs vermək oldu".**



## "Məcburi köçkün kimi yox, bütöv Azərbaycanın vətəndaşı olaraq səs verməkdən qürur duyuruq"

### Zəngilanlı seçicilər yenə də fəal idilər

125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 6 saylı seçki məntəqəsində 76 yaşlı seçici Şahbaz Quliyev söylədi bu fikirləri.

Zəngilan şəhərində doğulan və oranı tərk edən zaman cəmi 43 yaşı olan seçici bildirdi ki, hər zaman ürəyində doğma yurduna qayıdacağı ilə bağlı böyük inam olub: "İndi yeddi nəvəmlə birlikdə Zəngilana qayıdacam, ömrümün sonuna qədər orada yaşayacam... Bütün bunlar biz keçmiş məcburi köçkünlər üçün xoşbəxtlikdir. Buna görə də ölkəmizin bütün ərazilərində keçirilən seçkiləri böyük sevinc, coşqu ilə qarşılayırıq. İnşallah, növbəti seçkilərdə artıq Zəngilanda səs verəcəm..."



















**"Tarixi günlərə şahidlik edirik"**

2024-cü il sentyabrın 1-i Azərbaycan tarixinə əlamətdar gün kimi həkk olundu. Ölkəmizdə ilk dəfə olaraq Qarabağ və Şərqi Zəngəzurda parlament seçkiləri keçirildi. Onilliklərdən sonra yurdlarına qovuşan keçmiş məcburi köçkünlər Milli Məclisdə onları təmsil edəcək deputatlarına səs verdilər.

Biz də "Azərbaycan" qəzetinin nümayəndəsi olaraq sözügedən tarixdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 6 saylı seçki məntəqəsində olduq, səsvermə prosesini izlədik, keçmiş məcburi köçkün seçicilərlə söhbət etdik. Müvəqqəti olaraq Bakıda məskunlaşmış və çox tezliklə isti od-ocaqlarına qovuşacaq bu vətəndaşlarımızın qayıdışla bağlı sevinc hisslərini bölüşdük.

Məntəqədə səs verdikdən sonra həmsöhbət olduğumuz 46 yaşlı Elnur Cəbrayılov qeyd etdi ki, parlamentdə onları layiqli şəkildə təmsil edəcəyini hesab etdiyi namizədə səs verib: "Artıq Zəngilanın Ağalı kəndində, ümumiyyətlə qayıdış olan şəhər və kəndlərimizdə də seçkilər keçirilir. İnsanlarımız öz dədə-baba yurdlarında seçkilərdə iştirak edərək səs verirlər. Biz bu seçkilərin timsalında tarixi günlərə şahidlik edirik".

Zəngilanlı Məhərrəm Quliyev də deyir ki, seçki bülletenində güvəndiyi namizədi işarələyib: "Çox istərdim ki, seçdiyim namizəd qələbə qazansın. Buna görə də səsvermənin ilkin nəticələrinin açıqlanacağı vaxtı səbrsizliklə gözləyirəm".

M.Quliyev vurğulayır ki, daha məcburi köçkün kimi yox, bütöv Azərbaycanın vətəndaşı olaraq səs verməkdən qürur duyurlar.

**Növbəti seçkilərdə Qarabağda, Şərqi Zəngəzurda görüşmək ümidi ilə...**

Məntəqə seçki komissiyasının sədri Alı Əliyev məlumat verdi ki, ərazi üzrə 786 seçici var. Seçki məntəqəsi lazım olan bütün vəsaitlə təmin olunub. Seçicilər sərbəst və rahat şəraitdə istədikləri namizədə səs verirlər. Komissiya sədri söylədi ki, səhər saatlarından etibarən seçicilər fəallıq nümayiş etdirməyə başlayıblar və həvəslə gəlib səs verirlər.

Könüllü müşahidəçi 19 yaşlı Fateh Əsədbəylinin də seçki prosesi ilə bağlı fikirlərini öyrəndik: "Birinci dəfədir ki, seçkidə müşahidəçi qismində iştirak edirəm. İlk anlarda bir az həyəcanlı idim, amma bu hissim tədricən ötüb keçdi. Bu mənim üçün həm böyük məsuliyyət, həm də böyük təcrübədir. Hazırkı vaxta qədərki müşahidələrimə əsasən deyə bilərəm ki, seçki şəffaf şəkildə irəliləyir. Seçicilər azad və demokratik şəraitdə səs verirlər".

Müşahidəçi xüsusi vurğuladı ki, seçicilərin fəallıqla və böyük ruh yüksəkliyi ilə seçkidə iştirak etmələrinin xüsusi əhəmiyyəti var. Daha sonra Zəngilandan olan 38 yaşlı Vüqar Heydərov və həyat yoldaşı 38 yaşlı Şəhrəbanu Heydərova bizimlə seçki təəssüratlarını bölüşdülər. Onlar etibar etdikləri namizədə səs verdiklərini və onun qalib gələcəyinə böyük ümid bəslədiklərini bildirdilər. Düşünürlər ki, səs verdikləri namizəd onları Milli Məclisdə layiqincə təmsil edə bilər.

Heydərovlar qürurla onu da bildirdilər ki, bu yaxınlarda Zəngilana gedərək doğma torpaqlarını ziyarət ediblər. Birinci sinifdə oxuyarkən məcburi köçkün düşən Vüqar Heydərov dedi ki, illərdir xatirələrində yaşatdığı ata yurdunu yenidən gedib görmək, qızlarını doğma yerlərlə tanış etmək həyatındakı ən böyük xoşbəxtlik olub: "İlahi ədalət öz yerini tapdı. Müzəffər Liderimiz İlham Əliyevin müdrik siyasəti, qəhrəman oğullarımızın şücaəti sayəsində ərazilərimiz işğaldan azad edildi. Azərbaycanın suverenliyi təmin olundu. İndi bütün bayramlarımız, xoş günlərimiz olduğu kimi, seçkilərimiz də bütün Azərbaycan ərazilərində keçirilir. Artıq işğaldan azad edilən ərazilərimizdə soydaşlarımız səs verirlər".

Ümumiyyətlə, məntəqədə həmsöhbət olduğumuz seçicilərin səs verdikləri namizədlər fərqli olsa da, onların hamısının istəyi, arzusu ümumi idi: tezliklə qayıdış köçləri ilə yurdlarına dönmək və qarşıdakı seçkilərdə öz el-obalarında səs vermək...

Artıq gün günortanı keçir, məntəqəyə gəlib səs verən seçicilərin sayı isə durmadan artırdı. Keçmiş məcburi köçkünlər həvəslə bir-bir səsvermə kabinələrinə girib seçdikləri namizədə səs verir, biz isə Zəngilanda, Qubadlıda - Qarabağ və Şərqi Zəngəzurda keçiriləcək növbəti seçkilərdə yenidən görüşmək ümidi ilə onlardan ayrılırıq...

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

## Cəbrayıllılar inamlıdırlar



**30 il doğma yurdlarından didərgin düşən soydaşlarımızın seçki prosesində iştirakını izləmişəm. Hər dəfə doğma torpaqlara qayıdacağı ümidi ilə səsvermədə iştirak edirdilər.**



"İnşallah növbəti seçkidə doğma yurdlarımızda səs verərik" deyirdilər. Bu dəfə ümidlə yox, inamla bu sözləri təkrar edirdilər. Ona görə ki, doğma torpaqları düşmən işğalından azad olunub, dövlət onların doğma el-obalarına qayıtması üçün nəhəng layihələr icra edir.

Elşad Əsgərov Cəbrayıl rayonunun Soltanlı kəndindəndir. Kəndləri işğal altında olduğu üçün Bakıda məcburi köçkün kimi yaşamağa məcbur olub. Söhbət zamanı dedi: "Artıq həsrətimizə son qoyulub. Tezliklə doğma kəndimizə qayıdacağıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizin canı sağ olsun! Onların qəhrəmanlığı sayəsində torpaqlarımız erməni işğalından azad olundu. Bu qələbəni bizə yaşadan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevə minnətdarıq".

Elşad Əsgərov dövlətin erməni vandalları tərəfindən dağıdılan torpaqlarda hər cür şəraiti olan yaşayış məntəqələri saldığını bildirdi. Zümrüd Əsgərova da söhbətə qoşularaq dedi ki, tezliklə doğma el-obalarına qayıdıb, həyatlarına yenidən başlayacaqlar. İndi bunu səbirsizliklə gözlədiklərini söylədi.

Şükür Əliyev Cəbrayıl rayonunun Qumlax kəndindəndir. Dedi ki, hər dəfə ümidlə səs verirdim ki, doğma torpaqlarımıza qayıdacağam: "İndi arzularım çin olub. Tezliklə doğma kəndimizə qayıdıb yarımçıq qalan arzularımızı gerçəkləşdirəcəyik. Hər dəfə səs verəndə ümid edirdim ki, növbəti səsimi məcburi köçkün kimi qürbətdə deyil, doğma kəndimdə verəcəyəm. Çox şükürlər olsun ki, gələn seçkidə Cəbrayılda - doğma Qumlax kəndində səs verəcəyəm. Bizə bu sevinci bəxş edən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Cənab İlham Əliyevin bizə göstərdiyi qayğıya görə minnətdarlığımı bildirirəm. Tarixi qələbədən sonra doğma torpaqlarımızda daha yaxşı yaşamağımız üçün hər cür şəraiti olan abad yaşayış evləri tikilir. Dövlət başçısının bu qayğısı sayəsində biz qumlaxlılar da tezliklə daha abad olacaq kəndimizə qayıdıb, qalan ömrümüzü həsrətdən, nisgildən uzaq, sevinc içində yaşayacağıq.

120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin 2 saylı məntəqəsində görüşüb söhbət etdiyimiz insanları əvvəlki illərdə olduğu kimi kövrək ümidli deyil, inamlı gördüm. Bu güvənlik isə qazandığımız tarixi Zəfərin nəticəsi idi.

***Rüstəm KAMAL,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Qubadlıda yüksək seçki fəallığı qorundu

Erməni işğalından xilas olan Qubadlı sakinlərinin çoxu Sumqayıtda müvəqqəti məskunlaşıb. O səbəbdən 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 53 saylı məntəqəsi Sumqayıt şəhər 3-cü mikrorayonda Bəhmən Mehdiyev adına Qubadlı şəhər 2 saylı tam orta məktəbdə təşkil edilmişdir.

1484 nəfərin qeydə alındığı məntəqənin sədri Müşfiq Quliyev bizimlə söhbətində bildirdi ki, 16 müşahidəçi seçki prosesini izləyir. Müşahidəçilər seçki prosesində hər hansı qanun pozuntusu faktı ilə rastlaşmadıqlarını dedilər.

1929-cu ildə doğulan İlqar Quliyev: "Ötən 30 il bizə həsrət yaşatdı. 44 günlük müharibədə isə Ali Baş Komandan və cəsur oğullarımız bizə müzəffərlik və zəfər anlarını bəxş etdilər. İnşallah, yaxın illərdə hamı öz yurduna qayıdacaq. Biz ailəliklə qələbəmizə, zəfərimizə və gələcək işıqlı günlərə səs verdik. Allah bizə öz yurdumuzda səs verməyi qismət eləsin. Mən əminəm ki, tezliklə o günü də yaşayacağıq".

Dairənin 36 saylı məntəqəsi Sumqayıtın İnşaaçılar qəsəbəsində yerləşən İşıqlı kənd tam orta məktəbin binasında təşkil edilmişdir. Məntəqənin sədri Fərhad Yusifov bildirdi ki, rayonun bir neçə kəndinin əhalisini əhatə edən məntəqədə 1197 seçici qeydə alınmışdır. Səhər seçkiyə start veriləndən onlar bir-bir, iki-iki, ailəliklə gəlib səs verdilər. Sədr onu da bildirdi ki, məntəqə üzrə yaşlı nəslin bir nümayəndəsi səs verib. İlk dəfə səs verənlər isə 3 nəfərdir. Cavanların çoxu həqiqi hərbi xidmətdədir.

Seçkidə iştirak edən Elçin Rəhimov və İmdad Bəkirov dedilər ki, qubadlılılar həmişə seçkilərdə fəal olublar: "Bu gün də hər birimiz layiq bildiyimiz namizədə səs vermək üçün gəlmişik. Hər kəs öz inandığı namizədə səs verməklə vətəndaş borcunu yerinə yetirmişdir".

Məntəqədə hər namizədin müşahidəçiləri seçki prosesini izləyirdilər. 16 müşahidəçinin hamısı seçki gedişindən razı qaldıqlarını bildirdilər. Seçkiyə veb-kamera vasitəsilə də nəzarət edilirdi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Hadrutda seçicilər ruh yüksəkliyi ilə səs verdilər

İşğaldan azad olunmuş ərazilərdəki digər seçki məntəqələrində olduğu kimi, 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsinin Hadrut qəsəbəsində yaradılmış 92 saylı seçki məntəqəsində də səsvermə üçün lazımi şərait yaradılıb.



Məntəqə seçki komissiyasının sədri Raqil Əlizadə AZƏRTAC-a bildirib ki, seçicilər səhər saatlarından etibarən seçki məntəqəsinə gəlir, öz konstitusion hüquqlarından istifadə edirlər. Hər bir seçicidə ruh yüksəkliyi müşahidə edilir. Seçki prosesini 14 yerli müşahidəçi izləyir.

124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi üzrə 46 və 47 saylı məntəqələr Şuşa şəhərində, 92 saylı məntəqə Xocavənd rayonu Hadrut qəsəbəsində, 93 saylı məntəqə Xocavənd rayonu Böyük Tağlar kəndində təşkil edilib.

# Xalq suveren Azərbaycanın yeni parlamentini seçdi







## GƏNCƏ

Şəffaf və demokratik şəraitdə seçki keçirmək ənənəsinə sadiq qalan gəncəlilər üçün dünən keçirilən növbədənkənar parlament seçkiləri də istisna olmadı. Bu seçkilər də onu göstərdi ki, xalqımız, o cümlədən Gəncə seçiciləri belə məsuliyyətli seçkilərdə özünün əsl iradəsini nümayiş etdirməyi bacarır. Məntəqələrdə yaradılmış şərait, seçkilərin demokratik şəraidə keçirilməsi üçün beynəlxalq təcrübənin tətbiqi söz yox ki, özünün müsbət nəticəsini verdi. Gəncə sakinləri yüksək fəallıqla seçki məntəqələrinə gələrək, öz vətəndaşlıq borclarını yerinə yetirdilər. Seçki məntəqələrinin qarşısında böyük izdiham yaşandı. Hamı ölkəmizin həyatında böyük əhəmiyyət daşıyan bu seçkilərdə öz vətəndaşlıq borcunu yerinə yetirmək üçün yaşadığı ərazidə yerləşən seçki məntəqəsinə gələrək istədiyi namizədə səs verdi.

38 saylı Gəncə I, 39 saylı Gəncə II, 40 saylı Gəncə III və 41 saylı Gəncə-Samux-Goranboy seçki dairələrini əhatə edən seçki məntəqələrinin demək olar ki, hamısında böyük canlanma yaşandı. 39 saylı dairənin 24, 25 və 31 saylı seçki məntəqəsində bunun bir daha şahidi olduq. Məntəqələr 29 nömrəli məktəbdə yerləşirdi. Burada seçkilərin tam şəffaf və demokratik keçirilməsi üçün hər bir şərait yaradılmışdı.

Səsverməda iştirak edən bir nəfər seçiciyə yaxınlaşdıq. Səidə Tağızadə özünü təqdim edərək seçkilərin tam şəffaf keçdiyini bildirdi. Dedi ki, mən səsimi ən layiq bildiyim namizədə verdim. Səsvermədə heç bir təzyiqlə rastlaşmadım.

## SUMQAYIT

Gənclər şəhəri Sumqayıt bugünədək ölkəmizdə keçirilən seçkilərdə həmişə mütəşəkkilliyi ilə seçilib. Əhalisinin sayı ilbəil artan Sumqayıt seçiciləri növbədənkənar parlament seçkilərində də fəallıq göstərdilər.

42 saylı Sumqayıt I seçki dairəsinin 16 saylı məntəqəsi 37 saylı şəhər tam orta məktəbində fəaliyyət göstərirdi. Sədr Ramil Niftəliyev bildirdi ki, məntəqədə 1100 seçici qeydə alınıb. Seçkiyə start veriləndən seçicilərin fəallığı müşahidə olundu. Seçicilər Mehriban Quliyeva, Günel Alıyeva və başqaları seçkinin gedişatından razı qaldıqlarını bildirdilər. Qahirə Allahverdiyevanın isə sevinci ikiqatdır. Dünən onun 18 yaşı tamam olurdu: "Mən məntəqəyə girəndə komissiya üzvləri məni ayaqüstə alqışladılar. İnanın ki, onda mən çox xoşbəxt anlar yaşadım".

15 nəfərin müşahidə apardığı məntəqədə seçki qaydalar çərçivəsində keçdi. Həmin məktəbdə yaradılan 17 saylı məntəqədə də seçicilər fəal idilər. Məntəqənin sədri Elgün Quliyev də bildirdi ki, iştirakla bağlı problem yoxdu: "Bunu 11 müşahidəçi də təsdiqləyə bilər".

Seçici Həmid Quliyev seçkinin gedişindən razı qaldığını bildirdi. Vurğuladı ki, hər bir azərbaycanlı kimi, o da qürur hissi ilə səs verib: "Ərazi bütövlüyümüz təmin olunduqdan sonra keçirilən ilk parlament seçkisində iştirakın özü qürur doğurur. Qalib dövlətimizə uğurlar diləyirik".

Sumqayıtda məskunlaşan Füzuli rayonundan olan məcburi köçkünlər də fəal idilər. Bunu 85 saylı Füzuli-Ağcabədi seçki dairəsinin 4 saylı məntəqəsində yaşanan qələbəlikdən görmək olardı. Məntəqədə seçkini 8 nəfər müşahidəçi izləyirdi. Gülanə Novruzova və Elmiyə Nəbiyeva vurğuladılar ki, seçki müddətində heç bir qanun pozuntusuna yol verilməyib.

Məntəqədə ilk dəfə səs verən Vüqar Feyziyev bildirdi ki, ölkəmiz artıq öz inkişafının yeni mərhələsini yaşayır: "Bunu hər bir vətəndaş görür. Əldə edilən uğurlar gələcəyə inam yaradır. Uşaqlığım Sumqayıtda keçib. Hazırda işğaldan azad edilən ərazilərdə quruculuq işləri aparılır. Əminəm ki, qismətimiz azad edilmiş torpaqlarımızda yaşayıb işləmək olacaqdır".

Seçici Ramiz İbrahimov da öz təəssüratını bizimlə bölüşdü: "Növbədənkənar parlament seçkiləri ölkəmizin inkişafında yeni səhifə açacaq və mən buna inanıram".

45 saylı Sumqayıt 4-cü seçki dairəsinin 1 saylı məntəqəsi Sumqayıt Dövlət Dram Teatrının binasında təşkil edilmişdir. Məntəqənin sədri Samir Şəfiyev bizimlə söhbətində bildirdi ki, seçki başlanandan fəallıq oldu.

Seçici Qızxanım Məmmədova 1929-cu ildə anadan olub. Qızxanım nənə məntəqəyə daxil olanda alqışlarla qarşılandı. O, hamıya cansağlığı arzuladı, bildirdi ki, çox seçkidə iştirak edib: "Amma bugünkü seçkiyə səhər tezdən nəvəmlə gəlməyi özümə borc bildim. Düşməni yıxdıq, torpaqları azad etdik, millətimiz öz yurduna qayıdır. Allah hər işdə ölkəmizə yardımçı olsun".

## LƏNKƏRAN

Lənkəran rayonunda 3 seçki dairəsi üzrə 132 seçki məntəqəsi fəaliyyət göstərirdi. Seçki günü ilk olaraq 76 saylı Lənkəran-Masallı seçki dairəsinin məntəqələrinə baş çəkdik.

Dairə komissiyasının sədri Cəmil Hüseynovun verdiyi məlumata görə, dairə üzrə 48 min 389 seçici qeydiyyata alınmışdır ki, bunlardan 42 min 551 nəfəri Lənkəran, 5 min 838 nəfəri isə Masallı rayonunun seçiciləri idi. 599 gənc ilk dəfə səsvermə hüququndan istifadə edirdi. Seçkilərin şəffaflığına nəzarət etmək üçün 5 seçki məntəqəsində veb-kamera quraşdırılmışdı. Seçkilərin demokratik və şəffaf keçirilməsi üçün hər cür şərait yaradılmış, bütün məntəqələr lazımi avadanlıqlarla təchiz edilmişdi.

Dairənin Rəfayil Ağayev adına Şağlaser kənd tam orta məktəbində yerləşən 25 saylı seçki məntəqəsində olduq. İdris Cəbrayılovun sədr olduğu və 1424 seçicinin qeydə alındığı məntəqədə səhər saatlarından seçici fəallığı hiss olunurdu. Seçki qutusuna ilk bülleteni salan kənd sakini, 85 yaşlı Səyadulla Əsgərov jurnalist olduğumu bilib fikirlərini qələmə almağımı xahiş etdi: "Mən Milli Məclisə keçirilən bütün seçkilərdə iştirak etmişəm. Həmişə də səsvermə siyasi fəallıq şəraitində keçib. Bu gün də seçici fəallığı qənaətbəxşdir. Həmkəndlilərim bu dəfə də öz mütəşəkkilliklərini, seçdikləri namizədlərə inamlarını nümayiş etdirirlər".

78 saylı Lənkəran kənd DSK rayonun Girdəni kəndində yerləşir. Dairə üzrə 53 seçki məntəqəsi fəaliyyət göstərir. 7 namizədin mübarizə apardığı dairənin əhatə etdiyi bütün məntəqələr zəruri texniki avadanlıqlarla təchiz olunmuşdu. Seçici siyahıları isə hamının tanış ola biləcəyi yerlərdən asılmışdı.

Dairənin 43 saylı seçki məntəqəsində olduq. Məntəqənin sədri Novruz Abdullayevdən öyrəndik ki, 1370 seçicidən 18-i ilk dəfə səs verənlərdir. Səsverməyə gəlmiş 73 yaşlı Ədalət Babayevlə həmsöhbət olduq. O, seçki məntəqəsində yaradılan şəraitdən, şəffaflıqdan razılıqla danışdı.

Müşahidə apardığımız növbəti ünvan 77 saylı Lənkəran şəhər DSK-nın 17 saylı seçki məntəqəsi oldu. Məntəqə sədri Yəhya Qafarov dedi ki, seçkilərin şəffaf və demokratik keçirilməsi üçün hər cür şərait yaradılıb: "Hər kəs seçkilərin şəffaf keçirilməsində maraqlıdır. Çünki bu gün səs verdiyimiz namizəd sabah Milli Məclisdə və başqa tribunalarda öz seçicilərini təmsil edəcək".

## SAMUX

Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə samuxlular da əsl fəallıq nümayiş etdirirdilər. 101 saylı Samux-Şəmkir seçki dairəsini əhatə edən bütün seçki məntəqələrində böyük canlanma müşahidə olundu. Rayon sakinləri dəstə-dəstə seçki məntəqələrinə gələrək bu siyasi kampaniyada fəal iştirak etdilər.

Qeyd edək ki, dairənin bütün məntəqələrində bu siyasi kampaniyaya ciddi hazırlıq işləri görüldüyündən seçkilər çox mütəşəkkil keçirdi. Dairəni əhatə edən 56 məntəqədən 9-da veb-kamera quraşdırılmışdı ki, bunun da sayəsində istənilən şəxs seçkilərin gedişini izləmək imkanı əldə edirdi. Bundan başqa, seçkiləri izləmək üçün qeydiyyatdan keçmiş 397 müşahidəçi üçün hər cür şərait yaradılmışdı. Hətta 3 məntəqədə fiziki aktivliyi olmayan seçicilər üçün pandusla da quraşdırılmışdı.

Dairənin sədri Bayram Qasımovla söhbət zamanı məlum oldu ki, bu siyasi kampaniyada yaşı 100-ü keçmiş 2 nəfər qeydə alınmışdır ki, onların da səsvermədə iştirakı üçün lazımi şərait yaradılmışdır.

Seçkilərin gedişini izləmək üçün Samux şəhərində yerləşən 2 saylı məntəqədə olduq. Burada çoxlu seçici var idi. Onlar səsvermə qaydalarına əməl etməklə növbə ilə namizədlərə öz münasibətlərini bildirirdilər. Sədr Əminə Cəfərova məlumat verərək bildirdi ki, məntəqədə 3 nəfər ilk dəfə səs verən, 2 nəfər isə yaşı 80-i ötmüş seçici qeydə alınmışdır: "İlk dəfə səs verənlərin 3-ü də səhər tezdən gələrək namizədlərə öz münasibətlərini bildirmişlər". Biz məntəqədə olarkən 90 yaşlı Ayaz Namazov səs vermək üçün bülleten götürürdü. Fürsət tapıb, seçkilərin gedişi ilə bağlı fikrini öyrəndik. Dedi ki, seçkilər çox yaxşı keçir, heç bir təzyiq yoxdur, hər kəs istədiyi namizədə səs verməkdə sərbəstdir.

## GÖYGÖL

Rayonda fəaliyyət göstərən 100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər seçki dairəsini əhatə edən seçki məntəqələrində də növbədənkənar parlament seçkilərinə ciddi hazırlıq işləri aparılmışdır. Dairəni əhatə edən 98 seçki məntəqəsinin 51-i Göygöldə, 44-ü Daşkəsəndə, 3-ü isə Kəlbəcərdədir. Seçkilərin şəffaf keçməsi üçün 13 məntəqədə veb-kamera quraşdırılmışdır.

Bütün məntəqələrdə böyük seçici izdihamı müşahidə olunurdu. Bunu rayon mədəniyyət evində yerləşən 1 saylı seçki məntəqəsində də müşahidə etdik. Burada məntəqə üzvlərinin hər bir seçiciyə diqqətlə yanaşmasının şahidi olduq. Məntəqənin sədri Cəmilə Vəliyeva dedi ki, seçkilər şəffaf keçir, müşahidəçilərin heç bir iradı yoxdur. Biz məntəqədə olarkən 80 yaşlı Vilayət Hacıyev də seçicilər arasında idi. O, böyük həvəslə səs verdikdən sonra üzünü hamıya tutaraq dedi ki, qoy indiki gənclər biz yaşlı nəsildən nümunə götürsünlər.

## GORANBOY

96 saylı Goranboy-Naftalan seçki dairəsini əhatə edən məntəqələrdə də seçici sıxlığı müşahidə olunurdu. Səhər tezdən oyanan rayon sakinləri seçki məntəqələrinə üz tutur, öz vətəndaşlıq borclarını yerinə yetirməklə istədikləri namizədə səs verirdilər.

Dairə seçki komissiyasının sədri Arif Abbasov seçkinin gedişi ilə bağlı məlumat verərək bildirdi ki, aparılan yüksək hazırlıq işlərinin nəticəsidir ki, məntəqələrdə seçici fəallığı müşahidə olunur. Onu da öyrəndik ki, dairəni əhatə edən 59 seçki məntəqəsinin 10-da veb-kamera quraşdırılmışdır. Bundan başqa, 510 nəfər müşahidəçi qeydiyyatdan keçmişdir.

Dairənin 4 saylı məntəqəsində olduq, müşahidəçilərlə söhbət etdik. Səsvermədə heç bir qanun pozuntusunun qeydə alınmadığını söylədilər.

## TOVUZ

Tovuzda 3 dairə - 105 və 106 saylı Tovuz, eləcə də 107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairələri fəaliyyət göstərir. Bu dairələri əhatə edən seçki məntəqələrinin hamısında seçkilərə geniş hazırlıq işləri görülmüşdür. Məntəqələr əsaslı şəkildə təmir olunmuş, elektrik generatorları və rabitə avadanlıqları ilə təmin edilmişdir.

105 saylı dairə üzrə 53 seçki məntəqəsi təşkil olunmuşdur. Onların 8-də veb-kamera quraşdırılmış, 600-dən çox yerli müşahidəçi qeydiyyatdan keçmişdir. Dairəni əhatə edən bütün məntəqələr zəruri avadanlıqlarla təmin edilmişdir.

106 saylı Tovuz seçki dairəsində də seçkilərə hazırlıq yüksək səviyyədə təşkil olunmuşdur. Dairənin sədri Azər Hacıyev görülən hazırlıq işləri ilə bağlı dedi ki, seçkilərin şəffaf və demokratik şəraitdə keçməsi üçün 41 məntəqənin 12-də veb-kamera quraşdırılmış, qeydiyyata alınmış 500-ə yaxın yerli müşahidəçi üçün xüsusi yer ayrılmışdır. Hər bir seçicinin sərbəst şəkildə məntəqəyə gəlib istədiyi namizədə səs verməsi üçün hər cür şərait yaradılmışdır.

107 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsində də yüksək hazırlıq işləri aparıldığından seçki prosesi mütəşəkkil keçdi. Dairənin sədri Fərman Qurbanov dedi ki, dairəni əhatə edən məntəqələrdə 1728 nəfər gənc ilk dəfə səs verməlidir. Yaşı 100-ü keçmiş isə 3 seçici qeydə alınmışdır.

Aşağı Öysüzlü kəndində yerləşən 1 saylı seçki məntəqəsində seçki prosesi çox mütəşəkkil gedirdi. Seçicilər növbə ilə seçki komissiyasının üzvlərinə yaxınlaşır, müvafiq prosedurdan keçərək istədiyi namizədə səs verirdilər. 96 yaşlı Abutalıb Mehdiyev də seçicilər arasında idi. Fürsətdən istifadə edib ona yaxınlaşdıq və seçkinin gedişi ilə bağlı fkrini öyrəndik. Dedi ki, seçkilər çox ədalətli keçir, istədiyim namizədə səs verdim.

## AĞSTAFA

Sentyabrın 1-də Milli Məclisə keçirilən seçkilərdə ağstafalılar da fəallıqla iştirak etdilər. Səhər tezdən seçki məntəqələrinə gələn rayon sakinləri aşkarlıq şəraitində istədikləri namzədə səs verməklə bu siyasi kampaniyada nümunə göstərdilər.

108 saylı Ağstafa dairə seçki komissiyasının sədri Tamerlan Eyyubov məlumat verərək dedi ki, 47 seçki məntəqəsinin 8-də veb-kamera quraşdırılmışdır. Bundan başqa, 964 nəfər yerli müşahidəçi qeydiyyatdan keçmşdir.

Onu da qeyd edək ki, uzunömürlülər diyarı olan Ağstafada çoxlu sayda yaşlı nəslin nümayəndəsi var. Onlardan biri də Gülüm Yusifovadır. Yaşının çox olmasına baxmayaraq o, məntəqədə səs vermişdir və yaşının bu vaxtında özünü idarə edərək seçki məntəqəsinə gəlib səs verə bilirsə, deməli xoşbəxtdir. Bu xoşbəxtliyi isə ona Azərbaycan dövləti verib. Ona görə bu dövlətin bütün siyasi kampaniyalarında fəal iştirak etmək onun borcudur.

Ümumiyyətlə, 108 saylı Ağstafa dairə seçki kimissiyasını əhatə edən seçki məntəqələrinin hansında olduqsa, seçici fəallığı vardı. Hamının yeganə istəyi ən layiqliləri Milli Məclisə seçmək idi.

## ŞƏMKİR

Növbədənkənar parlament seçkiləri 102 saylı Şəmkr şəhər və 103 saylı Şəmkir kənd seçki dairələrində də şəffaflıq və demokratik şəraitdə keçdi. Hazırlıq işlərinn MSK-nın tədbirlər planına uyğun olaraq vaxtında həyata keçirilməsinin nəticəsi idi ki, bu dairələri əhatə edən seçki məntəqələrində fəallıq yaşandı.

103 saylı Şəmkir kənd dairə seçki komissiyası rayonun Zəyəm qəsəbəsində yerləşir. Dairəni əhatə edən məntəqələrin 5-də veb-kamera quraşdırılmış, seçkiləri müşahidə etmək üçün 490 nəfər müşahidəçi qeydiyyata alınmışdır. Müşahidəçilərlə apardığımız söhbət zamanı məlum oldu ki, seçki prosesi zamanı heç bir qanun pozuntusuna rast gəlinməmişdir. Seçicilər sərbəst şəkildə məntəqələrə gələrək istədikləri namizədə səs vermişlər.

## GƏDƏBƏY

104 saylı Gədəbəy seçki dairəsini əhatə edən 53 seçki məntəqəsində ümumilikdə 48 min 878 nəfər seçici qeydiyyatdan keçmişdi. Seçki kampaniyası keçirməkdə müəyyən təcrübə toplamış gədəbəylilər bu dəfə də öz fəallıqlarını nümayiş etdirdilər. Onlar müstəqillik tarixində ilk dəfə bütöv Azərbaycanda keçirilən parlament seçkilərində öz məsuliyyətini dərk edərək seçkilərdə iştirak etməyi özlərinin vətəndaşlıq borcu hesab edirdilər.

Dairənin sədri Xaliq Xudaverdiyevlə söhbət zamanı məlum oldu ki, növbədənkənar parlament seçkilərinə yüksək səviyyədə hazırlıq işləri görülmüşdür. Məhz buna görə də seçicilər arasında fəallıq yüksək idi. Əhalinin yüksək əhvalından görmək olurdu ki, insanlar bu siyasi kampaniyanın nəticələrindən çox şey gözləyirlər. Düşünürlər ki, ali qanunvericilik orqanına ən layiqli, savadlı və dövlətini sevən insanlar seçilməlidirlər.

Dairənin 2 saylı məntəqəsinə səs verməyə gələnlər arasında 104 yaşlı Gədəbəy sakini Bəsti Quliyeva da var idi. O, söhbət zamanı bildirdi ki, seçki məntəqəsinə gələrək cavanlara nümunə olmaq istəyib. Gənc nəsil görməlidir ki, ölkənin siyasi kampaniyalarında hər bir Azərbaycan vətəndaşı fəallıq göstərməlidir.

## QUSAR

60 saylı Quba-Qusar Seçki Dairəsi üzrə 61 məntəqə təşkil olunmuşdur. Məntəqələrin 18-i Qusar, 43-ü Quba ərazisində fəaliyyət göstərir. 9 məntəqədə veb-kamera quraşdırılmışdı. Seçkiləri 427 müşahidəçi izləmişdir.

44 saylı seçki məntəqəsi Qusarın Aşağı Ləgər kəndində təşkil edilmişdir. Məntəqənin sədri Lamiyə Abdullayeva bildirdi ki, səsvermə günü səhərdən başlayaraq seçicilərdə fəallıq hiss etdik. 18 yaşı tamam olan Olya Kiçibəyova öz fikirlərini bizimlə bölüşərək bildirdi ki, 44 günlük Vətən müharibəsində oğullar işğal altında olan torpaqlarımızı azad etdilər: "Bu gün vətənimizin bütöv ərazisində keçirilən seçki bizim qürur yerimizdir. Qəhrəman oğulların 4 iI əvvəl etdiklərini bizlər bu gün seçki masasında davam etdirməliyik". Gənclər Jasmin Həsənova, Elşən Məmmədov, Abdulmir Şixzadayev və Dilarə Rizvanova Olyanın fikirlərini dəstəklədiklərini bildirdilər.

Kənd sakini Murad Həsənov da bildirdi ki, torpaqlarımızın düşmənlərdən təmizlənməsi bizim uğurumuzdur: "Azad öıkəmizdə keçirilən növbədənkənar parlament seçkisi tarixi bir hadisədir. Hər kəs seçkidə iştirak etməyi özünə şərəf saymalıdır".

Şahbaz Qafarov məntəqədə müşahidəçi kimi iştirak edirdi. Öz təşəbbüsü ilə müşahidəçi olan Şahbaz seçki başlayandan heç bir qayda pozuntusuyla rastlaşmadığını bildirdi. Ümumiyyətlə, məntəqədə 14 müşahidəçi seçkinin gedişatını izləyirdi.

Həmin dairənin 1 saylı məntəqəsi Qusar 1 saylı şəhər tam orta məktəbində təşkil olunmuşdu. Məntəqənin sədri Faiq Qardaşov dedi ki, 1388 seçicinin qeydə alındığı məntəqədə seçkiləri 14 müşahidəçi izləyib və heç bir qayda pozuntusu qeydə alınmayıb.

Seçici Zeynəb Zeynalova, Tacir Sahbazov və Raziyə Əliverdiyeva qeyd etdilər ki, seçki normal keçir. Bildirildi ki, hər seçici azad şəkildə seçki siyahısında adını tapdıqdan sonra istədiyi namizədə səs verir.

## ŞABRAN

56 saylı Şabran-Xaçmaz seçki dairəsi üzrə 64 məntəqənin 5-də veb-kamera quraşdırılmışdır. Məntəqələrdə seçkiləri qeydiyyatdan keçən 738 müşahidəçi izləmişdir.

Dairənin 1 saylı seçki məntəqəsi Tofiq Abbasov adına Şabran şəhər 1 saylı tam orta məktəbinin binasında təşkil edilmişdir. Məntəqənin sədri Ruziyyə Kərəmova bildirdi ki, seçkiyə start veriləndən seçicilərin fəallığı hiss olundu. Gənc seçici Nəzrin Muradova bu il imtahanlardan yüksək bal toplayaraq İqtisad Universitetinə qəbul olunub. Nəzrin səsvermədə iştirakını bizimlə belə bölüşdü:

- Mənim sevincim hədsizdir. Çünki tələbə adına layiq görülmüşəm. Digər tərəfdən, ərazi bütövlüyü təmin edilmiş Azərbaycanın parlament seçkilərinin iştirakçısıyam. Seçdiyim namizədə isə inanıram. Əminəm ki, qalib gələcək namizəd ölkəmizin inkişafında yaxından iştirak edəcək.

Müşahidəçi Nazilə İsgəndərova seçkinin normal keçdiyini, təlimat qaydalarına uyğun təşkil olunduğunu bildirdi.

## BƏRDƏ

Qarabağın qapısı sayılan Bərdədə də Milli Məclisə növbədənkənar seçkilərdə fəal vətəndaş mövqeyi diqqət çəkdi. Şəhərin mərkəzi hissəsində yerləşən 3 saylı şəhər məktəbində olduq. 99 saylı Bərdə seçki dairəsinin 5 saylı seçki məntəqəsi burada təşkil olunmuşdu. Məntəqədə qələbəlik idi. Bərdənin nüfuzlu ziyalılarından olan Aydın Səfərovla burada görüşdük. Həmsöhbətimdən seçki təəssüratını soruşduq:

- Seçki prosesinin gedişindən narazı qalmağa kiminsə hər hansı bir əsası yoxdur. Hər şey göz qabağındadır. Burada tam demokratik şərait yaradılıb. Sərbəst şəkildə istədiyin namizədə səs verə bilərsən. Mən təqaüddəyəm, artıq xeyli yaşım var. Çox seçkidə iştirak etmişəm. İndiki seçki demokratiyaya doğru yolda uğurlu addım sayılmalıdır. Xalqımız, dövlətimiz üçün xeyirli, uğurlu olsun.

Bərdə şəhəri Mədəniyyət Mərkəzində yerləşən 8 saylı seçki məntəqəsində isə ATƏT-in seçki müşahidə missiyasının icraçıları Alptekin Hüseyn və İrina Kosaşeva ilə görüşüb seçki təəssüratlarını öyrəndik. Cavabları qısa, aydın və pozitiv oldu:

- Hiss olunur ki, seçkilərə ciddi hazırlıq görülüb. Müxtəlif seçki məntəqələrində olmuşuq. Heç bir qanun pozuntusu müşahidə etməmişik. Proses şəffaf, demokratik qaydada davam edir.

## AĞCABƏDİ

86 saylı Ağcabədi seçki dairəsinin əhatə etdiyi yaşayış məntəqələrində də seçici fəallığı oldu. Rayonun Avşar kəndində 3 seçki məntəqəsi fəaliyyət göstərirdi. 19 saylı Avşar kənd seçki məntəqəsində Ağcabədi rayon Ağsaqqallar Şurasının üzvü, uzun illər səmərəli pedaqoji fəaliyyətlə məşğul olmuş Ədalət Hüseynovla görüşdük. Ədalət müəllim etdiyi seçim barədə danışdı:

- Adını çəkməsəm də, deyə bilərəm ki, yaxşı tanıdığım, qabiliyyətinə, bacarığına yaxından bələd olduğum, xalqına, dövlətinə bundan sonra da ləyaqətlə xidmət edəcəyinə inandığım bir namizədə səs verdim. Əlbəttə, bu mənim öz seçimimdir. Bir ziyalı olaraq şəxsi maraqları deyil, xalqın, dövlətin maraqlarını əsas götürməliyik. Elə etməliyik ki, sonda qazanan doğma xalqımız, qüdrətli dövlətimiz olsun.

## TƏRTƏR

97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinin 1 saylı seçki məntəqəsində də qələbəlik gördük. İkinci Qarabağ savaşının gerçək qəhrəmanına çevrilən tərtərlilər dövlətçiliyə yenilməz sədaqətləri ilə hər zaman seçiliblər. İndiki növbədənkənar parlament seçkilərində də tərtərlilərin bu mövqeyi dəyişməz olaraq qalırdı.

Tərtər Mədəniyyət Mərkəzində yerləşən 1 saylı seçki məntəqəsində Yeni Azərbaycan Partiyasından olan müşahidəçi Svetlana Bağırova ilə görüşdük. Svetlana xanım sevincini gizlətmədi:

- Tərtərdə xoş ovqat yaşanır. Bizi qələbəyə, əmin-amanlığa, firavan həyata qovuşduran dövlətimizlə qürur duyuruq. Tərtərlilər həyatın və zamanın çox sınaqlarından çıxıblar. Səhv etmək limitimiz artıq çoxdan tükənib. Bu gün Tərtərdə səsvermə hüququ olan hər kəs yetərincə məlumatlıdır. Əlbəttə, hər bir seçici istədiyi namizədə səs verməkdə tam müstəqildir. Seçki prosesi bu fikrin əyani təsdiqidir. Çoxsaylı müşahidəçilərin normal fəaliyyəti üçün bütün məntəqələrdə əlverişli şərait yaradılmışdır.

***"Azərbaycan"***

# Seçicilər qüdrətli Azərbaycana səs verdilər





## ABŞERON

47 saylı Sumqayıt-Abşeron-Qaradağ seçki dairəsinin 26 saylı seçki məntəqəsi Abşeron rayonunun Ceyranbatan qəsəbəsindəki 1 saylı tam orta məktəbdə təşkil edilmişdir. Məntəqənin sədri Şahsuvar Mirzəyev bildirdi ki, səsvermə başlayanda seçicilər fəallıq göstərdilər. Məntəqə üzrə ilk dəfə səs verənlərin sayı 17 nəfər idi. Aysun Bədəlli, Asiman Yaqnəliyev, Heydər Nəzərov məntəqəyə ilk gələnlər sırasında idilər. Aysun səsvermə sevincini bizimlə belə bölüşdü: "Biz gənclər bu seçkidən gələcəyimiz üçün çox şey gözləyirik. Dəstəklədiyim namizəd ümidlərimizi doğruldacağına inanıram".

Müşahidəçilər isə heç bir qanun pozuntusuna rast gəlmədiklərini dedilər.

50 saylı Abşeron 3-cü seçki darəsinin 10 saylı seçki məntəqəsi A.Müzəffərov adına Saray qəsəbəsi 2 saylı tam orta məktəbdə təşkil olunmuşdu. Məntəqənin sədri Nəzakət Məmmədovanın sözlərinə görə, 1140 seçicinin 20 nəfəri ilk dəfə səs verənlər idi. Seçkiyə start veriləndən onların çoxu məntəqəyə tezdən gəlmişdilər. Gənc seçici Nicat İsmayılov: "İlk sevincimi şəxsiyyət vəsiqəmi alanda yaşamışam. Bu seçkidə də həmin hissləri təkrar yaşadım. Mənim səsim mənim gələcəyimdir. Gərək hər bir gənc bunu unutmasın".

Müxtəlif partiyaların müşahidəçiləri seçkidə heç bir qanun pozuntusuna yol verilmədiyini bildirdilər.

## CƏLİLABAD

Rayon üzrə 110 min 323 nəfər səsvermə hüququna malik idi və onlar 3 Seçki Dairəsi üzrə 106 seçki məntəqəsində qeydə alınmışlar. Seçki dairələrinin əhatə etdiyi bir sıra seçki məntəqələrində veb-kamera, əlil seçicilərin rahatlıqla səs verməsini təmin etmək məqsədilə panduslar quraşdırılmışdı. Seçki Məcəlləsinə uyğun olaraq hazırlanmış seçici siyahıları çap edilərək görməli yerlərdən asılmışdı.

Biz bir neçə seçki məntəqəsində seçkilərin gedişi ilə tanış olduq. Əvvəlcə 71 saylı Cəlilabad şəhər DSK-nın sədri İsa Allahverdiyevlə görüşüb söhbət etdik. Öyrəndik ki, dairə üzrə 54 seçki məntəqəsi təşkil olunub. Hazırlıq işləri yüksək səviyyədə aparılıb. Görüşlərin keçirilməsi üçün Cəlilabad RİH başçısının sərəncamı ilə 53 qapalı və bir o qədər də açıq şəraitdə yerlər ayrılmışdır. Dairə üzrə müxtəlif partiyalardan, habelə öz təşəbbüsləri ilə 777 nəfər müşahidəçi qeydə alınmışdır. Məntəqə üzvləri üçün hərəkət cədvəli, protokolların doldurulması və s. barədə təlimatları öyrədən 4 günlük treninq keçirilmişdir. Seçkilərin gedişini izləmək üçün 14 məntəqədə veb-kamera quraşdırılmışdır.

İsa Allahverdiyev onu da qeyd etdi ki, dairə üzrə 7 deputatlığa namizəd qeydə alınmışdır. Onlardan 1 nəfəri Yeni Azərbaycan, 1 nəfəri Müsavat, 1 nəfəri Ümid partiyaları tərəfindən irəli sürülmüşdür. Qalan 4 nəfər isə öz təşəbbüsləri ilə seçkiyə qatılmışlar. Ən yaşlı seçici isə Seyidbazar kənd sakini 101 yaşlı Həcər Rüstəmova və Astanlı kənd sakini 101 yaşlı Əbiş Zamanovdur.

Cəlilabad şəhərindəki 3 saylı məntəqə Akademik Zərifə Əliyeva adına 7 saylı tam orta məktəbin binasında yerləşir. Seçki məntəqəsində müstəqil müşahidəçi Fikrət Cəfərov suallarımıza cavab verərək dedi ki, səsverməni izləməkdə tam müstəqilik: "Müşahidəçilərə qarşı heç bir təzyiq görməmişik, bütün proses öz nizamında, öz qaydasında gedir".

72 saylı Cəlilabad kənd DSK-nın sədri Mehman Rzayev dedi ki, dairə üzrə 45 məntəqə yaradılıb. Həmin məntəqələrdə ilk dəfə səs verən seçicilərin sayı 569 nəfər idi. Ən yaşlı seçici isə Edişə kənd sakini 100 yaşlı Surə Mirzəyeva olmuşdur. 7 namizəddən 3 nəfəri siyasi partiyalardan irəli sürülənlər, qalan 4 nəfər şəxsi təşəbbüsləri ilə seçkiyə qatılanlar idi. Müşahidəçilərin sayı isə 810 nəfər olmuşdur. 5 məntəqədə veb-kamera quraşdırılmışdır. Seçkilərdə heç bir qanun pozuntusu qeydə alınmamışdır.

73 saylı Masallı-Cəlilabad seçki dairəsinin 44 saylı məntəqəsində Vətən müharibəsi qəhrəmanı, şəhid Rəşad Abdullayevin atası Arif Abdullayevlə həmsöhbət olduq. Bildirdi ki, Milli Məclis seçkilərinə xüsusi əhvali-ruhiyyə ilə gəlib: "Əminəm ki, deputat seçiləcək insanlar Ulu Öndər Heydər Əliyevin qoyduğu yolla gedəcək, onun müqəddəs işinin uğurla davam etdirilməsində, Azərbaycanın daha da irəliləməsində Prezidentə kömək edəcəklər".

## SALYAN

Səhər saat 8 radələri idi. Bazar günü olsa da, adamlar yuxudan tez oyanmışdılar. Hamı Milli Məclisə keçirilən növbədənkənar seçkilərdə iştirak etmək, öz vətəndaşlıq borclarını yerinə yetirmək üçün Salyan şəhərindəki müxtəlif ünvanlarda yerləşən seçki məntəqələrinə tələsirdi. Biz də seçkilərin gedişi ilə yaxından tanış olmaq üçün bir neçə məntəqəyə baş çəkdik.

4 saylı məntəqə Salyan şəhərinin ən adlı-sanlı təhsil ocağı olan 2 saylı tam orta məktəbin binasında yerləşirdi. Qələbəlik idi. Girişdə seçicilərin hər birinin şəxsiyyət vəsiqəsi, barmağına şəffaf mürəkkəbin vurulub-vurulmaması yoxlanılırdı.

Veb-kameranın quraşdırıldığı məntəqədə müşahidəçilər və deputatlığa namizədlərin səlahiyyətli nümayəndələri üçün lazım olan hər şərait yaradılmışdı. Seçkinin gedişi barədə məlumat verən 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin 4 saylı məntəqəsinin sədri Aynur Seyranova bildirdi ki, məntəqə üzrə ilk dəfə səs verənlərin sayı 11-dir. Ən yaşlı seçicinin isə 92 yaşı var. 26 nəfər xəstə seçici məntəqəyə gələ bilməyəcəkləri haqda məlumat vermişdir. Məntəqə üzvləri müşahidəçilərlə onlara baş çəkmişlər.

Məntəqənin həyətində səsvermədə iştirak edən bir neçə seçici ilə görüşüb təəssüratlarını bildirmələrini xahiş etdik. Qüdrət Hüseynov dedi:

- Budəfəki səsvermənin mənası böyükdür. Bu, ölkəmizin suverenliyi tam şəkildə təmin edildikdən sonra Milli Məclisə keçirilən ilk seçkidir. Doğma Qarabağımızın hər yerində də dairə və müvafiq məntəqələr yaradılmış, seçici hüququ olan hər kəs öz elində, obasında səsvermədə iştirak etmək imkanı əldə etmişdir. Gözləntilərimiz çoxdur. İnanırıq ki, yeni seçilən deputatlar ölkəmizin, xalqımızın rifahı, əhalinin sosial şəraitinin yaxşılaşdırılması, dövlətimizin müdafiə qabiliyyətinin gücləndirilməsi üçün mühüm qərarlar qəbul edəcəklər.

Salyan şəhər sakini Nərminə Tağıyeva isə öz fikrini belə ifadə etdi:

- Seçki azad, demokratik şəraitdə keçir. Mən heç bir qanun pozuntusu ilə rastlaşmadım. Hər kəs seçdiyi namizədə səs verirdi. Amma etiraf edim ki, 10 nəfər namizəd arasında seçim etmək elə də asan deyil. Əminəm ki, budəfəki seçkilər hər bir Azərbaycan vətəndaşının həyatında mühüm rol oynayacaqdır.

Dairənin 6, 13, 3 saylı məntəqələrində olarkən də onların hər birində seçici fəallığını gördük.

## LERİK

80 saylı Lerik-Astara seçki dairəsi üzrə 46 min 822 seçici qeydə alınmışdır. Onların 32 min 215 nəfəri Lerik, 14 min 607 nəfəri isə Astara rayonunun seçiciləri idilər. 10 namizədin mübarizə apardığı məntəqələrdə 1488 müşahidəçi səsvermə prosesini izləyirdi.

Lerik şəhər 1 saylı seçki məntəqəsində səhər tezdən seçicilərin fəallığı hiss olunurdu. Səsvermədə iştirak edən ağsaqqal seçici Hidayət Bəşirov öz ürək sözlərini bizimlə bölüşdü. O, Milli Məclisə növbədənkənar seçkilərin azad, demokratik və şəffaf şəraitdə keçdiyini qeyd etdi. Hidayət müəllim bir seçici olaraq səsvermə prosesinin yüksək səviyyədə təşkil olunduğunu bildirdi.

Nübar Fərəczadə isə ilk dəfə idi ki, səsvermədə iştirak edirdi. O, seçki məntəqəsinə babası ilə gəlmişdi. Nübar dedi ki, bu il onun üçün uğurlu bir ildir. Çünki ali məktəblərə qəbul imtahanında 603 bal toplayaraq hüquqşünaslıq ixtisasına qəbul olunub. Daha bir əlamətdar hadisə isə ilk dəfə səsvermədə iştirakıdır.

18 yaşının tamam olması sentyabrın 1-nə təsadüf edən Arzu Xosrovova Lerik şəhər 3 saylı seçki məntəqəsində xüsusi qarşılandı. Ona təntənəli şəkildə MSK-nın hazırladığı təbrik bukleti hədiyyə olundu. Arzu xanım ikiqat sevincini bizimlə bölərək dedi ki, Milli Məclisə seçkilərdə iştirakı ölkənin ictimai həyatında iştirak etmək üçün atdığı ilk addımlarıdır: "Gənclərə verilən böyük dəyərə görə dövlətimizə minnətdaram. İnanıram ki, seçimim millətim və dövlətim üçün uğurlu olacaqdır".

## ASTARA

79 saylı Astara seçki dairəsi üzrə 50 seçki məntəqəsi, 80 saylı Lənkəran-Astara seçki dairəsi üzrə 19 seçki məntəqəsi fəaliyyət göstərirdi. Hər iki dairə üzrə məntəqələr səsverməyə tam hazırlanmış, Seçki Məcəlləsinin tələblərinə əməl edilməklə seçkilərin demokratik, şəffaf keçirilməsinə nail olmaq üçün qanunla müəyyən olunmuş bütün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Astara şəhər 3 saylı seçki məntəqəsində səs verən şəhər sakini Yeganə Əmirova qeyd etdi ki, səsvermə hüququndan istifadə edərək layiq bildiyi namizədə səs vermişdir. Digər şəhər sakini Kəmalə Səlimzadə də səsvermənin gedişindən razı qaldığını ifadə edərək seçki məntəqəsində seçkinin azad və demokratik keçirilməsi üçün yaradılan şəraitə görə minnətdarlığını ifadə etdi: "Milli Məclis qanunverici orqan olduğu üçün gənc, müstəqil dövlətimizdə qanunların qəbul edilməsində aktiv olan, savadlı, bacarıqlı namizədlərə səs vermək əsasdır. Səs verəcəyimiz namizədin kimliyini bilməli, seçimimizi düzgün aparmalıyıq. İnanıram ki, rayonumuzdan seçiləcək Milli Məclis üzvü ən fəal deputatlardan olacaq".

Kijəbə qəsəbə 9 saylı seçki məntəqəsində səs verən gənc Vüqar Nəcəfov isə seçkilərdə ilk iştirakının sevincini bölüşdü: "Hər birimiz üçün önəmli olan ölkəmizin, o cümlədən rayonumuzun inkişafı ilə bağlı mühüm əhəmiyyətli məsələlərin həllində fəallıq göstərə bilən şəxsə səs verdim və bu, həyatımda ilk məsuliyyətli seçimdir".

Astara şəhər 2 saylı seçki məntəqəsində səs verən şəhər sakini Elməddin Quliyev də səsvermənin azad, demokratik, beynəlxalq standartlara uyğun şəkildə keçirildiyini bildirdi. Qeyd etdi ki, seçkinin yüksək səviyyədə keçməsi üçün hər cür şərait yaradılıb.

Ümumiyyətlə, rayonun hər iki dairəsinə daxil olan seçki məntəqələrində seçkilərin şəffaf, ədalətli və obyektiv keçirilməsi üçün yüksək şərait yaradılmışdı. Bunu məntəqələrdəki vəziyyəti müşahidə edən müxalifət və qeyri-hökumət təşkilatlarının nümayəndələri də etiraf etdilər.

***"Azərbaycan"***

## *104 yaşlı Qızvəs nənə:* "Layiqli namizədə səs verdim"




**Lənkəranda 104 yaşlı seçici növbədənkənar parlament seçkilərində səs verib.**

AZƏRTAC xəbər verir ki, Lənkəran rayonunun Xarxatan kənd sakini 104 yaşlı Qızvəs Mehtiyeva səhhətində problem yarandığı üçün 76 saylı Lənkəran-Masallı seçki dairəsinin 29 saylı məntəqəsinə seçki qutusunun evinə gətirilməsi üçün müraciət edib. Onun istəyinə uyğun olaraq evinə səyyar seçki qutusu gətirilib.

"İndiyə kimi bütün seçkilərdə iştirak etmişəm. Amma bu dəfə səhhətimdə yaranan problemə görə məntəqəyə gedə bilmədim. Xahiş etdim ki, daşınan seçki qutusunu evimə gətirsinlər. Layiqli namizədə səs verdim və ümid edirəm ki, bu seçim ölkəmizin gələcəyi üçün müsbət dəyişikliklərə səbəb olacaq. Seçkilərin nəticələrinin hamımız üçün xeyirli olacağına inanıram" , - deyə 104 yaşlı Qızvəs Mehtiyeva bildirib.

## Şəhid atasının evinə daşınan seçki qutusu aparılıb

**113 saylı Qax-Şəki seçki dairəsinin 4 saylı məntəqəsində səhhətləri seçki məntəqəsinə gəlməyə imkan vermədiyi üçün yeddi nəfərin evinə daşınan seçki qutusu aparılıb. Onlardan da biri Vətən müharibəsi şəhidi Asəf Ağayevin atası Abid Ağayevdir.**



AZƏRTAC xəbər verir ki, 113 saylı Qax-Şəki seçki dairəsinə daxil olan 73 seçki məntəqəsinin 60-ı Qaxda, 13-ü isə Şəki rayonunda yerləşir. Dairə üzrə 54 min 437 seçici bu gün öz səsvermə hüququndan istifadə edir.

Dairənin 4 saylı məntəqəsində isə 1006 nəfər seçici qeydiyyatdadır. Məntəqə sədri Dilşad Mustafayevanın sözlərinə görə, həmin seçicilərdən 7 nəfər onlara müraciət edərək evdə səs vermək istədiklərini bildiriblər. Beləcə məntəqədə daşınan qutu hazırlanır, səs verəcək seçicilərin bülletenləri qaydasına salınaraq məntəqə üzvü və müşahidəçilərdən birinin iştirakı ilə yola salınır.

Vətən müharibəsi şəhidi Asəf Ağayevin atası Abid Ağayev uzun illərdir yataq xəstəsidir. Parlament seçkiləri ilə əlaqədar Abid Ağayev dairə seçki komissiyasına müraciət edərək, evində səs verməsi üçün şərait yaradılmasını xahiş edib. Buna görə də onun evinə daşınan seçki qutusu gətirilib.

Abid Ağayev ötən müddətdə seçki prosesini izlədiyini, hər bir namizəd barədə ətraflı məlumat topladığını bildirib. Daha sonra ona bülleten təqdim edilib. Şəhid atası bülleteni bir daha diqqətlə nəzərdən keçirdikdən sonra öz namizədinə səs verib. 4 saylı seçki məntəqəsinin üzvü Təranə Məcidova bildirib ki, onlar daha altı ünvana yollanaraq xəstə, ahıl insanların səs verməsini təşkil edəcəklər. Qeyd edək ki, bu dairə üzrə 9 namizəd qeydə alınıb.

## *Lənkəranlı gənc:* "İnanıram ki, bu seçkilər ölkəmizin daha da inkişafına gətirib çıxaracaq"

**Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə səsvermədə ilk dəfə iştirak edəcək seçicilərin sayı 51 min 141 nəfərdir. Onlardan biri də Lənkəran şəhər sakini Amaliya Manıyevadır.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, o, 77 saylı Lənkəran seçki dairəsinin 24 saylı məntəqəsində öz konstitusion hüququndan istifadə edərək, istədiyi namizədə səs verib. "İlk dəfə səs vermək ayrı bir hissdir. Bununla yanaşı, budəfəki parlament seçkiləri ölkəmizin bütün ərazisində keçirilir. İnanıram ki, bu seçkilər ölkəmizin daha da inkişafına, parlaq gələcəyə doğru yol açacaq" , - deyə ilk dəfə səs verən Amaliya Manıyeva bildirib.

## 104 yaşlı Alya nənə səs verib



**41 saylı Gəncə-Samux-Goranboy seçki dairəsinin dairə seçki komissiyasının 43 saylı məntəqəsində daşınan qutu vasitəsilə 9 nəfər səsvermədə iştirak edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, onlar arasında ən yaşlı seçici Goranboy rayonunun Düzqışlaq kənd sakinidir. 1920-ci il təvəllüdlü Alya Musayeva üçün daşınan qutu məntəqə üzvü tərəfindən onun yaşadığı evə gətirilib. O, istədiyi namizədə səs verib. Bununla da Alya nənənin səsvermə hüququndan evdə istifadə etməsi təmin olunub.

## İmişlidə 112 yaşlı Cahan nənə seçki məntəqəsinə gələrək səsvermədə iştirak edib

**81 saylı İmişli seçki dairəsi üzrə yaşı 100-dən yuxarı olan 1 nəfər Milli Məclisə növbədənkənar keçirilən seçkilərdə məntəqəyə gələrək səsvermədə iştirak edib.**

AZƏRTAC xəbər verir ki, 1912-ci il təvəllüdlü Məmmədova Cahan Həsən qızı rayonun Qaraqaşlı kənd sakinidir. 112 yaşlı seçici qeydiyyatda olduğu ərazi üzrə 29 saylı seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.

# "Tarixə düşən seçki"

## *Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri xarici KİV-də geniş işıqlandırıldı*




**Parlament seçkilərinin gedişi beynəlxalq müşahidə missiyaları və xarici KİV tərəfindən yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı. Bildirildi ki, bütövlükdə bu seçkilər demokratik mühitdə, azad və şəffaf keçirildi, xalqın iradəsini ifadə etmək kimi fundamental vəzifə yerinə yetirildi, vətəndaşlar öz seçimlərini növbəti dəfə etdilər.**

Türkiyənin, Rusiyanın, Belarusun, Şimali Kipr Türk Cümhuriyyətinin aparıcı media orqanları növbədənkənar parlament seçkilərini geniş şəkildə işıqlandırdılar. Telekanalların reportajlarında və məqalələrdə Milli Məclisə seçkilərin Azərbaycanın gələcəyində böyük əhəmiyyəti vurğulandı.

"Türkiyə" qəzeti "30 ildən sonra bir ilk" başlıqlı xəbərində seçkilərin fərqli xüsusiyyət daşıdığına diqqət çəkdi. Qeyd olunub ki, parlament seçkiləri 30 ildə ilk dəfədir Azərbaycanın bütün suveren ərazisində təşkil olunur. Həmçinin vurğulanıb ki, respublikanın erməni işğalından azad olunmuş ərazilərində, o cümlədən Şuşa və Xankəndidə 42 mindən çox seçici qeydə alınmışdır.




"Axşam" qəzeti "Qardaş ölkə seçkilərdə" başlıqlı xəbərində Azərbaycanda növbədənkənar parlament seçkilərinin dəqiq, şəffaf və demokratik keçirildiyini diqqətə çatdırıb.

"Anadolu Agentliyi"nin "Azərbaycan seçkilərdə" başlıqlı məqaləsində isə bildirilib ki, Prezident İlham Əliyev iyunun 28-də VI çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib. Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə 54 seçki məntəqəsi fəaliyyət göstərib.




Qəzetlərdən "Hürriyət"in "Azərbaycan xalqı seçkilərdə", "Milat"ın "Azərbaycanda seçki vaxtıdır", "Yeni Şafak"ın "Azərbaycan seçkilərdə", agentliklərdən "Ulusal"ın "30 ildən sonra bütün torpaqlarda seçki həyəcanı", "Haber 7"nin "30 ildən sonra ilk dəfə tarixə düşən seçki", "Kamudanhaber"in "Xalq seçkilərdə", "Kıbrıshaber"in "Xalq seçkilər"də, kanallardan "TRTHaber", "Haber Global", "TGRTHaber" və "NTV"nin "Azərbaycan parlamentində seçkilər" başlıqlı materiallarında qeyd olunur ki, 30 illlik fasilədən sonra Azərbaycanın işğaldan azad edilmiş ərazilərində parlament seçkiləri keçirildi. O da bildirilib ki, beynəlxalq və yerli müşahidəçilər də seçkidən sonra verdikləri açıqlamalarda seçkiqabağı dövrdə heç bir pozuntunun olmadığını, bütün namizədlər, siyasi partiyalar üçün lazımi şəraitin yaradıldığını bəyan ediblər.

Rusiyanın "TASS", "İnterfaks", "Bfm.ru" agentliklərində də parlament seçkilərindən geniş bəhs olunub. Xüsusi olaraq bildirilib ki, Azərbaycan ilk dəfə suveren ərazisində parlament seçkiləri keçirdi.

Belarusun "Belta" Agentliyinin seçkilərin gedişi barədə dərc etdiyi məqalədə isə MDB-nin müşahidəçilər missiyasının rəhbəri Leonid Anfimovun fikirlərinə yer ayrılıb: "Azərbaycanda parlament seçkiləri yüksək səviyyədə təşkil olunub".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## *Ombudsman:*

## "30 ildən sonra ilk dəfə parlament seçkiləri Azərbaycanın bütün ərazilərində keçirilir"




**30 ildən sonra ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində parlament seçkiləri keçirilir. Ötən illərin müsbət təcrübəsinə uyğun olaraq Ombudsman Aparatı öncədən təsdiqlənmiş təqdim planına uyğun şəkildə Mərkəzi Seçki Komissiyası ilə birgə Azərbaycanın bütün ərazisində geniş maarifləndirmə tədbirləri təşkil edib. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva deyib.**

"Həmçinin işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, monitorinqlər keçirilib və seçkiyə hazırlıq prosesi diqqətdə saxlanılıb. Əksər seçki məntəqələrində veb-kameralar, panduslar quraşdırılıb, gözdən əlil vətəndaşlar üçün brayl əlifbası ilə çap olunan bülletenlər təqdim edilir".

## MEDİA: "Azadlıq Radiosu"nun mənbəyi bilinməyən məlumatları anonim "jurnalist qeydi" kimi paylaşması jurnalist adından sui-istifadə halıdır

**ABŞ Konqresi tərəfindən maliyyələşən "Azadlıq Radiosu" Azərbaycanda Milli Məclisə növbədənkənar seçkilərlə bağlı ictimai rəyi manipulyasiya etməyə yönəlmiş materiallar yayımlamaqdadır və təəssüflə bildiririk ki, bu məlumatlar "jurnalist qeydi" başlığı altında paylaşılır.**

AZƏRTAC xəbər verir ki, bu barədə Medianın İnkişafı Agentliyinin açıqlamasında bildirilir.

Açıqlamada həmçinin deyilir: "Qeyd edək ki, qanunvericiliyin tələbinə uyğun olaraq Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində akkreditasiyadan keçmiş bütün xarici media subyektlərinin seçkiləri işıqlandırmaq üçün Mərkəzi Seçki Komissiyasına müraciətinə müsbət cavab verilib. Lakin "Azadlıq Radiosu"nun bununla bağlı hər hansı müraciəti olmayıb.

"Azadlıq Radiosu"nun mənbəyi bilinməyən, qərəzli məlumatları anonim "jurnalist qeydi" kimi paylaşması jurnalist adından sui-istifadə halıdır və birmənalı olaraq media etikası prinsiplərinə ziddir.

Qeyd olunanlar fonunda medianın manipulyasiya metodu ilə ictimai rəyi çaşdırmaq cəhdlərini yolverilməz hesab edir və qınayırıq".

## Bir sıra seçki məntəqələrində saxta jurnalist vəsiqəsindən istifadə halları ilə bağlı müvafiq araşdırmalar aparılır

**Daxili İşlər Nazirliyi və Medianın İnkişafı Agentliyi (MEDİA) birgə açıqlama yayıb.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

AZƏRTAC açıqlamanı təqdim edir: "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər zamanı bir sıra seçki məntəqələrində saxta jurnalist vəsiqəsindən istifadə halları müəyyən edilib. Üzərində Medianın İnkişafı Agentliyi tərəfindən verildiyi iddia olunan "Jurnalist vəsiqəsi" orijinal nüsxənin elementlərini kobud formada təkrarlayaraq qeyri-qanuni yolla hazırlanıb.

Xatırladırıq ki, jurnalist vəsiqəsinin verilməsi qaydası "Media haqqında" Azərbaycan Respublikası Qanunu və "Media Reyestrinin aparılması Qaydaları" ilə tənzimlənir, onun forması isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə təsdiqlənib.

Jurnalist vəsiqəsi müvafiq qanunvericiliyin tələblərinə cavab verən jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən verilən, rəqəmlərin və (və ya) hərflərin kombinasiyasından ibarət unikal qeydiyyat nömrəsi olan rəsmi sənəddir. Vəsiqənin arxa hissəsində yerləşdirilmiş QR kodunu skan etməklə vəsiqə sahibini eyniləşdirmək, onun Media Reyestrinə daxil edilib-edilmədiyini, həmçinin vəsiqənin həqiqiliyini müəyyənləşdirmək mümkündür.

Bildiririk ki, jurnalist vəsiqəsinin hər hansı forma və üsulla saxtalaşdırılması, istifadəsi qanunvericiliklə müəyyənləşdirilmiş məsuliyyətə səbəb olur. Hazırda Daxili İşlər Nazirliyi tərəfindən müvafiq araşdırmalar aparılır, fakta hüquqi qiymət verilməsi təmin ediləcək".

# Leyla Əliyevanın iştirakı ilə təmizlik aksiyası keçirilib

Sentyabrın 1-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın və IDEA könüllülərinin iştirakı ilə təmizlik aksiyası keçirilib.





AZƏRTAC xəbər verir ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən aksiya Kürdəxanı ərazisində yerləşən gölün sahilində təşkil edilib. İməcilik zamanı zəruri sanitar ləvazimatlarla təchiz edilmiş aksiya iştirakçıları ərazini külli miqdarda tullantıdan, xüsusən də davamlı zərərə səbəb olan plastik tullantılardan təmizləyiblər. Tədbirin əsas məqsədi cəmiyyət tərəfindən ətraf mühitin təmizliyinə riayət olunmasını təbliğ etmək, ölkənin biomüxtəlifliyində xüsusi rola malik ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları təbiətin mühafizəsi uğrunda səylər göstərməyə cəlb etməkdir.

Qeyd edək ki, Xəzər dənizinin və Qafqaz regionunun digər







su hövzələrinin unikal biomüxtəlifliyinin mühafizəsi məqsədilə IDEA çirkləndirilmiş sahilyanı ərazilərin təmizlənməsinə və bərpasına yönəlmiş müntəzəm tədbirlər təşkil edir.

IDEA İctimai Birliyi hamını bir daha planetimizin qarşılaşdığı çoxsaylı problemlərin həlli, indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və hərəkətə keçməyə, təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.



# Sentyabrın 2-də ölkə ərazisində hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir

Azərbaycanda sentyabrın 2-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 759 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 40-50 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Şərq küləyi gündüz bəzi şərq rayonlarında arabir güclənəcək.



Havanın temperaturu gecə 18-23° isti, gündüz 33-38° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-26° isti olacaq.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Azərmətbuatyayımı” ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


BU GÜN MİLLİ MƏCLİSƏ SEÇKİLƏR KEÇİRİLİR
AZƏRBAYCAN
990 namizəd, 6 milyon 421 min 960 seçici, 6478 seçki məntəqəsi
Azərbaycan-Qırğızıstan əlaqələri xalqlarımızın iradəsindən güc alır
Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında qızıl medal qazanan İmaməddin Xəlilovu təbrik edib
Birinci vitse-prezident Mehriban Əliyeva Paralimpiya Oyunlarında gümüş medal qazanan Raman Saleyi təbrik edib
Azərbaycan-Malayziya münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk
SEÇKİLƏRDƏ FƏAL İŞTİRAK EDİN!

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# İbrahim Rəisi və digər İran rəsmi şəxslərinin həlak olduğu helikopter qəzasının səbəbi açıqlanıb

İran İslam Respublikasının keçmiş Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahian və onları müşayiət edən digər şəxslərin olduğu helikopterin qəzaya uğramasının səbəbi açıqlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə İran Silahlı Qüvvələri Baş Qərargahının yekun hesabatında bildirilib.

Vurğulanıb ki, helikopterin qəzaya uğramasına əsas səbəb əlverişsiz hava şəraiti olub.



"Helikopterin qəzaya uğramasının əsas səbəbi regionda yaz mövsümünə xarakterik olan mürəkkəb iqlim şəraiti və qatı dumanın yaranması göstərilir. Nəticədə helikopter dağa çırpılıb", - hesabatda qeyd edilib.

Qeyd edək ki, İran Prezidenti İbrahim Rəisinin olduğu helikopterin qəzaya uğraması nəticəsində 8 nəfər həyatını itirib. Helikopterin göyərtəsində xarici işlər naziri Hüseyin Əmir Abdullahian, Şərqi Azərbaycan əyalətinin qubernatoru Malik Rahmati və Təbriz şəhərinin cümə imamı Məhəmməd Ali əl-Haşim və İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Mehdi Musəvi də olub.

# Pakistanda 4 nəfərdə meymunçiçəyi xəstəliyi qeydə alınıb

Pakistanın Hayber-Paxtunxva əyalətində növbəti meymunçiçəyi xəstəsi qeydə alınıb. Bununla da ölkə ərazisində meymunçiçəyi xəstələrinin sayı 4 nəfərə çatıb.

AZƏRTAC xəbər verir ki, Hayber-Paxtunxva əyalətinin İctimai Səhiyyə üzrə direktoru İrşad Əli Roqaninin sözlərinə görə, xəstə Peşəvar Hava Limanında simptomlarını büruzə verdikdən sonra dərhal yerli xəstəxanalardan birinə yerləşdirilib. Meymunçiçəyi virusu daşıyıcılarından digər iki nəfər də Peşəvar Hava Limanında aşkar olunmuşdu.

Bundan əlavə, Sind əyalətinin Səhiyyə şöbəsindən verilən məlumata görə, Kəraçi Cinna Beynəlxalq Hava Limanında da şübhəli şəxs yaxalanıb.

Pakistanın Milli Səhiyyə Nazirliyinin məlumatında meymunçiçəyi virusunun ölkədə nəzarət altında olduğu bildirilir.



# Türkiyə ordusu İraqın şimalında və Suriyada 17 terrorçunu məhv edib

Türkiyənin Milli Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, bazar günü, sentyabrın 1-də İraqın şimalında və Suriyada 17 terrorçu məhv edilib.

AZƏRTAC xəbər verir ki, İraqın Qara, Metin bölgələrində və "Pençe-Kilit" antiterror əməliyyatı zonasında silahlılara zərbələr endirilib. Bundan əlavə, Suriyanın



Münbiç bölgəsində terrorçular zərərsizləşdirilib. Müdafiə Nazirliyinin məlumatına görə, İraqın şimalında 15, Suriyada isə daha iki yaraqlı məhv edilib.

Türkiyənin Milli Müdafiə Nazirliyi regionda terror təhlükəsini tamamilə aradan qaldırmaq əzmində olduğunu vurğulayıb.

Türkiyə ordusunun bölgədə ilin əvvəlindən məhv etdiyi terrorçuların sayı 1830-u keçib.

# İtaliyada məhbuslar üsyan qaldırıb, 8 nəfər yaralanıb

İtaliyanın Milan şəhərindəki yetkinlik yaşına çatmayanların olduğu cəzaçəkmə müəssisəsində məhbuslar üsyan qaldırıblar.

AZƏRTAC xəbər verir ki, kameralarda döşəkləri yandıran məhbuslar daha sonra qapıları sındırıblar. Əraziyə yanğınsöndürmə briqadası və təhlükəsizlik qüvvələri cəlb olunub. İğtişaşlar nəticəsində 8 məhbus və bir həbsxana işçisi yaralanıb.

Həbsxanadakı 58 məhbusdan üçü divara dırmaşaraq qaçmağı bacarıb. Onlardan birinin təhlükəsizlik qüvvələri tərəfindən dərhal yaxalandığı bildirilib. Hadisə ilə bağlı araşdırmalar aparılır.




# Papa Fransisk Yaxın Şərqdə sülhün zəruriliyini bildirib

Roma Katolik Kilsəsinin rəhbəri Papa Fransisk Yaxın Şərqdə sülhün əldə olunmasının vacibliyini qeyd edib.



AZƏRTAC xəbər verir ki, pontifik ənənəvi "Angelus" duası zamanı tərəfləri atəşkəs üçün danışıqları dayandırmamağa çağırıb. Roma Papası Qəzzada ən qısa zamanda atəşkəsə nail olmağın zəruriliyini bildirib, münaqişənin Fələstinin digər şəhərlərinə yayılma riskindən narahatlığını ifadə edib.

O, girovların azad edilməsinin və müxtəlif xəstəliklərin yayıldığı Qəzzada insanlara yardım etməyin vacibliyini vurğulayıb.

"Müqəddəs torpaqda əmin-amanlıq, Qüdsdə sülh olsun. Qoy müqəddəs şəhər xristianların, yəhudilərin və müsəlmanların hörmət olunduğu və xoş qarşılandığı görüş yeri olsun, heç kim müqəddəs yerlərdə status-kvonu şübhə altına almasın", - deyə pontifik əlavə edib.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4011
Sifariş 1921

Qiyməti 60 qəpik